www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27 avqust 2015-ci il Cümə axşamı № 188 (6216) Qiymәti 40 qəpik

**Xəbər**

## Əli Kərimlinin partiyasından yeni istefalar

yazısı səh.3-də

**Gündəm**

### Azərbaycanın boru kəmərlərinə hücumda erməni izi




PKK-nın Azərbaycanın enerji layihələrini hədəf almasına Avropa niyə reaksiya vermir?; **Arzu Nağıyev:** "Ortada erməni-kürd iş birliyinin olması istisna deyil"

yazısı səh.5-də

### "Azadlıq-2015" deputatlığa namizədlərin ilkin siyahısını təqdim etdi

yazısı səh.5-də

### Bakı Minsk Qrupundan əlini üzüb, amma...

yazısı səh.13-də

### AZAL-ın qiymət oyunu

yazısı səh.4-də

*Politoloq:*

### "Qərb 2005-dəki projeni yenidən başlatmaq istəyir"

yazısı səh.8-də

### YAP-çı deputatlar seçkilərlə bağlı "Yeni Müsavat"a danışdılar

yazısı səh.4-də

### Vəzifəli şəxslər nə qədər maaş alır...

yazısı səh.6-da

### Xədicə İsmayıl və Tural Mustafayevin yaxınlarının ilginc ifadələri

yazısı səh.12-də

### "Qırmızı Xaç"ın əməkdaşları kəlbəcərli girovlarla görüşüb

yazısı səh.13-də

### Hakimin bacısından keçmiş əri haqda sensasion ittihamlar

yazısı səh.11-də

### Beynəlxalq Bankın rəhbərinin qardaşı "Bank Technique"dən çıxıb

yazısı səh.2-də

## Cəfər Cabbarlı küçəsində "Eldar eloğlu" hekayəsi

# BAKIDA İNSANLIQ DRAMI: "KÜÇƏDƏ ÖLMƏK İSTƏMİRƏM..."

Doğma dayısı Eldar Məhərrəmovu evinə buraxmır; küçələrdə gecələyən 44 yaşlı kişi "istədim özümü öldürüm, amma körpüyə çıxmağa halım olmadı..." deyir




yazısı səh.11-də

## NATO baş katibinin Gürcüstana ilk rəsmi səfərinin mühüm pərdəarxası

Qərb strateji qaz kəmərlərini nəzarətə götürür; Rusiyanın bölgədə fəallaşdığı, kəmərlərə terror təhlükəsinin artdığı məqamda Alyans Azərbaycanın "qərb qapısı"ndan potensial təhlükə ünvanlarına mesaj göndərdi...

yazısı səh.9-da



*Abid Şərifov:*

### "O şirkətin rəhbəri mənim qardaşımdır"

yazısı səh.4-də



*Akif Əli:*

### "Artur Rəsizadə tamamilə sağlam adamdır, hər gün işə gəlir"

yazısı səh.6-da



*Qarabağ qazisi Rüxsarə Cumayeva:*

### "Başqasına möhtac olmaqdan bezmişəm"

yazısı səh.10-da



## Müsavat-REAL-"NİDA" ittifaqı yaranır

**Avqustun 26-da Müsavat Partiyasının mərkəzi qərargahında Müsavat Partiyası, "REAL" Vətəndaş Hərəkatı və "NİDA" Vətəndaş Hərəkatı təmsilçilərinin görüşü keçirilib. Müsavat Partiyasından verilən xəbərə görə, görüşdə noyabr ayında keçiriləcək parlament seçkiləri və bu seçkilərdə həmin təşkilatlar arasında əməkdaşlıq perspektivləri barədə müzakirələr davam etdirilib.**

Qeyd edək ki, adıçəkilən qurumlar arasında danışıqlar ötən həftədən başlayıb. Əvvəl Müsavat Partiyasının rəhbərliyi REAL-ın ofisində bu qurumun rəhbərliyinə daxil olan şəxslərlə görüşüb müzakirələr aparıblar. Avqustun 25-də REAL-ın rəhbərliyi ilə "NİDA" Vətəndaş Hərəkatının görüşü olub.

"Yeni Müsavat"a daxil olan məlumata görə, Müsavat, REAL və NİDA arasında görüşlərdə üç təşkilatın deputatlığa namizədlərinin müəyyənləşməsi və birlikdə müdafiə olunması məsələləri müzakirə edilir. Xəbərdə deyilir ki, üçlük içərisində qeydiyyatdan keçmiş təşkilat Müsavat olduğu üçün digər ikisinin deputatlığa namizədləri Müsavat Partiyasının namizədləri siyahısında yer alacaq və üç qurum seçkidə birlik olaraq iştirak edəcək.

❑ E.SEYİDAĞA

## Azərbaycan "azadlıq indeksi"nə görə 126-cı oldu

**Vaşinqtondakı "İnsan azadlığı indeksi" üzrə "Cato institute" analitik mərkəzi ölkələrin yeni siyahısını açıqlayıb. Musavat.com-un xarici KİV-ə istinadən verdiyi xəbərə görə, Azərbaycan 6.09 balla 152 ölkə arasında 126-cı yerə layiq bilinib.**

Qonşu ölkələrdən Gürcüstan 7.50 balla 48, Ermənistan 7.44 balla 53-cü, Türkiyə 7.10 balla 62-ci, Rusiya 6.36 balla 111-ci, İran isə 4.48 balla sonuncu - 152-ci yerdə qərar tutub.

Siyahıya Honkonq (9.04) başçılıq edir. Onun ardınca İsveçrə (8.80) və Finlandiya (8.63) gəlir. Birinci iyirmiliyi 8.26 balla ABŞ qapadır.

"İnsan azadlığı indeksi"nin müəyyən edilməsi üçün şəxsi və iqtisadi azadlıqların 76 meyarı əsas götürülüb. 10 bal maksimal azadlığı ehtiva edir.

## Rusiyalı bloggerin ölkəyə buraxılmaması ilə bağlı DGK rəsmi açıqlama verdi

**Azərbaycan Dövlət Gömrük Komitəsi rusiyalı blogger Erik Kituaşvilinin ölkəyə buraxılmaması barədə yayılan məlumatlara rəsmi münasibət bildirib. DGK-nın mətbuat xidmətindən APA-ya verilən xəbərə görə, komitənin açıqlamasında bildirilir:**

"Avqustun 25-də bir sıra internet saytlarında və sosial şəbəkələrdə "Məşhur rusiyalı bloggeri Azərbaycana buraxmadılar" başlıqlı informasiya yer alıb. Dövlət Gömrük Komitəsi rəsmi olaraq bildirir ki, 25 avqust tarixində Rusiya Federasiyasından Gürcüstandan keçməklə Azərbaycan Respublikasına gələn Rusiya Federasiyası vətəndaşı Erik Davidoviç Kituaşvilinin idarə etdiyi "BMW" markalı o165HO777 dövlət nömrə nişanlı nəqliyyat vasitəsinə Tovuz Gömrük İdarəsinin "Sınıq Körpü" postunda gömrük baxışı həyata keçirilib. Gömrük baxışından öncə Erik Davidoviç Kituaşvili avtomobilində olan videoçəkiliş üçün avadanlıqları gömrük nəzarətinə təqdim edib. Vətəndaş E. D. Kituaşvilidən Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq gətirilmiş bəzi avadanlıqlar üçün müvafiq icazə sənədləri təqdim etmək tələb olunub. Lakin o, sənədləri Moskva şəhərində çalışdığı ofisdə unutduğunu deyib. Vətəndaş E. D. Kituaşviliyə müvafiq sənədlər təqdim olunana qədər avadanlıqların protokol əsasında müvəqqəti saxlanca götürülməsinin zəruriliyi bildirilib, lakin o, geri qayıtmağa qərar verib.

Tovuz Gömrük İdarəsinin "Sınıq Körpü" postunda vətəndaş Erik Davidoviç Kituaşviliyə mövcud qanunvericiliyin tələbləri izah edilib, o da öz növbəsində heç bir etirazının olmadığını bildirib və müvafiq akt tərtib olunaraq onun tərəfindən də imzalanıb".

## Suriyada daha bir azərbaycanlı öldürüldü

**Suriyada daha bir azərbaycanlı öldürülüb. APA-nın məlumatına görə, bu barədə "Timeturk" saytının əməkdaşı Furkan Azəri öz facebook səhifəsində yazıb. Məlumatda qeyd olunur ki, Bəşər Əsədə qarşı vuruşan "Mahmut Azəri"nin dəstəsinin üzvü, "Zubeyir Azəri" ləqəbli azərbaycanlı Suriyanın Ribat bölgəsində hökumət qüvvələrinin endirdiyi hava zərbələri nəticəsində ölüb.**

Jurnalist öldürülən azərbaycanlının meyitinin və basdırıldığı yerin fotolarını da paylaşıb.

# Mehriban Əliyeva üçün özəl gün

**Avqustun 26-sı Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın ad günü idi.**



Mehriban Əliyeva Bakıda tanınmış ailədə anadan olub. Atası Azərbaycan Milli Elmlər Akademiyasının akademiki, fizika-riyaziyyat elmləri doktoru, professor, Milli Aviasiya Akademiyasının rektoru Arif Mir Cəlal oğlu Paşayev, anası şərqşünas alim, filologiya elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru olmuş, ərəb ədəbiyyatı sahəsində mütəxəssis Aida Nəsir qızı İmanquliyevadır.

M.Əliyeva 1982-ci ildə Bakıda 23 saylı orta məktəbi qızıl medalla bitirib və Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub. 1988-ci ildə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirib. 1988-1992-ci illərdə akademik Krasnovun rəhbərliyi altında Moskva Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda işləyib.

1995-ci ildə Mehriban Əliyevanın təşəbbüsü ilə hazırda onun rəhbərlik etdiyi Azərbaycan Mədəniyyət Fondu təsis olunub. 1996-cı ildə Mehriban Əliyeva Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədilə üç dildə (Azərbaycan, ingilis və rus) çap olunan "Azərbaycan - İrs" jurnalını təsis edib. Bu nəşrin sayəsində Azərbaycan beynəlxalq arenada təkcə neft və qazla zəngin dövlət kimi deyil, həm də digər sahələrdə - musiqi, memarlıq, təsviri və tətbiqi incəsənət sahələrində də şedevrlər yaratmış ölkə kimi tanınmağa başlayıb.

Birinci ledi Heydər Əliyev Fonduna onun yaradıldığı gündən - 10 may 2004-cü ildən rəhbərlik edir. 2005-ci və 2010-cu illərdə Azərbaycan parlamentinin deputatı seçilib.

Mehriban Əliyeva hakim Yeni Azərbaycan Partiyasının 2013-cü il iyunun 7-də keçirilən V qurultayında partiyanın sədr müavini seçilib.

2014-cü ilin mayında Mehriban Əliyeva sivilizasiyalararası dialoqa verdiyi töhfələrə, həmçinin Almaniyada türk dünyasının tanıdılmasına, Azərbaycan-Almaniya əlaqələrinin inkişafındakı xidmətlərinə görə Türk-Alman Dostluq Federasiyasının fəxri mükafatına layiq görülüb. Olimpiya dəyərlərinin təbliğindəki xidmətlərinə görə 2014-cü ilin iyununda Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı ilə təltif olunub.

Ailəlidir, iki qızı, bir oğlu, üç nəvəsi var.

## ABŞ səfiri Azərbaycandakı seçkilərdən danışdı

**"Noyabrda azad və şəffaf seçkilərin keçirilməsi Azərbaycanın demokratik inkişafında müsbətə doğru addım kimi qiymətləndiriləcək".**

APA-nın ABŞ-ın Azərbaycandakı səfirliyinin twitter səhifəsinə istinadən verdiyi məlumata görə, bu sözləri səfir Robert Sekuta Yeni Azərbaycan Partiyasının icra katibi, sədr müavini Əli Əhmədovla görüşü zamanı deyib. Görüşdə qarşıdan gələn parlament seçkiləri ilə bərabər ölkədə siyasi vəziyyət də müzakirə edilib.

Qeyd edək ki, ABŞ səfiri parlament seçkiləri ərəfəsində digər siyasi partiyalarla da görüşlər keçirəcək.

## Beynəlxalq Bankın rəhbərinin qardaşı "Bank Technique"dən çıxıb

**"Bank Technique" ASC-nin "Mərkəz" filialının direktoru Məmmədov Əhməd Məmməd oğlu işdən çıxıb.**

"APA-Economics"ə daxil olan məlumata görə, Ə. Məmmədov dünən öz xahişi ilə vəzifəsindən uzaqlaşıb.

Qeyd edək ki, Ə. Məmmədov "Azərsığorta" şirkətinin İdarə Heyətinin sədri Məmməd Məmmədovun oğlu, Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin sədri Elmar Məmmədovun qardaşıdır.



## Azərbaycanlı kriminal avtoritet azadlığa çıxdı

**Rusiyanın Çelyabinsk Şəhər Məhkəməsi azərbaycanlı kriminal avtoritet İlham Osmanov barəsində çıxarılmış həbs-qətimkan tədbirini dəyişdirib və onu ev dustaqlığına buraxıb.**

Virtualaz.org saytı xəbər verir ki, İlham Osmanov reketlikdə ittiham olunur və bu ilin martında həbs edilmişdi.

İlham Osmanovla birlikdə onun iki əlaltısının - Kiriçenko və Mitryasovun da barəsində çıxarılmış həbs-qətimkan tədbiri dəyişdirilib.

İlham Osmanov Çelyabinskdə azərbaycanlı biznesmenə qarşı reketlik edərək ondan 11 milyon rubl və "Volksvagen Passat" avtomobilini alarkən həbs edilib. Həbs olunarkən onun üzərində səsboğucuya malik tapança tapılıb.

Prokuror kriminal avtoritetin barəsində çıxarılmış həbs qərarının qüvvədə qalmasında israr etsə də məhkəmə müdafiə tərəfinin vəsadətini təmin edib.

Rusiya hüquq-mühafizə orqanlarının məlumatına görə, Osmanov Çelyabinsk vilayəti üzrə "smotryaşi"dir və Oleq Aşxabadski ləqəbli kriminal avtoritetlə yaxın təmasda olub.

Oleq Aşxabadski hələ olunaraq Ermənistana deportasiya edilsə də hazırda bu ölkədən Cənubi Uraldakı kriminalitetə rəhbərlik edir.



## Hava Hücumundan Müdafiə Qoşunları döyüş atışları keçirdi

**"TurAz Qartalı - 2015" birgə təlimləri çərçivəsində Hava Hücumundan Müdafiə Qoşunları döyüş atışları keçirib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən "Trend"ə verilən məlumata görə, müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, Azərbaycanla Türkiyə Hərbi Hava Qüvvələrinin iştirakı ilə keçirilən "TurAz Qartalı - 2015" birgə taktiki təlimləri çərçivəsində Hava Hücumundan Müdafiə Qoşunları praktiki döyüş atışlarını icra edib.**

Təlimin ssenarisinə əsasən hava məkanını pozan şərti düşmən aşkarlanaraq onun haqqında informasiya döyüşü idarəetmə məntəqəsinə çatdırılıb və hava hədəfləri izlənməyə götürülüb.

Təlimin əsas mərhələsində S-125 tipli zenit raket komplekslərinin döyüş və texniki heyətinin bacarığı və məharəti nəticəsində döyüş atışlı zərbələrlə hava məkanını pozan şərti düşmənin imitasiya hədəfləri dərhal məhv edilib.

Təlimdə iştirak edən şəxsi heyətin döyüş hazırlığı, bacarığı və qarşılıqlı fəaliyyəti Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib.

## ABŞ-da canlı yayım zamanı 2 jurnalist güllələndi

**ABŞ-ın Virciniya ştatında canlı yayım zamanı bir jurnalist və bir fotomüxbir naməlum şəxs tərəfindən güllələnib.**

APA-nın "Reuters"ə istinadən verdiyi məlumata görə, hadisə dünən səhər saatlarında jurnalistlər "Bridgewater Plaza"da müsahibə alarkən baş verib. Öldürülən şəxslər - 24 yaşlı reportyor Alison Parker və 27 yaşlı fotoqraf Adam Vard ştatın WDBJ7 televiziyasının əməkdaşları olub.

Hazırda polis cinayətkarın tapılması istiqamətində iş aparır.


"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05



Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

Telefon: (012) 434 93 01, 434 01 33



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**




YENİ MÜSAVAT

N 188 (6216) 27 avqust 2015


# Əli Kərimlinin partiyasından yeni istefalar

## Yeni yaradılan AXCP-nin sıraları genişlənir; Razi Nurullayevin nüfuzu artır

**AXCP-də kütləvi istefalar davam edir. Əli Kərimlinin keçmiş müavini Razi Nurullayevin yeni AXCP yaratmasından sonra tərəfdarlarının sayı günbəgün artır. Xüsusilə gənclər daha çox onun tərəfinə keçirlər. Partiyanın daha iki gənc üzvü istefa verdiyini, yeni yaradılan alternativ AXCP-nin tərəfinə keçdiklərini bəyan ediblər.**





Nərimanov şöbəsinin üzvü **Səbuhi Fərzəliyev** partiyadakı haqsızlıqlara görə istefa verdiyini açıqladı: "Əli bəyin müavini Razi Nurullayevi və Gənclər Komitəsinin sədri Əbülfəz Qurbanlını partiyadan uzaqlaşdırdılar. Vaxt var idi ki, Əbülfəz bəyin başına and içirdilər. Saxtakarlıqla məşğul olan hakimiyyətə işləyən bunların özləridir. Nərimanov şöbəsində haqsızlıqlar pik həddə çatıb. Elə bir vaxt gələcək ki, şöbədə bir Məmməd İbrahim, bir də sədr qalacaq. O qədər haqsızlıqlar var ki, insan iyrənir. Ona görə də istefa verib, Razi bəyin tərəfinə keçirəm. Üç ildir AXCP-nin üzvüyəm. 20 il partiyanın üzvü olanları, canlarını partiyada qoyanları bu gün şərləyib çıxarırlarsa, deməli, sabah bizə də bu münasibət göstəriləcək. Bunlar öz övladlarını Avropaya göndərirlər. Acından ölənlərə isə "satqın" damğası vururlar, hakimiyyətdən pul almaqda ittiham edirlər. Necə biz hakimiyyətə işləyirik ki, acından ölürük. İşlədiyimiz yerdən belə pulumuzu ala bilmirik. Məmməd İbrahim övladlarının ikisini xaricə göndərib, Ağaşirin Tanrıverdioğluna isə deyir ki, hakimiyyətə işləyirsən. Razi bəyin yeni təşkilatını biz AXCP kimi qəbul edirik. Oradakı saxtakarlıqdansa, bura yaxşıdır. Uzun illərdir ki, AXCP-də diktatura rejimi hökm sürür. Əli Kərimli partiyanı avtoritar qaydalarla idarə edir. Üzvü olduğum Nərimanov şöbəsinin yaranmasında əziyyəti keçən insanlara "satqın" damğası vurulur, onlar partiyadan kənarlaşdırılır. AXCP-nin bütün aksiyalarında iştirak edən gənc kimi bildirmək istəyirəm ki, Əli Kərimlinin hökmranlığına, diktatorluğuna son qoyulmalıdır. Yeni partiya yaradılmalı idi. Razi bəyə təşəkkür edirəm ki, bu təşəbbüsü irəli sürdü. Qəzetiniz vasitəsilə bütün cəbhəçi gənclərə deyirəm ki, Razi bəyin yeni yaratdığı AXCP-yə qoşulun, onun ətrafında sıx birləşək. İnanıram ki, əsl AXCP-ni xalqa qaytaracağıq".

**İstefa verən digər gənc də AXCP-nin Nərimanov şöbəsinin üzvü Elxan Dadaşovdur. Cəbhəçi gənc də yeni yaradılan AXCP-nin tərəfinə keçdiyini bəyan etdi:** "Bu gündən AXCP-nin Nərimanov şöbəsinin Məclis üzvlüyündən və partiyadan istefa verirəm. Fəaliyyətimi alternativ yaradılan AXCP-də davam etdirəcəm. Bütün cəbhəçi gəncləri Razi bəyin yaratdığı təşkilata qoşulmağa çağırıram".

❑ **Cavanşir ABBASLI**

# Xədicə İsmayıl son söz üçün vaxt istədi...

## Müdafiə tərəfinin vəkilləri çıxış etdilər; proses 31 avqustda davam edəcək

**Avqustun 26-da Bakı Ağır Cinayətlər Məhkəməsində həbsdəki jurnalist Xədicə İsmayılın məhkəmə prosesi davam etdi. İlk olaraq, çıxış edən müdafiə tərəfinin vəkili Fariz Namazlı məhkəmə istintaqının təzələnməsi ilə bağlı vəsatət qaldırdı. Vəkil bildirdi ki, yeni sübutlar varsa, məhkəmə yenidən başlaya bilər.**



**X.İsmayıl** çıxışında dövlət ittihamçısının zərərçəkən Tural Mustafayevlə bağlı fikirlərdə səhvə yol verdiyini bildirdi: "Məhkəmə istintaqı zamanı Tural Mustafayevə facebook yazışmaları ilə bağlı sual verəndə prokuror etiraz etdi. Bildirdi ki, bu mesajlar məhkəmədə tədqiq olunmur. Ancaq özü çıxışı zamanı həmin mesajlara istinad etdi. Ona görə də xahiş edirik ki, məhkəmə istintaqı yenilənsin və həmin mesajlar, yazışmalar tədqiq edilsin, hansının doğru və yalan olduğu ortaya çıxarılsın".

Prokuror vəsatətin əleyhinə çıxış etdi. Hakimlərin məsləhətləşməsindən sonra vəsatət rədd edildi.

Proses müdafiə tərəfinin vəkillərinin son məhkəmə çıxışları ilə davam etdi.

**F.Namazlı təqsirləndirilən şəxsə qarşı irəli sürülən maddələrin heç birinin sübuta yetirilmədiyini qeyd etdi:** "Cinayət Məcəlləsinin 125-ci maddəsi ilə irəli sürülən ittihama xitam verilməlidir. Xədicəyə qarşı irəli sürülən ittihamlardan biri də odur ki, əməkdaşları xidməti müqavilə bağlamağa məcbur edib. Bununla da vergidən yayınmaya şərait yaradıb. Məhkəmə istintaq materiallarında, ümumiyyətlə, heç bir müqavilə yoxdur. Xahiş edirəm, elə hökm çıxarın ki, sonra gülüş doğurmasın. Çünki bu məhkəmə qərarı Avropa Məhkəməsinə gedəcək, orada işlə tanış olanda bizə gülməsinlər. Müdriklərin belə bir fikri var, "Ədalət topaldır, gec-gec gedir. Amma ünvanına nə vaxtsa, çatacaq".

**Vəkilin çıxışının ardından müdafiə tərəfinin digər vəkili Fəxrəddin Mehdiyev çıxış etdi:** "Həm Xədicə İsmayıl, həm də müdafiə tərəfi sübut etdi ki, ittiham saxtadır. Onun jurnalist fəaliyyəti ilə bağlıdır. Tural Mustafayevin işlədiyi dövrdə Xədicə İsmayılın heç bir vəzifəsi olmayıb. İttiham versiyası buna əsaslanır ki, Xədicə İsmayıl öz nüfuzundan istifadə edib. Heç olmasa, normal nəsə uydursunlar. Azərbaycanda 1500-ə yaxın media orqanı var. Media AzadlıqRadiosundan və Meydan TV-dən ibarət deyil axı? Tural Mustafayev istədiyi yerdə işləyə bilərdi. Bu ittihamın əsasını Tural Mustafayev təşkil edib. O, 25 noyabr 2014-cü ildə verdiyi ifadəsində Xədicə İsmayıldan asılı olmadığını deyir. Daha sonra öz açıqlamalarında təzyiq altında ifadələr verdiyini, ifadəsindən imtina etdiyini və Zakir Qaralova müraciət etdiyini bildirib. Məhkəmə zamanı ifadə verərkən dedi ki, Xədicəyə böhtan atıb. İntiharı psixi durumu ilə bağlıdır, Xədicə İsmayılla əlaqəsi yoxdur və özünü zərərçəkən hesab etmir. Lakin sonradan o, məhkəmədə iştirak etmədi və nümayəndəsi gəldi. Nümayəndə prokurorun nümayəndəsi kimi çıxış elədi. Xahiş edirəm, məhkəmə bunu nəzərə alsın. İttiham tərəfi düşünür ki, bulanıq suda balıq tutmaq asan olur, amma bilmir ki, o suda heç balıq yoxdur. İttiham dəqiq olmalıdır, yozulmamalıdır. Elə bir qərar çıxarın ki, tarix sizi bağışlasın. Biz ədaləti bəraətdə görürük".

**Vəkillərin çıxışından sonra tərəflər replika hüquqlarından istifadə etdilər. Prokuror müdafiə tərəfinin ittihamların əksini sübut edə bilmədiklərini söylədi:** "Daha çox ədəbiyyatdan istifadə edib, yaddaşımızı təzələdilər". X.İsmayıl prokurora cavabında sübut olmadığını bildirdi. Prokuror müdafiə tərəfinin nizamnamədən kənar işlərlə məşğul olduqlarını bildirdi. Təqsirləndirilən şəxsin cavabı daha maraqlı oldu: "Neyləmişik? Kartof satmışıq?"

**Daha sonra müdafiə tərəfi replika hüququndan istifadə etdi. F.Mehdiyev bildirdi ki, məhkəmə cəza orqanı deyil, ədalət orqanıdır:** "Prokuror çıxışımda istifadə etdiyim elmi fikirlərə ironik yanaşdı. Onun elmə belə neqativ münasibətinə təəssüflənirəm".

Bundan sonra təqsirləndirilən şəxs son söz demək üçün məhkəmədən bir həftə vaxt istədi. Prosesdə fasilə yarandı. Fasilədən qayıdan məhkəmə heyəti prosesin 31 avqust saat 14:00-a təxirə salındığını elan etdi. Növbəti proses X.İsmayılın son söz deməsi ilə başlayacaq. Hökm oxunacağı istisna deyil.

❑ **Cavanşir ABBASLI**




# Hacı İbrahimin xaricə "qaçan" müsahibi...

## Vaqif Bağırov 2011-ci ildən Afrikada yaşayır

**İş adamı Hacı İbrahim Nehrəmlinin sahibi olduğu "Avesta" konsernində vaxtilə baş mühasib vəzifəsində çalışmış şəxsin beynəlxalq axtarışa verildiyi haqda xəbər yayılıb. Vaqif Bağırov ad-soyadlı həmin şəxsə Cinayət Məcəlləsinin 178-ci maddəsi ilə ittiham elan edilib. Ölkədə olmadığını görə, onun qırmızı xətt üzrə axtarışına qərar verilib. Mətbuatda səhvən V.Bağırovun axtarışa verildəndən sonra Afrikaya qaçdığı haqda məlumatlar dolaşır.**

Belə xəbərlərdən aydın olur ki, A.Bağırov Afrikaya axtarışdan az əvvəl və ya sonra qaçıb. Əslində isə V.Bağırov ölkədən 2011-ci ildə gedib. Bu haqda onun özü "Yeni Müsavat"a 2013-cü ilin martında verdiyi açıqlamada bildirmişdi. Həmin vaxt mətbuatda Hacı İbrahim Nehrəmliyə qarşı ittihamlar yer almışdı, ittihamlarda V.Bağırovun da adı yer alırdı. İttihamları səsləndirən Hacı İbrahimin keçmiş şəriki, hazırda ömürlük həbsdə olan Hümbət Məmmədov idi. O, Hacı İbrahimi eks-spiker Rəsul Quliyevə pul ötürməkdə ittiham etmişdi. V.Bağırovun da adını hallandırmışdı. Bu ittihamlara cavab verən V.Bağırov Afrikada yaşadığını demişdi. Bildirmişdi ki, 1992-ci ildən 2004-ə qədər Naxçıvanda vergi məmuru işləyib. 2004-cü ildən isə Hacı İbrahimin "Avesta" konsernində maliyyə idarəsinin rəisi və firmaların baş mühasibi olub. Sitat: "2010-cu ilin dekabr ayına qədər Hacı İbrahimlə birgə çalışmışıq. Sonra mən öz biznesimi qurmaq üçün işdən çıxmışam. Hazırda Afrikada işimi qurub biznesimlə məşğulam. 2011-ci ilin may ayının 17-də Azərbaycandan çıxmışam. Bura gələndən sonra eşitmişəm ki, belə hadisə *(Hacı İbrahim Nehrəmlinin şəriki Hümbət Məmmədovun sifarişi ilə digər şərikləri Əflatun Piriyevin öldürülməsini nəzərdə tutur- E.M.)* olub. Həmin o 2 nəfər *(hazırda ömürlük həbsdə olan Hümbət Məmmədov və mərhum Əflatun Piriyev)* həddindən artıq bir-birinə yaxın adamlar idi. Hümbət rəhmətlik Əflatunun vasitəsilə Hacı İbrahimlə ortaq olmağa gəlmişdi. İşlədiyim dövrdə nə Hacı İbrahimin, nə də rəhmətlik Əflatunun hər hansı qanunsuz hərəkətinin şahidi olmamışam. Mənim telefonumdan - 050 230-76-86 nömrəsindən heç kəsə zəng olunmayıb. Hacı İbrahim mənim yanımda prezidentin qayınatası, akademik Arif Paşayevə həmişə "dədəm" deyirdi. İkilikdə olduğumuz təkbətək söhbətlərdə də Hacı İbrahim heç bir zaman bugünkü iqtidarın ünvanına artıq-əskik bir söz deməyib. Mən belə halın şahidi olmamışam. Mən heç bir partiyanın üzvü də deyiləm ki, kiminləsə də əlaqə saxlayım. Hacı İbrahim mənim yanımda Rəsul Quliyevin və başqa müxalifətçilərin adını belə çəkməyib". V.Bağırov səslənən iddiaların absurd olduğunu demişdi.

**V.Bağırov 2013-cü ilin iyununda ölkəyə qayıdacağını da söyləmişdi:** "Bütün qohum-qardaşım Azərbaycandadır, mən burada işləri yekunlaşdırıb vətənə qayıdacağam".

Sonda qeyd edək ki, V.Bağırovun təqdim etdiyimiz açıqlamasında o, Afrikaya nə vaxt və niyə getdiyini açıq şəkildə söyləyir. Odur ki, onu ölkədən "qaçıran"da bir qədər onun özünün söylədiklərini də nəzərə almaq obyektivlikdən kənar olmaz.

❑ **E.MƏMMƏDƏLİYEV**

**Seçkilərə rəsmən start verilməsinə günlər qaldığı halda seçki ab-havasının hələ hiss olunmaması, ölkənin gündəmini daha çox neftin qiyməti, dollar-manat məzənnələri kimi məsələlər tutması gerçəklikdir. Ancaq müşahidələr göstərir ki, yaxın həftələrdə vəziyyət dəyişə bilər və ali qanunverici orqanda təmsil olunmaq istiqamətində mübarizə bütün digər mövzuları arxa plana keçirə bilər. Hər halda, kuluarlarda dolaşan söhbətlər bunun belə olacağından xəbər verir. Xüsusilə də hakim partiyanın seçki siyahısına düşüb-düşməməyi özünün taleyüklü məsələsi sayan şəxslərin artan həyəcanı açıq görünməsə də, vəziyyətin kritikliyi sızan məlumatlardan da bəlli olur.**

# YAP-çı deputatlar seçkilərlə bağlı “Yeni Müsavat”a danışdılar

Reaksiyalardan görünür ki, heç kim “öz ayranına turş” demir, növbəti dəfə etimad qazanmağa ümid bəsləyir və hər kəs “nə şiş yansın, nə kabab” prinsipi ilə davranaraq soyuqqanlı davranmağa meyl göstərir. Siyahıdan kənarda qalanlar sırasında adları daha çox hallandırılan yaşı 70-i haqlayanlar və rektor deputatların da reaksiyasından görünən budur ki, onlar kreslonu təhvil vermək istəmirlər. Qəzetimizin yazdığı kimi, yuxarılarda 4 çağırış deputat olmuş “stajlı” millət vəkillərinin əksəriyyəti ilə üzülüşmək planı masa üzərindədir. Lakin deputat rektorların növbəti seçkidə iştirakı mübahisəlidir. YAP rəhbərliyi isə artıq siyahının hazır olduğunu və yaxın günlərdə elan olunacağını deyib. Bu ərəfədə hakim partiyanın deputatlarının düşüncələri maraq doğurduğu üçün onlara müraciət etdik. Maraldır, seçki həyəcanı yaşayırlarmı, siyahıda adlarının olub-olmamasından xəbərdardırlarmı?

**Deputat Bəxtiyar Sadıqov “Yeni Müsavat”a açıqlamasında bunları bildirdi:** “Mən Yeni Azərbaycan Partiyasına da, ulu öndər Heydər Əliyevin xatirəsinə də, özünə də minnətdaram, prezidentimiz cənab İlham Əliyevə də minnətdaram. Yəni partiyanın sədri kimi 3 dəfə mənə etimad göstəriblər, YAP-ın siyahısına salıblar. YAP-ın dəstəyi ilə mən Milli Məclisə mandat almışam və 15 il o şərəfi daşımışam. Yəni mən heç vaxt seçkiyə özüm getməmişəm, partiya məsləhət bilib, məni göndərib, mən də gedib işimi qurmuşam. Xüsusən müharibə dövründə mən o camaatın yanında olmuşam, qaçqınçılıq, məcburi köçkünçülük dövründə həmişə orda olmuşam, yazmışam, pozmuşam. Rəğbət olub, YAP-ın dəstəyi və özümün fəaliyyətimlə Milli Məclisdə 15 ildir xalqıma, dövlətimə xidmət edirəm. Bu dəfə də əgər YAP məni göndərsə, çalışacağam ki, o etimadı doğruldum. Mənimçün çox böyük şərəfdir ki, növbəti 5 ildə də Milli Məclisin üzvü olum. Göndərməsələr, yenə mən təşəkkür edirəm. Çünki hər bir jurnalistin taleyində olmur ki, 3 dəfə mandat alsın, 15 il Milli Məclisin üzvü olsun, yəni bu, böyük şərəfdir”. **B.Sadıqov hələlik müxalifət tərəfdən seçkilərlə bağlı “qımıltı” olmadığını vurğuladı:** “YAP çox geniş şəkildə təbliğat, maariflendirmə işlərini davam etdirir. Bizim qəzet artıq hər nömrəsində iki nömrəsini seçkiyə həsr edir. Mən inanıram ki, budəfəki seçkilər də demokratik keçəcək və layiqli namizədlər Milli Məclisə üzv olacaqlar. Şəxsən mənim heç bir narahatlığım və xüsusi istəyim yoxdur. Mən ancaq arzulaya bilərəm”.



**Bəxtiyar Sadıqov:**
“Mənim üçün çox böyük şərəfdir ki, növbəti 5 ildə də Milli Məclisin üzvü olum”



**Məlahət İbrahimqızı:**
“Mən partiyanın əsgəriyəm”



**Musa Quliyev:**
“Bir az gözləyək”

**YAP-ın Nəsimi təşkilatının sədri Məlahət İbrahimqızı bütün ölkələrdə seçki ilinin seçicilər və seçkiyə qatılan siyasi partiyalar üçün həyəcanlı il olduğunu vurğuladı və seçki həyəcanının olmasını normal saydı:** “Çünki bu, siyasi mübarizədir, hər kəs, hər bir qurum bu siyasi mübaizədə qələbə qazanmaq, parlamentdə təmsil olunmaq istəyir. Parlamentdə təmsil olunmaq, 40 min seçicinin etimadını qazanmaq həqiqətən də çox şərəfli bir işdir. Bu işin öhdəsindən gəlmək o qədər də asan deyil. Çünki seçicilərin qrup və fərdi maraqlarının təmin olunması çox çətindir. Fürsətdən istifadə edib mən seçicilərimə və təmsil olunduğum partiyaya təşəkkür edirəm”. **M.İbrahimqızı xatırlatdı ki, dünya ölkələrində olduğu kimi, Azərbaycanda da ölkə prezidenti seçkilərin keçirilməsi üçün xüsusi sərəncam imzalayır:** “Amma seçicilər də, aşırı həyəcan yaşayanlar da düşünməlidir ki, hələ bu sərəncam imzalanmayıb. İnşallah, bugünlərdə imzalanacağını hər birimiz gözləyirik. Ondan sonra seçkilərə start veriləcək. YAP həmişə olduğu kimi, builki seçkilərdə də iddialıdır və bunu haqlı sayıram. Çünki bu illər ərzində hakim partiya ölkədə çox böyük işlər görüb, bəzən bizi ədalətsiz şəkildə çox tənqid edirlər. Hansı ki, görülən işləri sadalamaqla qurtarmaz”. **Təşkilat sədri qeyd etdi ki, adının YAP-ın siyahısında olub-olmaması ilə maraqlanmayıb:** “Mən bunu səmimi deyirəm. Çünki partiyamızın ali orqanı, partiya sədri, sədr müavinləri var, ali orqan qərarı verdikdən sonra biz partiya təmsilçisi olaraq seçkilərə qatılacağıq. Mənim xarakterimdə elə şey yoxdur ki, necə olacağı ilə xüsusi maraqlanım. Mənim namizədliyim oldu-olmadı, bu, mənimçün önəmli deyil. Əsas odur bizim partiyamız seçkidən qələbə ilə çıxsın. YAP-ın Siyasi Şurasının üzvü və Nəsimi təşkilatının sədri olsam da, mən partiyanın əsgəriyəm. Təbii ki, partiyadaxili demokratiya da var, ancaq qərar necə olacaqsa, bizim borcumuz onu can-başla icra etməkdir”.

**Musa Quliyev (Urud) isə konkret cavab vermədi:** “Hələlik heç bir söz deyə bilmərəm, mənim hər hansı məlumatım yoxdur. Bir az gözləyək”.

❑ **E.PAŞASOY**

# “O şirkətin rəhbəri mənim qardaşımdı”

## Abid Şərifov Qazaxıstanda problemlə üzləşən 180 azərbaycanlı fəhlənin taleyindən danışdı

**Qazaxıstanın Almatı Vilayət Məhkəməsinin azərbaycanlı fəhlələrin həbsinə başladığı haqda xəbər vermişdik. “Abid Şərifovun şirkətində müdhiş fırıldaq: həbslər var...” sərlövhəli yazı məhkəmə ilə üz-üzə qalan fəhlələrdən birinin qəzetimizə verdiyi məlumat əsasında hazırlanmışdı. Bildirilirdi ki, fəhlələr Almatıya baş nazirin müavini Abid Şərifova bağlılığı olan “EVRASCON” ASC-nin xətti ilə aparılıblar. Yazı hazırlanarkən A.Şərifovun özündən məsələyə münasibət öyrənə bilməmişdik deyə bu günlər ərzində onu arayırdıq. Nəhayət ki, A.Şərifovdan məsələ ilə bağlı açıqlama ala bildik.**



Abid Şərifov

“Əgər belə bir hal olsaydı, mən bundan xəbər tutardım. Bizdə də belə hallar olur. Dövlət Miqrasiya Xidmətindən sənəd alınmır və problemlər yaranır. Əgər belə hal Qazaxıstanda olubsa, deməli, orada olan idarənin rəhbərinin səhvidir. Elə də problemli məsələ deyil. Mən bilən "EVRASCON" Qazaxıstanda işləmir. Vaxtilə orada işləyiblər. Moldovada, Özbəkistanda, Moskvada işlədiklərindən məlumatım var" - deyə A.Şərifov bildirdi. Və digər telefonla “EVRASCON” ASC-nin Direktorlar Şurasının sədri İsmiyev İsmayıl - Əfəndi Hacımurad oğlu ilə əlaqə saxladı. Ondan Qazaxıstanda işləyib-işləmədiklərini xəbər aldı və məlum oldu ki, şirkət Qazaxıstanda yol çəkir.

A.Şərifov ona ünvanladığımız 180 azərbaycanlı fəhlənin taleyi ilə bağlı sualı Direktorlar Şurasının sədrinə çatdırdı. Sonuncu isə nazir müavininə belə bir halın olmadığını dedi.

A.Şərifov “Belə bir hal yoxdur, yalan söhbətdir, cəfəngiyyatdır. Bu adam şirkətin rəhbəridir, hər şeyi bilməlidir və bilir də. Bu şirkət 1000-dən çox fəhlə işlədir, azərbaycanlıları xaricə aparıb işlə təmin edir. Təsəvvür edirsiz, 1000-dən çox fəhləni. Bu şirkətin rəhbəri mənim qardaşımdı” - söylədi.

Baş nazirin müavini, bununla belə, məsələ ilə maraqlanacağını da açıqladı.

Azərbaycanlı fəhlələrin Almatı məhkəməsi ilə üz-üzə qalması haqda məlumatı “Yeni Müsavat”a bilavasitə Qazaxıstanda olan fəhlələrdən biri verdiyindən səhihliyinə redaksiyada hər hansı bir şübhə yoxdur. Həmin fəhlə bildirib ki, şirkətin Qazaxıstanın Almatı vilayətində tikinti işlərinin görülməsi üçün müqaviləsi olub. Almatıda görüləcək işləri həyata keçirmək üçün Bakıdan 180 nəfər azərbaycanlı fəhlə şirkət tərəfindən Qazaxıstana göndərilib. 4 ay ərzində azərbaycanlı fəhlələr Qazaxıstan Miqrasiya Xidməti ilə problemlər yaşamayıblar. Ayda 2 dəfə olmaqla qonşu ölkənin ərazisinə keçib yenidən Qazaxıstana qayıdıblar, işlərini görüb ailələrinə çörəkpulu yollayıblar. Fəhlə bildirib ki, 4 aydan sonra ölkənin Miqrasiya Xidməti rəsmi sənədlərdə Qazaxıstana qonaq kimi getmələri göstərilən azərbaycanlılar haqda sərt addımlar atmağa başlayıb. Hər gün 10 nəfər olmaqla, azərbaycanlı fəhlələri Almatı Vilayət Məhkəməsinə aparıb Qazaxıstan ərazisində qanunsuz olaraq fəaliyyət göstərdiklərinə görə 1-2 sutka həbsə alırlar. Məsələ bu şəkil alandan sonra aydın olub ki, azərbaycanlı fəhlələrin bu dövlətin ərazisində işləmələri üçün icazə vərəqəsinin alınmasına pul ayrılsa da, mənimsənilib. “EVRASCON” ASC-nin daxilində baş vermiş mənimsəmə azərbaycanlı fəhlələrə baha başa gəlib - onlar vaxtaşırı saxlanılırlar.

❑ **E.MƏMMƏDƏLİYEV**



# AZAL-ın qiymət oyunu

**İyulun sonlarında “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti (AZAL) aşağı büdcəli sərnişindaşıma xəttinin (lou-kost istiqamətlər) avqust ayından etibarən açılacağını elan etdi. Eyni zamanda ölkə başçısının tapşırığına uyğun olaraq, insanlar AZAL-dan əsaslı endirimlər gözləyirdilər. Lakin bu baş vermədi.**

Məsələ ilə bağlı AZAL-ın mətbuat xidmətinin rəhbəri Paşa Kəsəmənski ilə əlaqə saxladıq. P.Kəsəmənski musavat.com-a bildirdi ki, artıq AZAL-da məlum qiymət endirimləri olub. Növbəti endirimlərlə bağlı isə açıqlama veriləcək.

AZAL rəsmisinin vurğuladığı endirimdən sonrakı qiymətləri nə qədər məqbul saymaq olar?

Mövzu ilə bağlı musavat.com-a danışan İqtisadi Təşəbbüslərə Yardım Mərkəzinin rəhbəri Azər Mehtiyev bildirdi ki, AZAL tərəfindən “qiymət endirimi” adlandırılan prosesin əslində endirimlərə heç bir aidiyyəti yoxdur: “Onlar, sadəcə olaraq, xüsusi reyslər açıblar ki, bu da qiymət endirimi sayılmır. Bu cür qiymət endirimi ola bilməz. AZAL müvafiq olaraq rəqabət mühitini təmin etməlidir ki, ölkəyə digər şirkətlər də gəlb olunsun. Yalnız rəqabət mühiti olduğu halda sağlam fəaliyyət ola bilər. Bütün hallarda bu gün AZAL öz istədiyi qiymətlərlə işləyir. Hazırda bu şirkətdən tələb olunan əsas şərt budur ki, ilk olaraq qiymətlərin əsasını formalaşdırsın. Yəni açıqlasınlar ki, hansı səbəbə görə qiymətlər bu qədər yüksəkdir. Söylədiyim məsələ ilə bağlı heç bir bilgi, şəffaflıq yoxdur. İkincisi isə bazara nisbətən ucuz xidmət göstərən şirkətlərin daxil olmasına imkan verməlidir. Belə olarsa, hansısa endirimdən danışmaq olar”.

❑ **Əli RAİS**


Arzu Nağıyev

# Azərbaycanın boru kəmərlərinə hücumda erməni izi

## Türkiyə-Ermənistan sərhədlərinin kürdləşdirilməsi planına start verilib; PKK-nın Azərbaycanın enerji layihələrini hədəf almasına Avropa niyə reaksiya vermir?; Arzu Nağıyev: "Ortada erməni-kürd iş birliyinin olması istisna deyil"

**PKK avqust ayında ikinci dəfə Azərbaycana məxsus qaz boru kəmərinə hücum etdi. İlk dəfə avqustun əvvəlində PKK terrorçuları Bakı-Tiflis-Qars-Ərzurum qaz kəmərini partladaraq 3 gün qaz verilişini dayandırmışdılar. Avqustun 24-də Qars vilayəti ərazisində PKK terrorçuları növbəti dəfə sözügedən qaz boru kəmərini hədəfə alıblar.**

PKK-nın Azərbaycana məxsus olan və Azərbaycan qazını nəql edən kəməri hədəfə alması birmənalı qarşılanmayıb. Məsələ burasındadır ki, terror təşkilatı Türkiyəyə qarşı başlatdığı savaşda ordu və polis qüvvələri ilə yanaşı, məmurları, dinc sakinləri, eləcə də ölkənin mühüm əhəmiyyət daşıyan enerji xətlərini, boru kəmərlərini, magistral yolları hədəfə alır. Bununla da Türkiyəyə iqtisadi zərbə vurmaq, ölkəni sabotaj etməyə çalışır.

Ancaq PKK uzun illər Türkiyədə terror törətsə də, Azərbaycana məxsus əmlaka, boru xətlərinə zərər vurmayıb. Bunun bir səbəbi həmin layihələrin Qərbin himayəsində olması, PKK-nın isə Qərblə ciddi əlaqələri ilə izah edilirdi.

Ancaq indi görünən odur ki, bu sahədə durum dəyişib və PKK Azərbaycana məxsus layihələri də hədəfə almaqdan çəkinmir. Müşahidəçilər bunun bir səbəbinin PKK-nın beynəlxalq ictimai rəyi cəlb etmək cəhdi olduğunu düşünürlər. Ancaq Türkiyə analitiklərinə görə, son illərdə PKK həm də Ermənistanla yaxınlaşır, dolayısı ilə burda erməni faktoru da rol oynayır. Türkiyənin cənub-şərq vilayətlərindən kürdlərin şərq vilayətlərinə, xüsusən də Ermənistanla sərhəd bölgələrə - Qars, İğdır vilayətlərinə sistemli şəkildə köçürülməsi prosesi həyata keçirilib. Məhz bu cür sistemli fəaliyyətin nəticəsində Türkiyənin Qars, İğdır kimi Azərbaycandan köçmə əhalinin sıx yaşadığı bölgələrdə artıq kürdlər çoxluq təşkil etməyə başlayıb. Son seçkilərdə İğdırdan məhz HDP-nin deputat yeri qazanması buna əyani misal olaraq göstərilir.

Mütəxəssislərə görə, Ermənistanla sərhəd bölgələrin kürdləşdirilməsi PKK-nın İraqdan sonra daha bir qonşu ölkədə möhkəmlənməsi məqsədinə xidmət edir. Yeni Ermənistanda möhkəmlənən PKK Suriya və İraqdan sonra Ermənistanda da düşərgəsini quraraq daha bir mərkəzini yaradacaq. Bölgənin kürdləşdirilməsi PKK-nın bu planının gerçəkləşdirilməsi üçün mühüm rol oynayır. Digər tərəfdən, Ermənistanın özü də Türkiyəyə təzyiq rıçaqı əldə etmək üçün bu planda maraqlı ola bilər. Xüsusən də Rusiya amilinin də bu məsələdə rol oynadığı türkiyəli ekspertlərə görə, önəmli rol oynayır.

**Siyasi şərhçi, "Trend" İnformasiya Agentliyinin direktor müavini Arzu Nağıyev deyir ki, PKK-nın qaz kəmərinə hücumları ilk növbədə Türkiyəni provokasiya etmək məqsədi güdür:** "Burada söhbət Bakı-Tiflis-Qars-Ərzurum qaz kəmərindən, daha doğrusu, onun Türkiyə ərazisindən keçən hissəsindən gedir. Bu hissə Qars ərazisidir və Sarıqamış qəsəbəsindən keçən sahədir. Ümumiyyətlə, burada PKK-nın tərəfdarları çoxluq təşkil edir və son vaxtlar həmin ərazidə partlayış olub, bunun da PKK terrorçuları tərəfindən törədildiyi artıq məlumdur. Türkiyənin bu əraziləri son seçkilərdə də HDP-nin qələbə qazandığı ərazilərdir və təəssüf ki, bu ərazilərdə kürdləşdirmə və erməniləşdirmə də gedir və bunun da təsiri artıq görünməkdədir. Boru kəmərinin qorunmasına baxmayaraq, eyni ərazidə bir neçə partlayışın olması buna bariz sübutdur".

**A.Nağıyevə görə, kəmərdə birinci partlayış və dəfələrlə baş verən təxribat hadisələri iqtisadi cəhətdən əlbəttə ki, bizə də sərf etmir:** "Hər dəfə təmir başa çatana qədər qaz nəqli də dayandırılır və BOTAŞ şirkəti də digərləri ilə müqayisədə daha çox iqtisadi ziyan çəkir. Əgər hiss edirsinizsə, nə Avropa, nə də digərləri buna ciddi reaksiya vermir və cavabdehliyi BOTAŞ şirkətinə yönəldir, arqument də ondan ibarət olur ki, qaz kəmərinin həmin hissəsinin mühafizə işini Türkiyə tərəfi, BOTAŞ şirkəti həyata keçirir və onlar birbaşa cavabdehdir".

**Ancaq ekspertin fikrincə, bu partlayışlar ilk növbədə Azərbaycanın iqtisadi maraqlarına zərbə vurur:** "Belə yanaşma əlbəttə ki, bizi razı sala bilməz, çünki Sarıqamış Türkiyənin cənub-şərqində, Qars əyalətində yerləşən, əsasən kürdlərin nəzarətində olan və o qədər də böyük olmayan bir qəsəbədir və böyük şirkətlərə meydan oxumaları müəmma doğurur. Məhz buna görə də baş verənləri nəzərə almaqla, siyasi məsələlərdən nəticə çıxarmaqla, həmin ərazidə təhlükəsizlik tədbirləri daha da gücləndirilməli, hətta lazım gəlsə, ordu və ya digər hərbi birləşmələrdən istifadə edilməlidir. Bu partlayışlar həm erməniləre, həm də kürdlərə sərf edir".

❑ Kənan RÖVŞƏNOĞLU

# "Azadlıq-2015" deputatlığa namizədlərin ilkin siyahısını təqdim etdi



## Seçki bloku namizədlərin dəqiqləşdirilməsi prosesini davam etdirir

**"Azadlıq-2015" siyasi partiyalar bloku seçki dairələri üzrə namizədlərini müəyyənləşdirir.**

**Blokdan müsavat.coma verilən məlumatda bildirilir ki, "Azadlıq-2015"in Sədrlər Şurasının 26 avqust 2015-ci il toplantısında AR Milli Məclisinə təyin edilməş seçkilərlə bağlı seçki dairələri üzrə razılaşdırılmış namizədlərin ilkin siyahısı elan edib:**

9 saylı Binəqədi ikinci - Musayev Elşad Nəbi oğlu(BAP)

11 saylı Qaradağ - Əbil Bəybala Əlibala oğlu (KXCP)

13 saylı Xəzər birinci - Ağayev Ağababa Zərbəli oğlu (VİP)

16 saylı Yasamal ikinci - Vəliyeva Nisəxanım Yaqub qızı (KXCP)

17 saylı Yasamal üçüncü - Abbasov Şahin İdris oğlu (VİP)

18 saylı Nərimanov-Nizami -Orucov Əhməd Abdul oğlu (Azadlıq)

20 saylı Nərimanov ikinci - Teyyublu Xəzər Qardaşəli oğlu (KXCP)

23 saylı Nəsimi-Səbayel - İmranova Aytəkin Kapitan qızı (KXCP)

27 saylı Sabunçu ikinci - Səməndərli İlham Vəzir oğlu (VİP)

30 saylı Suraxanı birinci - İbrahimov Firuz Əjdər oğlu (KXCP)

31 saylı Suraxanı ikinci - Qasımov Vüqar Cavad oğlu (BAP)

35 saylı Xətai üçüncü - Ələkbərov Nizami Məhərrəm oğlu (KXCP)

40 saylı Kəpəz ikinci - Abasov Rəşid Əsəd oğlu (VİP)

43 saylı Sumqayıt üçüncü - Fəttayev Mirmahmud Mirəli oğlu (KXCP)

45 saylı Abşeron - Abbasov Ehram Atamalı oğlu (VİP)

48 saylı Yevlax - Fərzəlibəyli Şəmil Səfər oğlu (KXCP)

53 saylı Quba-Qusar - Həsənov Aslan Sərkər oğlu (KXCP)

56 saylı Xaçmaz kənd - Məmmədrəsulov Məzahir Nazim oğlu (VİP)

57 saylı Kürdəmir - Məlikov Əlyusif Yusif oğlu (KXCP)

58 saylı Hacıqabul-Kürdəmir - İsrafilov İmaməddin İbrahimxəlil oğlu (AXP)

60 saylı Salyan-Neftçala - Hüseynov Anar (VİP)

61 saylı Neftçala - Quliyev Əflatun Ağabəy oğlu (VİP)

62 saylı Saatlı - Hüseynov Azər Mirzəli oğlu (VİP)

63 saylı Sabirabad birinci - Hüseyn Pənah Çodar oğlu (AXP)

64 saylı Sabirabad ikinci - Sadıqov Qiyas Böyükağa oğlu (AXP)

65 saylı Saatlı-Sabirabad-Kürdəmir - İsrayılov Məzahir İsrayıl oğlu (AXP)

66 saylı Biləsuvar - Zəki Mirzəkulla Mirövlə oğlu (KXCP)

68 saylı Cəlilabad kənd - Bayramov Fərəc Mirzə oğlu (VİP)

69 saylı Cəlilabad-Masallı-Biləsuvar - Əlibəyli Qulamhüseyn Surxay oğlu (Azadlıq)

70 saylı Masallı şəhər - Səfərov Akif Aydın oğlu (KXCP)

71 saylı Masallı kənd - Hüseynov Ələsgər Calal oğlu (KXCP)

72 saylı Yardımlı-Masallı - Əzimov Səfa Sevdagər oğlu (BAP)

73 saylı Lənkəran şəhər - Turhidə Esmira Əlişah qızı (KXCP)

74 saylı Lənkəran kənd - Hüseynov Fuad Ağamusa oğlu (KXCP)

75 saylı Lənkəran-Masallı - Həmidov Səmədağa Əli oğlu (KXCP)

77 saylı Astara - Cəfərzadə Faiq Dadaş oğlu (KXCP)

78 saylı Lerik - Hüseynov Ramil Qələmirzə oğlu (VİP)

79 saylı İmişli - Hadı Mirismayıl Qabil oğlu (bitərəf)

81 saylı Beyləqan - Diniyev Yusif Xudakərim oğlu (KXCP)

82 saylı Ağcabədi - Rövşən Kəbirli (Azadlıq)

83 saylı Ağcabədi-Füzuli - İmanov İman İbiş oğlu (KXCP)

84 saylı Füzuli - Həsənov Məmmədhəsən Murad oğlu (KXCP)

87 saylı Ağsu - İsmayıllı - Babalı Yaqub Məmməd oğlu (KXCP)

89 saylı Göyçay-Ağdaş - Mehdiyev İnqılab (VİP)

90 saylı Ağdaş - Qəniyev Sovet (VİP)

92 saylı Zərdab - Ucar - Əhmədov Ataş Davud oğlu (KXCP)

98 saylı Şəmkir şəhər - Zeynalov Araz Məhər oğlu (VİP)

103 saylı Gədəbəy - Ələkbərov Telman Zaman oğlu (KXCP)

104 saylı Gədəbəy - Tovuz - Səfərov Ceyhun İlyas oğlu (KXCP)

106 saylı Tovuz-Qazax-Ağstafa - Carçıyev Sərxan Nəriman oğlu (KXCP)

116 saylı Qəbələ - Qəribov Yasin Qərib oğlu (KXCP)

117 saylı Oğuz - Qəbələ - Abdurrazakov Nizami Yaqub oğlu (KXCP)

118 saylı Ağdam şəhər - Behbudov Hüseyn Mehralı oğlu (AXP)

121 saylı Laçın - Məmmədli Fikrət (VİP)

123 saylı Kəlbəcər - Nuriyev Ramiz Yunis oğlu (Aydınlar)

Blokun açıqlamasında bildirilir ki, seçki dairələri üzrə namizədlərin müəyyənləşdirilməsi davam edir. Digər seçki dairələri üzrə "Azadlıq-2015" seçki blokuna daxil olan siyasi partiyaların razılaşdırılmış namizədlərinin tam siyahısı seçkilərin başlanmasına qədər elan olunacaq.

❑ M.MAHRIZLI

YENİ MÜSAVAT
N 188 (6216) 27 avqust 2015



# "Artur Rəsizadə tamamilə sağlam adamdır"

## Akif Əli: "Səhər saat 9-a 15 dəqiqə qalmış Nazirlər Kabinetinin qarşısına gəlin və baş nazirin kartejinin içəri girdiyini özünüz görün"

**Qlobal iqtisadi böhranın növbəti dalğası, neftin qiymətdən düşməsi Azərbaycana da təsir edir. Bu kimi situasiyalarda ölkələrin baş nazirləri bütün prosesləri nəzarətdə saxlamaqla bərabər, vaxtaşırı publika qarşısına çıxır, operativ reaksiyalar verirlər. Lakin Azərbaycan istisnadır və belə bir durumda ölkənin baş naziri Artur Rəsizadənin mövqeyi maraqlı olsa da, hələlik konstitusiya ilə ölkənin ikinci şəxsinin münasibətinə rast gəlinmir.**

**Nazirlər Kabinetinin mətbuat katibi Akif Əli** ilə söhbətimizdə bu məsələlərdən də danışdıq. Söhbətimizə isə azpolitika.info-nun maliyyə naziri Samir Şərifovla baş nazirin birinci müavini Yaqub Eyyubov arasında çox sərt telefon danışığının olması barədə yazdıqlarına münasibət öyrənməklə başladıq.

Öncə qeyd edək ki, məlumata görə, baş nazirin birinci müavini maliyyə nazirinə zəng edərək, hansısa məsələləri müzakirə edib və müəyyən işlərin görülməsi üçün çox güman ki, maliyyə ayrılmasını istəyib. Y.Eyyubov öz istəklərini prezidentin tapşırıqları ilə əlaqələndirib. Lakin gözlənilmədən qarşı tərəfdən sərt təpki alıb. Samir Şərifov kobud tərzdə cavab qaytararaq, telefonun dəstəyini asıb.

Qəzəblənmiş baş nazirin müavininin növbəti zəngləri isə cavabsız qalıb - nazir telefonun dəstəyini qaldırmayıb.

- *Akif müəllim, nazir və baş nazirin müavini arasında gərginliyin səbəbi kimi onların hər ikisinin baş nazir olmaq istəyi göstərilir. Yazılanlar nə dərəcədə doğrudur?*

- Bu barədə nə eşitməmişəm, nə şahidi olmamışam. İkincisi də burda məntiq yoxdur. İki adamın telefon danışığı barədə necə olur ki, hansısa sayt xəbər tutur? Bütün bunlar uşaq söhbətləridir. Üstəlik, baş nazirlik hər kəsin arzusu ilə deyil ki. Eyni zamanda o səviyyədə olan, bilikli, savadlı, siyasəti bilən, dövlət idarəçiliyində olan adamların o cür mübahisəsi, ümumiyyətlə, ağlabatan bir şey deyil. Ona görə də yazılanlar həqiqətə uyğun olmaya bilər.

- *Dünyada neftin qiymətdən düşməsi Azərbaycana da təsirsiz ötüşmür. Belə böhranlı vəziyyətdə...*

- (*Sualı kəsir*) Ölkədə böhran yoxdur. Neftin qiyməti isə bütün dünyada düşüb. Bu, beynəlxalq aləmdə olan proseslərdir. Amma hökumətin önləyici tədbirləri nəticəsində belə bir vəziyyətin Azərbaycana təsiri minimum olur. Bu dəfə də hökumət çalışır ki, o cür önləyici tədbirlə belə vəziyyətin əhalinin sosial durumuna təsirini minimuma endirsin.

- *Mehman Əliyev qəzetimizə deyib ki, hökumət islahatlarla bağlı paket hazırlayıb. Doğrudurmu?*

- O, mətbuat üzrə ekspertdir, paket üzrə yox.

- *Ümumiyyətlə, islahatlarla bağlı təkliflər hazırlanıbmı?*

- Sizə bir şey deyim. Mən Nazirlər Kabinetinin içərisində oturan adamam. Necə olur ki, hökumətin hazırladığı paketdən Mehman Əliyev xəbər tutur, amma mənim xəbərim yoxdur? Belə çıxır ki, onu hazırlayanlar Mehman Əliyevi çağırıb, deyib biz təkliflər paketi hazırlayırıq, sənə də bu barədə məlumat veririk? Niyə? Bu, varsa da, məlumat prezidentə verilir. Açığı, olub-olmadığını mən bilmirəm. Təbii ki, önləyici tədbirlərlə bağlı hökumət müəyyən tədbirlər görür. Amma bunun paket şəklində olub-olmadığını başqa kim bilər ki? Bu barədə cənab prezidentə məruzə edə bilərlər, yaxud onun tapşırığı ilə işləyə bilərlər. Yoxsa hansısa ekspertin bu barədə məlumat alması inandırıcı deyil.

- *Hər halda təkliflər paketinin olması normal məsələdir, nəinki olmaması, elə deyilmi?*

- Əlbəttə, bütün hallarda şübhəsiz ki, hökumət çalışır, müəyyən işlər görür. Amma bunlar barədə heç bir sənəd ortada olmadan nəsə bir məlumat vermək qeyri-ciddi söhbət olur. Əvvəldən nələrinsə deyilməsinə nə ehtiyac var ki? Amma o işi, o funksiyanı vəzifəli adamlar, iqtisadi qurumlar görürlər. Onlar özləri öz işlərini görürlər. Hərənin öz tapşırığı var, prezidentə də hesabat verirlər. Situasiya belədir. Məsələlərə daha yüksəkdən baxaq, yoxsa şayiələrə əsaslanmaqla yox.

- *Baş nazirin özü bu proseslərə nəzarət edirmi? Nadir hallarda göründüyü, publika qarşısına çıxdığı üçün soruşdum...*

- Şübhəsiz, baş nazir bu proseslərin üstündədir. Prezidentin tapşırığı ilə bütün məsələləri nəzarətdə saxlayır, səhərdən-axşamadək iş başındadır. Başqa nə iş ola bilər ki, əlbəttə, bu işlə məşğuldur.

- *Vaxtaşırı baş nazirin yaşının çoxluğu önə çəkilir, istefaya gedəcəyi iddia olunur...*

- Mən o zaman da deyirdim, indi də deyirəm: o jurnalistlər ki, yazırdılar Artur Rəsizadə işə çıxmır, səhhəti filandır, mən onlara deyirdim ki, səhər saat 9-a 15 dəqiqə qalmış Nazirlər Kabinetinin qarşısına gəlin və baş nazirin kartejinin içəri girdiyini özünüz görün. Axşam da saat 7-də işdən getdiyi vaxtdır. Lakin gəlmədilər, baxmadılar. "Xəstədir", "işə gəlmir", "yoxdur" deyilir ki, bunların hamısı boş söhbətdərdir. Oturub öz yerində, öz işi ilə məşğuldur, prezidentin tapşırıqlarını icra edir. Hərə bir şey deyir, müəyyən məqsəd güdən, təmənnalı, məqsədli adamlar var. Yaxud sadəcə elə-belə reytinqini qaldırmaq istəyən mətbu orqanlar var.

**"Necə olur ki, hökumətin hazırladığı paketdən Mehman Əliyev xəbər tutur, amma mənim xəbərim yoxdur?"**

- *Yaqin ki, nazirlər, yaxud baş nazirin müavinləri sırasında baş nazir olmaq istəyində, arzusunda olanlar da var...*

- Mən onu deyə bilmərəm, çünki bilmirəm. Amma istəməklə deyil. Məsələn, mən çox şey istəyirəm, amma nə olsun? Deyə bilərəm ki, mənim vəzifəm kiçik vəzifədir, imkanlarımın cəmi 20 faizi qədərdir. Nə olsun? İstəməklə deyil ki. Dövlət idarəçiliyi başqa şeydir.

- *Yaqin imkan düşəndə Artur Rəsizadə ilə səmimi söhbət edirsiniz. Baş nazir kimi özü işləməkdə davam etmək fikrindədirmi?*

- Artur Rəsizadə tamamilə sağlam adamdır, bütün təfəkkürü, idrakı, şüuru, yaddaşı çox cavandan da möhkəmdir və heç bir problemi də yoxdur. Şəxsən mən problem görməmişəm və işində davam edir. Allah nə qədər məsləhət bilsə, o qədər də davam edəcək.

- *Mən məmnuniyyətlə, Artur müəllimdən müsahibə götürmək istərdim. Bəlkə yardımçı olasınız...*

- Yox, o məndən asılı deyil. Bu, artıq Artur müəllimin qrafikindən asılıdır. Əgər siz yazılı müraciət etsəniz, mən ona verə bilərəm. Əgər o, qrafikində yer ayırsa və intervü vermək üçün vaxtı uyğun gəlsə, heç bir problem olmaz.

- *Amma adətən baş nazir müsahibələrə maraqlı olmur.*

- Bilirsiniz necədir? Əgər o, prezidentin tapşırığını icra edirsə, öz adından nələr desin? O, dövlətin işini aparan adamdır. Dövlətin ümumi iqtisadi siyasəti var, bu siyasət də prezidentin nəzarəti ilə həyata keçirilir. Baş nazir də sadəcə icra edir. Burda xarakterin özünün mentallığı, ziyalılıqdan irəli gələn özünü gözə soxmamaq, ambisiyalı olmamaq məsələləri var. Eyni zamanda sadəcə sədaqətlə Heydər Əliyev yoluna, İlham Əliyevin nəzarəti altında gedən proseslərə xidmət etməz məsələsi var. Yəni burda başqa səbəb yoxdur. Özün bilirsən, çox ziyalı bir adamdır, dərin ziyalı bir nəsildəndir, özü də Azərbaycan dövləti və hökuməti üçün ömrü boyu çalışan adamdır. Şəxsən mən bunun şahidi olmuşam. Burda işlədiyim 20 il ərzində onun Azərbaycan üçün, xüsusən aparılan danışıqlarda, Qarabağla bağlı məsələlərdə, Azərbaycanın iqtisadiyyatı, ordu quruculuğunun möhkəmlənməsində onun nə qədər xidmətinin olduğunu şəxsən mən deyə bilmərəm.

- *Azərbaycan bu böhranlı vəziyyətdən böyük vəsaitlər itirir...*

- Gəlin bunun adını böhran qoymayaq da. Böhran 90-cı illərdə var idi. Azərbaycan iqtisadiyyatı, sadəcə olaraq, dünyada gedən iqtisadi, maliyyə proseslərinə uyğun olaraq öz iqtisadi siyasətini tənzimləyir, aparır ki, içəridə sosial duruma ciddi təsir olmasın.

- *Azərbaycan neft gəlirlərinin azalmasından hər gün nə qədər itirir?*

- Bu barədə məndə rəqəm yoxdur. Bu kimi məsələləri hesablamaq üçün Nyu-Yorkda xüsusi birja fəaliyyət göstərir. Azərbaycan 20 ildə özü üçün o qədər möhkəm iqtisadi baza qurub ki... İstər Neft Fondu vasitəsilə, istər büdcənin artımı, qeyri-neft fondu məsələlərində. Güman etmirəm ki, bu vəziyyətin bizə ciddi təsiri olsun. Amma bütün məsələlər nəzərə alınır, tənzimlənir.

- *Yəni payızda maaş, təqaüd krizisi gözlənilmir?*

- Vallah, mən burdayam, amma burda belə bir həyəcanlı söhbət eşitməmişəm. Əhalinin durumu, maaşlarla bağlı heç bir problem ola bilməz. Amma bütün bunlar nəzərə alınır. Alınmasa, bu, dövlət olmaz ki. Özü də bizim dörd bir tərəfimizdə çox ciddi proseslər gedir. Bütün bunlar nəzərə alınır. Şübhəsiz ki, vəziyyət müəyyən qədər təsir edəcək. Bir var gündə adamın cibinə 10 manat gəlsin, bir də var 1 manat. Təbii ki, təsir edir...

❑ **Elşad PAŞASOY**

# Vəzifəli şəxslər nə qədər maaş alır?

**Transparency.az ali vəzifəli şəxslərin, deputatların, hakimlərin və dövlət orqanlarının rəhbər işçilərinin maaşı haqqında arayışı təqdim edir. Seçki Məcəlləsinin 209-cu maddəsinə (Prezidentin öz vəzifəsinə başlaması) görə, and içdiyi gündən Azərbaycan Respublikasının prezidenti 15000 manat məbləğində aylıq vəzifə maaşı alır.**

"Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanunun 21-ci maddəsinə (Deputatın maddi təminatı) görə, Milli Məclisin sədrinin aylıq əmək haqqı 2250 manatdır.

Milli Məclis sədrinin birinci müavininə sədrin aylıq vəzifə maaşının 90 faizi, Milli Məclis sədrinin müavininə - 85 faizi, Milli Məclisin komitə və komissiya sədrinə - 80 faizi, Milli Məclisin komissiya sədrinin müavininə - 75 faizi, Milli Məclisin deputatına isə Milli Məclis sədrinin aylıq vəzifə maaşının 70 faizi miqdarında aylıq əmək haqqı verilir.

"Məhkəmələr və hakimlər haqqında" Qanunun 106-cı maddəsində (Hakimlərin maddi təminatı) hakimlərin vəzifə maaşları belə müəyyən edilib:

- Ali Məhkəmənin sədrinə 2070 manat həcmində;
- Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və apelyasiya məhkəmələrinin sədrlərinə ali məhkəmə sədrinin vəzifə maaşının 90 faizi həcmində;
- ağır cinayətlər məhkəmələrinin, Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin, hərbi məhkəmələrin və inzibati-iqtisadi məhkəmələrin sədrlərinə Ali Məhkəmə sədrinin vəzifə maaşının 80 faizi həcmində;
- digər məhkəmələrin sədrlərinə Ali Məhkəmə sədrinin vəzifə maaşının 70 faizi həcmində;
- bütün məhkəmələrin sədr müavinlərə müvafiq məhkəmə sədrinin vəzifə maaşlarının 90 faizi həcmində;
- Ali Məhkəmənin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və apelyasiya məhkəmələrinin kollegiya sədrlərinə müvafiq məhkəmə sədrinin vəzifə maaşının 85 faizi həcmində;
- bütün məhkəmələrin hakimlərinə müvafiq məhkəmə sədrinin vəzifə maaşlarının 80 faizi həcmində müəyyən edilir.

**Dövlət orqanlarının rəhbər işçilərinin aylıq vəzifə maaşları isə prezident sərəncamı ilə bu məbləğlərdə müəyyən edilib:**

- baş nazir - 2230 manat
- baş nazirin birinci müavini - 1960 manat
- baş nazirin müavini - 1870 manat
- nazir, dövlət komitəsinin sədri, Dövlət Sosial Müdafiə Fondunun sədri, Dövlət Sərhəd Xidmətinin rəisi, Dövlət Neft Fondunun icraçı direktoru - 1750 manat
- mərkəzi icra hakimiyyəti orqanlarına bərabər tutulan icra hakimiyyəti orqanının rəhbəri - 1450 manat
- nazirin, dövlət komitəsi sədrinin, Dövlət Sosial Müdafiə Fondu sədrinin, Dövlət Sərhəd Xidməti rəisinin birinci müavini - 1250 manat
- nazirin, dövlət komitəsi sədrinin, Dövlət Sosial Müdafiə Fondu sədrinin, Dövlət Sərhəd Xidməti rəisinin, Dövlət Neft Fondunun İcraçı direktorunun müavini, mərkəzi icra hakimiyyəti orqanlarına bərabər tutulan icra hakimiyyəti orqanının rəhbərinin birinci müavini - 1160 manat
- mərkəzi icra hakimiyyəti orqanlarına bərabər tutulan, icra hakimiyyəti orqanının rəhbərinin müavini - 1050 manat.



**Yerli icra hakimiyyəti başçılarının aylıq vəzifə maaşları isə belədir:**

- Bakı şəhəri - 1750 manat
- Gəncə və Sumqayıt şəhərləri - 1160 manat

şəhər, rayon və şəhər rayonu üzrə:

- əhalisinin sayı 100 min nəfərdən çox olduqda - 950 manat
- əhalisinin sayı 50-100 min nəfər olduqda - 900 manat
- əhalisinin sayı 50 min nəfərədək olduqda - 800 manat.

Transparency.az qeyd edir ki, "Azərbaycan Respublikasının keçmiş prezidentinin və onun ailə üzvlərinin təminatı haqqında" konstitusiya qanununun 2-ci maddəsinə (Keçmiş prezidentin pensiyası) əsasən, keçmiş prezident Azərbaycan Respublikasının fəaliyyətdə olan prezidentinin aylıq vəzifə maaşının 50 faizi məbləğində aylıq pensiya alır.

Milli Məclisin deputatının, hakimlərin və dövlət orqanlarının rəhbər işçilərinin pensiya təminatı isə "Əmək pensiyaları haqqında" Qanunu (Qanun ttp://e-qanun.az/framework/11566) uyğun olaraq həyata keçirilir.

YENİ MÜSAVAT
N 188 (6216) 27 avqust 2015

# AMİP və ADP namizədlər siyahısını açıqladı







## YAP və Müsavat gözləmə mövqeyindədir; seçki kampaniyası hansı mərhələlərdən ibarət olacaq?

**Azərbaycanda parlament seçkiləri Konstitusiyaya uyğun olaraq noyabrın ilk həftəsinin ilk bazar günü keçirilməlidir. Bu tarix də noyabrın 1-nə düşür. Odur ki, Konstitusiyanın tələbinə görə seçkilər noyabrın 1-nə təyin edilməlidir. Dövlət başçısının bu barədə sərəncamı olmalıdır. Bu barədə Mərkəzi Seçki Komissiyasının sabiq üzvü, Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı "Yeni Müsavat"a parlament seçkiləri kampaniyasının mərhələlərindən danışarkən bildirdi.**

G.Aslanlı qeyd etdi ki, Seçki Məcəlləsinin tələbinə görə, seçki kampaniyası seçki gününə ən azı 60 gün qalmış başlanmalıdır və bu barədə MSK rəsmi məlumat verməlidir. Seçkilərin 1 noyabrda keçirilməli olduğunu nəzərə aldıqda seçki gününə ən azı 60 gün qaldığı tarix sentyabrın 1-dir. Bu isə o deməkdir ki, seçki kampaniyası ən gec sentyabrın 1-də rəsmən başlanmalıdır. Seçki kampaniyasının başlandığı MSK tərəfindən elan olunandan sonra bu barədə rəsmi dövlət qəzetində dərc olunmalıdır. Rəsmi qəzetlərdə MSK-nın elanı dərc edilən gündən etibarən istənilən deputatlığa iddiaçının sənədləri seçki komissiyasına verilə bilər. Təqvim planı elə olmalıdır ki, sentyabrın birindən seçki komissiyaları sənədlərin qəbuluna başlamalıdır. Təqdim olunan sənədlərə baxılma isə beş gün ərzində həyata keçirilməlidir. Seçki komissiyası istəsə bir gün ərzində, istəsə 5 gün sonra sənədlərə baxıb deputatlığa namizədə rəsmi cavab verməlidir. Elə hallar olub ki, deputatlığa iddiaçının sənədlərini təqdim olunan gün baxıb təsdiqləyiblər. Elə hal da olub ki, sənədlər təqdim olunandan beş gün sonra baxıb təsdiqləyiblər və imza vərəqələri veriblər. İmza toplamaq üçün isə təqribən 14 gün vaxt nəzərdə tutulub. Təbliğat-təşviqat kampaniyası isə oktyabrın 8-də başlamalıdır və seçkiyə bir gün qalmış təbliğat-təşviqat kampaniyası dayandırılır".

**G.Aslanlı məlumat verdi ki, Müsavat Partiyası Məclisinin avqustun 29-da növbədənkənar sessiyası olacaq:** "Sessiyada Müsavat Partiyasının razılaşdırılmış namizədləri təsdiq ediləcək. Məclis razılaşdırılmamış dairələrdə sonradan razılaşmalar olanda həmin dairələrdən olacaq namizədlərin namizədliyi Divanda da təsdiqlənə bilər. Məclis bu barədə Divana səlahiyyət verə bilər. Namizədlər təsdiq olunduqdan və seçki kampaniyası başlayandan sonra namizədlərin sənədləri seçki komissiyasına təqdim olunacaq".

Digər siyasi partiyalardan isə artıq bir sıra dairələr üzrə namizədlər siyahısını açıqlayanlar var.

**AMİP Siyasi Şurası 2015-ci il Milli Məclisə seçkilərdə partiyanı təmsil edəcək namizədlərin bir qismini təsdiq edib və ictimaiyyətə açıqlayıb. Bu barədə "Yeni Müsavat"a partiyanın mətbuat xidmətindən məlumat verilib. Bildirilir ki, dünən partiyanın rayon təşkilatı sədrlərinin toplantısında partiyanın deputatlığa namizədlərinin bir qismi müəyyənləşdirilib, digər namizədlərin məsələsinin isə Siyasi Şuranın növbəti iclasının gündəliyinə salınması nəzərdə tutulub.**

**Qərara əsasən aşağıda adları qeyd olunan şəxslərin namizədliyi AMİP tərəfindən irəli sürülüb:**

9 saylı Binəqədi ikinci seçki dairəsindən Əli Orucov- AMİP Siyasi Şurasının üzvü , "Millət" qəzetinin baş redaktoru, 15 saylı Yasamal birinci seçki dairəsindən Elşən Mustafayev-AMİP beynəlxalq əlaqələr katibi, 19 saylı Nərimanov birinci seçki dairəsindən Eldar Hüseynov-AMİP Siyasi Şurasının üzvü, 23 saylı Nəsimi-Səbayel seçki dairəsindən Suğra Nəcəfova-AMİP Mərkəzi Şurasının üzvü, 25 saylı Nizami ikinci seçki dairəsindən Məmmədəli Səfərov-AMİP Nizami RT sədri, 31 saylı Suraxanı ikinci seçki dairəsindən Ayaz Rüstəmov-AMİP Mərkəzi Şurasının üzvü, 34 saylı Xətai ikinci seçki dairəsindən Məhərrəm Həsənov- AMİP Siyasi Şurasının üzvü, 38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsindən Yusif Bağırzadə-AMİP sədri, 41 saylı Sumqayıt birinci seçki dairəsindən Dünyamin Əhmədli-AMİP Sumqayıt RT sədri, 79 saylı İmişli seçki dairəsindən Tapdıq Həsənov-AMİP İmişli RT sədri, 87 saylı Ağsu-İsmayıllı seçki dairəsindən Elçin Əzizov-AMİP üzvü, 90 saylı Ağdaş seçki dairəsindən Loğman Əliyev-AMİP Mərkəzi İntizam Komissiyasının üzvü, 102 saylı Samux-Şəmkir seçki dairəsindən İradə Həsənova-Samux RT sədri, 113 saylı Şəki şəhər seçki dairəsindən Əbülfəz Bağırov-AMİP Şəki RT sədri, 119 saylı Ağdam kənd seçki dairəsindən Yaşar Həsənov-AMİP Ağdam RT sədri.

AMİP lideri Etibar Məmmədovun adı partiyanın açıqladığı siyahıda yoxdur. AMİP rəhbərliyi bəyan edib ki, deputatlığa namizəd olub-olmaması Etibar Məmmədovun özünün verəcəyi qərardan asılıdır.

**Dünən ADP də namizədlərinin ilkin siyahısını açıqlayıb. Partiyadan verilən məlumata görə, ADP-nin Mərkəzi Seçki Qərargahının ilk toplantısı keçirilib. Toplantıda Milli Məclisə bu ilin noyabrında keçirilməsi planlaşdırılan seçkilərdə partiyadan olan namizədlərin ilkin siyahısı, seçkilərlə bağlı qanunvericiliyin tələblərinə uyğun olaraq atılacaq addımların müəyyənləşdirilməsi və digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb, müvafiq qərarlar verilib. Qərara alınıb ki, 5 sentyabr 2015-ci ildə partiyanın Ali Məclisinin iclası keçirilsin və seçkilərlə bağlı məsələlər Məclisin müzakirəsinə çıxarılsın.**

**Eyni zamanda seçkilərdə partiya adından iştirakı dəqiqləşdirilən aşağıdakı ilkin siyahının açıqlanması qərarlaşdırılıb:** Sərdar Cəlaloğlu-9 saylı Binəqədi 2-ci seçki dairəsi, Həsrət Rüstəmov-14 saylı Xəzər seçki dairəsi, Taliyət Əliyev- 21 saylı Nəsimi 1-ci seçki dairəsi, Rəşid Mansurov-22 saylı Nəsimi 2-ci seçki dairəsi, Bəhruz Məmmədov -23 saylı Nəsimi-Səbail seçki dairəsi, Nurəddin İsmayılov-25 saylı Nizami 2-ci seçki dairəsi, Zakir Hüseynov-34 saylı Xətai 2-ci seçki dairəsi, Vasif Abdullayev-35 saylı Xətai 3-cü seçki dairəsi, Xaliddin Cahangirov-42 saylı Sumqayıt 2-ci seçki dairəsi, İsa Cəfərov-44 saylı Sumqayıt-Abşeron seçki dairəsi, Kamil İsayev-46 saylı Şirvan seçki dairəsi, Cəbrayıl Dünyamalıyev - 65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsi, Daşqın Nuriyev- 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsi, Məmmədağa Eynullayev-70 saylı Masallı şəhər seçki dairəsi, Rahib Həşimov-75 saylı Lənkəran-Masallı seçki dairəsi.

**8 partiyanın təmsil olunduğu "Azadlıq-2015" seçki bloku isə hələ siyahını dəqiqləşdirir. Blokun seçki qərargahının rəhbəri Bəybala Əbil bildirib ki, siyahı bugünlərdə elan olunacaq:** "Blok 80 dairədən namizəd irəli sürəcək. Blok daxilindəki 8 partiyadan KXCP-nin namizədi daha çoxdur. Elə dairələr var ki, "Azadlıq-2015" blokunun oradan namizədi olmayacaq. Amma bəzi dairələrə 2-3 nəfər iddialı var. Əslində seçki qərargahının siyahını gec çap etməsinin əsas səbəbi dəqiqləşmə ilə bağlıdır. 3-4 nəfərin iddia etdiyi dairədə daha çox güclü namizəd üzərində dayanacağıq. Blok ola bilsin, mübahisəli dairədə 1 namizəd irəli sürsün, ancaq blokda təmsil olunan partiyalar öz namizədini ayrı-ayrılıqda versin. Yəqin bu həftə məsələlər həll olunacaq".

Ümid Partiyasının müdafiə etdiyi 80-nə yaxın deputatlığa namizədin siyahısı təxminən iki həftə öncə açıqlanıb.

Hakim Yeni Azərbaycan Partiyası isə hələ ki siyahını açıqlamayıb. Hakim partiya siyahısını bu həftə açıqlayacağını bəyan edib. YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov bildirib ki, Seçki Məcəlləsinə uyğun olaraq seçkilərə ən azı 60 gün qalmış Azərbaycan Prezidentinin sərəncamı olur. Ölkə başçısının Milli Məclisə seçkilərin elan olunması ilə əlaqədar sərəncamı dərc olunandan və qüvvəyə minəndən sonra YAP İdarə Heyəti namizədləri ilə bağlı qərar qəbul edəcək. Qərar qəbulundan sonra siyahı açıqlanacaq.

❑ **Etibar SEYİDAĞA**

# 24 il bundan əvvəl avqustda...



**Hüseynbala SƏLİMOV**

**Yenicə sərinləşməyə başlayan bu avqust günlərində 24 il bundan əvvəl baş vermiş "avqust putçu" haqqında yazmamaq günah olardı. Həm də bu xüsusda V.Jirinovskinin yazısını görəndən sonra yazmamaq lap iki qat günah olardı...**

O günləri hələ indi də xatırlayıram. Bilirsiniz, çox qəribə hisslər keçirirdi adam. Amma qorxu-filan yox idi. Sanki çox maraqlı filmi yarıda kəsmişdilər, biz də bundan yaman dilxor olmuşduq və araya girən bu "QKÇP"-ni möhkəmcə lənətləyirdik...

Bir ara mitinqlərdə SSRİ-dən çıxmaq haqqında çağırışlar çox intensivləşmişdi. Hər dəfə mitinqdə SSRİ-dən çıxmaq haqqında çağırış eşidiləndə mitinqlərə birlikdə getdiyimiz bir dostum deyirdi ki, ay Hüseynbala, deyəsən, bu dəfə məsələ ciddidir? Mən isə deyirdim ki, yox, hələ bir az səbir elə, tezdir. Qərəz, hamımız o günü - Azərbaycanın SSRİ-dən ayrılacağı günü gözləyirdik... İşin tərsliyindən də araya gəlib bu "QKÇP" girdi. Bayaq dediyim kimi, sanki çox maraqlı bir filmi, Azərbaycanın SSRİ-dən ayrılması haqqındakı filmi yarımçıq kəsmişdilər...

Biz o vaxt hələ bilmirdik ki, "QKÇP" də SSRİ-nin son közərtisidir - ocağın sönməyə yaxın parıltısı artan kimi elə SSRİ də çökmək ərəfəsində durub oyun çıxarmaq istəyirdi...

Ən maraqlısı "QKÇP" günü bizi işdə, iş yerində nəyin gözləməsi idi. Nə deyim? O vaxt iş yerlərində "inqilabçılar"ı hamı tanıyırdı, gözəl bilirdilər ki, biz cəbhəçiyik - AXC-nin üzvləriyik...

Düşünürdük ki, indi bizə qarşı da hücuma keçəcəklər, bir vaxt onları mitinqlərə getməməyə görə qınadığımız üçün onlar da indi bunun heyfini çıxmağa çalışacaqlar. Xüsusən də rusdillilərdən və ruslardan ehtiyat edirdik...

Amma dərhal deyim ki, heç nə olmadı, bizə "gözünün üstündə qaşın var" deyən belə tapılmadı - əvvəlki xoş münasibət, hətta zarafatlar da qalmışdı. Gəl ki, hamının üzündə bir dilxorçuluq vardı. "QKÇP"-nin elan edilməsini bayram edən yox idi, insanlarda qiyamçılara qarşı bir inamsızlıq vardı...

Həm də hamı eksperimentlərdən bezmişdi. Nə qədər eksperiment olardı axı? Sovet kommunist partiyasının hər bir qurultayı ölkəyə "yeni həyat" vəd edirdi. İnsanlar da deyirdi ki, nə qədər söküb-tikmək olar?..

Yenidənqurma insanlara maddi cəhətdən heç nə verməsə də, onlar azacıq mənəvi dəyərləri dadmışdılar - o vaxt insanlar çox oxuyurdu, birdən-birə də az qala yeni informasiya seli hər yanı bürümüşdü... Necə deyərlər, oxuyana minnət! İnsanlar da oxuyurdu!..

Həm də birdən-birə partiya yaratmaq, qəzet və jurnal buraxmaq, mitinqlər keçirmək - bunlar o dövrdə hələ yenicə başlanırdı, ona görə də hələ də gözdən düşməmişdilər...

Qərəz, qiyam belə gəldi və belə də getdi... Azacıq sonra da SSRİ çökdü. Biz azad olduq. Düzdür, azadlıq cəmi bir-iki il davam etdi. Amma bizim mahiyyətimizi üzə çıxarmaq üçün kifayət qədər yetərli oldu. Biz çox tez bezib yorulduq, ikicə il bəs etdi ki, azadlıqdan tamam küsək, ondan kütləvi şəkildə qaçaq...

Niyə belə oldu? Çox güman ki, azadlıq özü ilə bahəm həm də böyük məsuliyyət gətirirdi - öz həyatın üçün məsuliyyət, öz ailən üçün məsuliyyət, ölkə üçün məsuliyyət... İnsanların böyük qismi buna hazır deyildi. Əksəriyyət hələ o vaxt yalnız bir şeyi bacarırdı - "Oqonyok" jurnalında sovetləri ifşa edən növbəti yazını oxumaq və onu iş yerində ağzı sulana-sulana öz yoldaşlarına danışmaq...

Azadlıq isə tamam başqa yenilik gətirirdi. Biz totalitar dövlətdən çıxmışdıq. Birdən-birə dövlətin üzərindən böyük bir yük götürülüb vətəndaşın çiyinlərinə qoyulurdu, o isə hələ buna hazır deyildi...

Ona görə də özü ilə dövlət arasında yaranmış uçurum adi vətəndaşı qorxudurdu. "Bir parça çörəyimi qazanım!" psixologiyası insanlarda çox güclü idi. Kimi dindirirdin, deyirdi ki, qardaş, mən siyasət adamı deyiləm, məni rahat buraxın, qoyun bir parça çörəyimi qazanım...

Təbii, belə psixologiya dəmir əl üçün qəribsəmlidir və qəribsədi də... Amma neyləmək olar? Açığı o vaxt hamımız bilirdik ki, birinci demokratik hökumət üçün də, elə bizim hamımız üçün də çox çətin olacaq...

Hakimiyyətin ilk günlərindən bizimkilər deyirdi ki, biz qurbanlıqlarıq. Məni sadəcə, bu adamların 93-cü ildən sonra tamamilə əks şeylər deməsi təəccübləndirirdi - guya, hər şey kiminsə ucbatından oldu, guya ki, belələri olmasaydı, biz lap 50 il hakimiyyətdə qalardıq...

Ona görə də həmişə deyirəm ki, 93-cü il bizə də lazım idi. Özümüzü tanımaq üçün lazım idi...

YENİ MÜSAVAT
N 188 (6216) 27 avqust 2015



# Suvarma diplomatiyası

Zamin HACI
zaminhaci@gmail.com

"Elə bu vaxt hər yandan camaat
Balqabaq kirvənin evciyinə baxmağa
axışdı. Bir sürü balaca oğlan da gəldi.
Onların ən kiçiyi evciyin damına hoppandı,
orda rəqs edərək oxumağa başladı:
Qoca Balqabağın, Mətbəxdədir ayağı,
Yataq otağında sol əli, Ayaqları astanada,
Burnu isə çardağın pəncərəsində!"

**(Canni Rodari, "Çipollinonun macəraları")**

**Bu günlərdə Avropa Şurasından ölkəmizə bir qonaq gəlmişdi. Xarici işlər nazirimiz Elmar Yarməmmədov onu qoydu qabağına, bir azdan 1-ci sinifə gedəcək aşırma şalvarlı uşaqlar kimi danladı. Deyir nə üçün erməniləri qınamırsınız, axı onlar bizə su vermirlər.**

Açığı, öncə elə bildim Elməmməd Yarmarov müəllim avropalı qonaqla məzələnir. Çünki dünyada hələ elə bir savaş, işğal olmayıbdır ki, sənin insanlarını öldürən, torpağını tutan düşməndən yerdə qalan ərazini suvarmaq üçün su istəyəsən. Örnək üçün, təsəvvür elə, Stalin savaşın qızğın vaxtında Hitlerə məktub yazıb deyəydi ki, bəs andırını bir az o yana elə, Don çayında atlarımızı suvaraq. İndi isə bizim XİN ciddi şəkildə Avropa Şurası qarşısında məsələ qaldırmışdır: "Ermənilərə deyin Sərsəng su anbarından su buraxsınlar, Tərtərdə xiyarlara su verək".

Sonra araşdırdım, məlum oldu qəti zarafat-zad deyil, üstəlik, indiyə qədər XİN bunu dəfələrlə AŞ qarşısında qaldırmışdır. AŞ "siyasi dustaqları buraxın, insan haqlarına əməl edin" deyəndə də bunların vecinə olmur, dərhal əks-arqument kimi xiyar sahələrini suvarmaq problemini ortaya atırlar. Elə bu ilin qışında yapistlər ermənilərin suvarmaya yaratdığı problemi AŞ qarşısında qaldırmışdılar. Yay-qış aktual problemdir.

Məncə, ta keçib, Elmar müəllim ermənilərin Qarabağdakı cır əzgil ağaclarına vaxtında aqrotexniki qulluq etmədiyini də qaldırsın. O cümlədən, başqa dövlət strukturlarımız belə acizanə xahişlərdə bulunsunlar. Misal üçün, Zakir müəllim əslən Kəlbəcərdən olan əsgərlərimizin öz rayonlarında qulluq eləmək arzusunu çatdırsın. Niyə ermənilər buna şərait yaratmır? Yaxud təhsil, badminton və Barselona işləri üzrə nazirimiz Mikayıl müəllim laçınlı uşaqların öz kənd məktəblərində oxumaq tələbini AŞ qarşısına dığırlasın. Ekologiya naziri yaylağa çıxmaq arzumuzu Vartan müəllimə çatdırsın. Bunun üçün bizim nazirlərə humanitar koridor verilməlidir. Bir aylığına gedib İsa bulağında, Cıdır düzündə şellənsinlər, sonra dava təzədən başlansın. Davanın dava qaydası var.

Özü də alçaq düşmənin əli çox uzundur. Elyar Məmmədmarov müəllim avropalı qonağı Sərsəng anbarının divarına sıxıb suyunu çıxaran gün Bakının Zığ qəsəbəsinin sakinləri də etiraz aksiyası qayırmışdılar, deyirdilər bizə su verin. Yekə bir qəsəbəyə 20 ildir su verilmir, maşınla alırmışlar. Hətta etiraz aksiyasındakılardan biri uzun aylar çimmədiyi üçün iylənibmiş, su idarəsinin rəisi demişdi ki, aralı dur, səndən dövlətçilik qoxusu gəlir.

Böyük ehtimalla həmin rəis də ermənidir. Bakının su işinə baxanlar arasında ermənilər çoxdur. Əks halda, niyə biz suyu çətin tapırıq? Tərtərlə Bakı arasında bu yöndə doğmalıq var. Vətən elə bu cür yaranır: hər tərəfə problem yaradarsan, hamı "elnən gələn bəla toy-bayram olar" deyib sənin ətrafında sıx birləşər. Yoxsa bir rayonda problem həll olunsa başqa ərazilərdə yaşayanlar oranı sevməzlər, oranı düşmən torpağı sayarlar.

Bax, elə təzə təhsil nazirimiz Mikayıl müəllim də idarəçiliyin bu sirlərini yüksək sürətlə əxz eləməkdədir. Təzə dərs ilinin başlanmasına 15-20 gün qalır. Adətən belə məqamlarda başqa dünya ölkələrinin təhsil naziri nədən danışır? Ay sağ olasan: məktəbdəki yeniliklərdən, dərsliklərdən, müəllimlərdən, uşaqlardan... Amma bizim təhsil naziri 2 gün qabaq intervü verib... badmintondan danışıbdır. Çünki bunu eyni zamanda Badminton Federasiyasına sədr qoyublar. İndi jurnalist də təhsil naziri ilə oturub respublikamızda badminton oynamağın perspektivlərindən qırıldatmışdır. Necə ki, vergilər naziri qılınc oynatmaqdan, fövqəladə hallar naziri isə taekvondodan intervü verir.

Belə olan halda xarici işlər naziri xiyar sulamağın çətinliyindən danışmalıdır.

# "Qərb 2005-dəki projeni yenidən başlatmaq istəyir"

## "Onlar istəyirlər ki, müxalifət seçkidə iştirak etsin və mümkündürsə, bir blokdan çıxış etsin"; tanınmış politoloq müxalifətlə görüşlərin arxasında dayanan sirri açdı



**Parlament seçkiləri yaxınlaşdıqca Azərbaycanda fəaliyyət göstərən xarici diplomatik korpusun, bəzi beynəlxalq təşkilatların təmsilçilərinin müxalifət partiyaları ilə təmasları, müzakirələri intensivləşir. Son 10 gündə az qala hər gün hansısa tanınmış müxalif təşkilatların rəhbərləri ilə görüş xəbəri yayılır. Təkcə Müsavat Partiyasının başqanı Arif Hacılı ilə 10 gün ərzində Böyük Britaniya səfirliyi iki dəfə görüşüb.**

Yayılan rəsmi açıqlamalarda görüşlər zamanı seçkilər, ölkədə demokratiyanın durumu, Avropaya inteqrasiya məsələlərinin müzakirə edildiyi deyilir.

Diqqəti cəlb edən məqam isə Avropa İttifaqının və Böyük Britaniya diplomatlarının fəallaşmasıdır.

**Azərbaycan Milli Strateji Təhqiqatlar Mərkəzinin sədri, politoloq Natiq Miri** hesab edir ki, diplomatik korpusun və Avropa İttifaqının müxalifətlə təmasları intensivləşdirməsi məhz 2015-ci il parlament seçkiləri ilə bağlıdır: "Qərb anlayır və istəyir ki, bütün demokratik proseslər məhz parlamentdən başlamalıdır. Küçə və meydan mübarizəsi Azərbaycan cəmiyyətində demokratik dəyişikliklərə gətirib çıxara bilmədi. Bunun da konkret səbəbləri var və bunu təbii ki, Qərb dünyası bilməmiş deyil. Ancaq indiki şəraitdə müxalifətlə Avropa və ABŞ diplomatlarının tez-tez görüşməsi seçkilərin boykot edilməməsinə nail olmağa yönəlib. Onlar istəyirlər ki, müxalifət seçkidə iştirak etsin və mümkündürsə, bir blokdan çıxış etsin. Ola bilsin ki, bu kontekstdə hakimiyyətlə də danışıqlar aparılsın. Diqqət edirsinizsə, artıq ABŞ səfiri YAP rəhbərliyi ilə də görüşüb. Məncə, Qərb əsl müxalifətin parlamentə düşməsini istəyir. Danışıqlarda bu məsələ də güman ki yer tutur. Qərb bundan sonrakı dönəmdə məhz parlament vasitəsilə ölkədə müsbət dəyişikliklərin təməlini qoymaq istəyir. Qərbin bu planı 2005-ci ildə də var idi. O zaman seçkidə müxalifət olaraq iştirak edən "Azadlıq" blokunun 25 nəfərlə parlamentə düşməsi məsələsi demək olar ki, həll olunmuşdu, lakin həmin blokun üzvü olan partiyalardan birinin liderinin kobud yanlışlığı ucbatından o plan baş tutmadı və proses hakimiyyətin xeyrinə inkişaf etdi.

Qərb indi də proseslərin Azərbaycanda inqilab yolu deyil, tədrici demokratikləşmə yolu ilə getməsinə çalışır. 2005-ci ildəki projenin heç olmasa bundan sonra davam etməsi üçün yenidən bu prosesi başlatmaq istəyi hiss olunur".

❑ **E.SEYİDAĞA**

# "Bir millətin iki dövləti"nin iki fərqli seçkisi

## Türkiyədə seçkilər ölkə siyasi həyatının həlledici hadisəsi olsa da, Azərbaycan haqda bunu demək olmur...

**Noyabrın 1-də Türkiyədə erkən seçkilər keçiriləcək. İyunun 7-də keçirilən parlament seçkilərindən sonra siyasi partiyaların koalisiya hökuməti qurmaq danışıqları nəticə vermədiyindən, qanuna əsasən 45 günlük koalisiya danışıqları müddəti başa çatdıqdan sonra ölkə prezidenti yeni seçkilər təyin edir.**



Türkiyə qanunlarına görə, koalisiya danışıqları alınmadığı təqdirdə keçici hökumət formalaşdırılır və keçici hökumət 3 ayın içində erkən seçkiləri keçirir. Məlumdur ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan erkən seçkiləri noyabrın 1-nə təyin edib, keçmiş baş nazir Əhməd Davudoğluna isə keçici hökuməti təşkil etmək tapşırılıb.

Artıq parlament rəhbərliyi ilə məsləhətləşən baş nazir Davudoğlu keçici hökumət kabinetinin bölüşdürülməsi siyahısını hazırlayıb. Türkiyə mətbuatı yazır ki, qanuna əsasən hazırkı tərkibdə parlamentdə təmsil olunan partiyalar keçici hökumətdə təmsil olunmalıdır. Parlamentin hazırkı tərkibini əsas götürən baş nazir Davudoğlu baş nazir postundan başqa 11 nazir postunu AKP-yə, 5 yeri CHP-yə, MHP və HDP-yə isə hər birinə 3 nazir postu təklif edir.

Bundan başqa, qanuna əsasən seçkinin taleyini əsas həll edən daxili işlər, ədliyyə və nəqliyyat nazirləri postu isə müstəqil şəxslərə veriləcək. Bundan əlavə, keçici hökumətdə baş nazirin 4 müavinindən ikisi AKP-dən, qalan ikisi isə müxalifətdən təyin olunacaq.

Təbii ki, yuxarıda sadalananlar hazırkı Türkiyə qanunvericiliyinin seçkilər və hökumət qurulması ilə bağlı prosedur qaydalardır. Hər nə qədər Türkiyədə avtoritarizm iddiaları olsa da, 13 illik AKP iqtidarı bu qanunlardan kənara çıxmaq və ya onu dəyişdirmək fikrinə düşməyib. Qarşıdakı 3 ay ərzində Türkiyəni parlamentdə təmsil olunan 4 partiyanın namizədlərindən təşkil olunacaq hökumət idarə edəcək. Seçkiləri də bu hökumət keçirəcək.

Türkiyədə seçkilərin nəticələri barədə indidən fərqli proqnozlar, seçim sorğuları hazırlansa da, hələlik heç kim ciddi rəy söyləyə bilmir. Çünki hər nə qədər sorğular mötəbər sayılsa da, son söz Türkiyə vətəndaşının olacaq. İndilikdə isə bir çoxları seçkilərin nəticələrinə əsasən AKP-nin yenidən təkbaşına hökumət quracaq qədər mandat qazanacağını inandırıcı saymır.

Bəzi sorğularda AKP-nin bir neçə faiz səs artırdığı görünsə də, bir çox sorğularda səs itkiləri müşahidə olunur. Bu səbəbdən noyabrın 1-də Türkiyədə hansı ovqatın olacağını indidən demək mümkün deyil. Mümkün olan yeganə hal seçkilərin həqiqi bir yarış olacağı, xalqın iradəsini əks etdirən nəticə ortaya qoyulacağıdır. Bu səbəbdən də erkən seçki olmasına baxmayaraq artıq Türkiyədə seçki həyəcanı başlayıb.

Maraqlıdır ki, Türkiyə ilə eyni gündə Azərbaycanda da parlament seçkiləri keçiriləcək. Azərbaycanda Türkiyədən fərqli olaraq parlament seçkilərinin tarixi hələ ötən ildən bəlli idi. Yəni seçkilər təyin olunmuş vaxtda keçiriləcək. Ancaq Azərbaycanda qanunverici orqana keçiriləcək seçkilərə 2 ay qalmasına baxmayaraq hələ də ölkədə seçki ab-havası yoxdur. Hətta o qədər ki, əksər siyasətçilər və siyasi partiyalar namizədlərini, onların iştirak edəcəkləri dairələri açıqlamayıblar.

Üstəlik, Azərbaycanda hətta siyasətlə maraqlanmayanlar da artıq indidən seçkinin nəticələri haqda ümumi bilgiyə sahibdir. Bu mənada ölkə vətəndaşlarının son dərəcə əhəmiyyətli bir hissəsi seçkilərlə ilgilənmir və ya ən azından ciddi dəyişiklik gözləmir. Ayrı sözə, seçkilər eyni gündə keçirilsə də, iki türk ölkəsində parlament seçkiləri arasında 180 dərəcə fərq var: Türkiyədəki seçkilər Türkiyə dövlətinin taleyinin müəyyən olunmasında rol oynasa da, Azərbaycandakı seçkilərin real siyasi həyata təsiri müqayisəedilməz dərəcədə azdır.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 188 (6216) 27 avqust 2015

## Qərb strateji qaz kəmərlərini nəzarətə götürür

# NATO baş katibinin Gürcüstana ilk rəsmi səfərinin mühüm pərdəarxası

## Rusiyanın bölgədə fəallaşdığı, kəmərlərə terror təhlükəsinin artdığı məqamda Alyans Azərbaycanın "qərb qapısı"ndan potensial təhlükə ünvanlarına mesaj göndərdi...



**Dünən - avqustun 26-da NATO-nun baş katibi Yens Stoltenberqin Gürcüstana iki günlük səfərə gəlib. Alyans rəhbərinin rəsmi görüşləri bu gün - avqustun 27-də başlayacaq. Şimali Atlantika blokunun başçısı səfər proqramı çərçivəsində ölkənin prezidenti, baş naziri, parlamentin spikeri və müdafiə naziri ilə bir araya gələcək. Həmçinin NATO-nun çevik qüvvələri üçün hazırlanan rotanın zabit və əsgər heyəti ilə görüşəcək.**

Ən önəmlisi isə Stoltenberqin Gürcüstanda olduğu müddətdə burada Alyansın təlim mərkəzinin açılmasının nəzərdə tutulmasıdır. Əksər siyasi müşahidəçilərin fikrincə, bununla NATO Güney Qafqaz regionunda rəsmən oturuşması üçün ilk ciddi addımını atmış olacaq. Ardınca isə Gürcüstanın Şimali Atlantika blokuna üzvlüyü tezləşə bilər. Elə NATO baş katibinin müzakirə edəcəyi aktual mövzulardan biri məhz Gürcüstanın alyansa qəbulunun reallaşacağı tarix ətrafında olacaq.

Bölgədə və onun ətrafında gedən proseslər, öncəliklə də Rusiyanın Gürcüstana, Gürcüstan timsalında isə regionun digər ölkələrinə, Azərbaycana qarşı açıq təhdid və şantaj siyasətinə keçməsi, o sırada separatçı Abxaziya və Cənubi Osetiyadakı, Ermənistanda isə Gümrü hərbi bazasından istifadə edərək bölgəni sürətlə hərbiləşdirməsi, nəhayət, Bakı-Tiflis-Supsa neft kəmərinə yaratdığı yeni təhlükələr Güney Qafqaz dövlətlərinin Qərbə əsas qapısı sayılan Gürcüstanın NATO-ya sürəkli üzvlüyünü labüd edir.

Son günlər strateji qaz kəmərlərində (Bakı-Tiflis-Ərzrum) intensivləşən Kremlin barmağının da olduğu istisna edilməyən partlayışlar isə Qərbin əsas hərbi-siyasi qurumu olan NATO-nun bölgəyə daha yaxın məsafədə qərar tutmasını imperativə çevirib. Aydındır ki, NATO de-yure bölgədədirsə, terrorçu qüvvələr özlərini yığışdıracaq, Rusiya özünü daha ehtiyatlı aparmalı olacaq ki, alyansla toqquşmasın.

***

Sirr deyil ki, Rusiya belə partlayışlarda həm də "Türk axını"na rəqib olan TANAP və TAP-ın, (Transxəzər qaz kəmərinin) əngəllənməsi baxımından maraqlıdır. Ona görə ki, belədə kəmərin keçəcəyi ərazilərin təhlükəsiz olmadığı fikri yaranmış olur. Moskvanın bölgəni maksimum dərəcədə hərbiləşdirmək istəyi, Bakı-Supsa kəmərinin bir hissəsini ələ keçirməsi, heç şübhəsiz, həm də bu rəyi gücləndirməyə hesablanıb.

Nəhayət, Rusiyanın, NATO baş katibinin səfəri ərəfəsində, Müdafiə Nazirliyinin dəmiryol qoşunlarının 50 xüsusi texnikası və 500-dən çox hərbçisini Gürcüstanın separatçı Abxaziya bölgəsinə yeritməsi də eyni məqsədə xidmət edir. Xəbər verildiyi kimi, Rusiya müdafiə nazirinin müavini Dmitri Bulqakov qoşunların Abxaziya ərazisindən keçən dəmiryolunun Oçamçir stansiyasından İnquri çayına qədər olan hissəsinin bərpası üçün yeridildiyini açıqlayıb. Rəsmi Tiflis isə baş verənlərdən narahatdır və Rusiyanın davranışlarının 2008-ci ilin avqust müharibəsi ərəfəsini xatırlatdığını bildirir (virtualaz.org).

"Gürcüstan Xarici İşlər Nazirliyi Gürcüstan dəmir yolunun Abxaziya hissəsinin bərpası üçün başladılmış işləri pisləyir və Rusiyadan bu qanunsuz hərəkətlərə son qoymağı tələb edir"- Gürcüstan XİN-in dünən axşam yaydığı bəyanatda bildirilir. Tiflis bunu "Moskvadan növbəti aqressiv və təxribatçı addım" kimi qiymətləndirir, beynəlxalq ictimaiyyəti Gürcüstanın ərazi bütövlüyünə qarşı yönəlmiş bu hərəkətlərə qarşı qəti addımlar atmağa çağırır.

XİN bildirir ki, 2008-ci ilin avqustunda Gürcüstana hərbi müdaxilə ərəfəsində Rusiya Abxaziya regionunda dəmir yolunun bərpasına başlamışdı və bu məqsədlə dəmir yol qoşunlarını yeritmişdi. Bu qoşunlar daha sonra döyüş əməliyyatları zamanı ordu hissələrinin və texnikanın daşınması üçün effektiv şəkildə istifadə olundu.

***

Bu xüsusda NATO baş katibinin Gürcüstan səfəri olduqca yerinə düşür və Rusiyanın aqressivliyini azaltmaq, onun bölgəyə, o cümlədən Azərbaycana yönəlik iştah dişini kütləşdirmək baxımından mühüm önəm daşıyır. Bu səfər şəksiz, ilk növbədə Rusiyaya açıq bir mesaj olacaq ki, Qərb, ən əvvəl də ABŞ artıq uzaqda deyil və Kremlə 2008-ci ildəki kimi bölgədə sərbəst hərəkət imkanı tanımayacaq.

Xatırladaq ki, bu ilin əvvəlində ABŞ Senatının qəbul elədiyi qətnamə ilə Gürcüstan, Ukrayna və Moldova ABŞ-ın NATO-dan kənar hərbi müttəfiqləri elan edilib. Bundan əlavə, sənədə əsasən, Azərbaycanın da öz təhlükəsizliyini təmin eləmək üçün Amerikaya hərbi kömək üçün müraciət edə bilər *(Ermənistana belə bir şans tanınmayıb).*

Bölgə və onun ətrafında gedən son proseslərdən bir daha qənaət hasil olur ki, ABŞ-ın "Stratfor" analitiklərinin də az öncə proqnoz elədikləri kimi, Qərb-Rusiya qarşıdurması Ukraynadan Güney Qafqaza transfer edilməkdədir. Bu isə o anlama gəlir ki, qarşı duran tərəflərin toqquşan enerji və təhlükəsizlik maraqlarının tezliklə daha kəskin xarakter almasının şahidi ola bilərik.

❑ **Siyasət şöbəsi**

---

# Gömrükçü də casus tutursa...



**Xalid KAZIMLI**

**Bir ölkə haqqında ilk əyani təəssürat onun sərhədində yaranır. Uzaq, yaxın ölkələrdən gələn, indiyədək o ölkə haqqında yalnız ağızdan-ağıza eşidən, internet resurslarında məlumat toplayan turist və ya işgüzar şəxs sərhəddə üzləşdiyi ilk rəftardan hansı tipli ölkəyə gəldiyini təxmin edir.**

Azərbaycanın sərhəd qapıları və orada çalışanların mədəni səviyyəsi öyünüləcək halda deyil. Bu, çoxdan məlumdur. Ölkə mediası bu xüsusda çox yazıb. Artıq sərhədçi-gömrükçülərimizin "şöhrəti" çox-çox uzaqlara yayılmaqdadır.

Rusiyalı bloggerin Azərbaycan-Gürcüstan sərhədinin "Sınıq körpü" keçid məntəqəsində başına gələnlər bizim üçün yeni bir xəbər deyil. 7 saatlıq yoxlama nədir ki... Burada yarım sutka ləngiyənlər olub. Son aylarda yüzminlərlə Azərbaycan vətəndaşı o məntəqədən keçib və hər şeyi yerli-yataqlı bilir.

Bu sərhəd-keçid məntəqəsindəki durum, baş verən özbaşınalıqlar, sərhəd keçən insanların əsassız yerə incidilməsi və sair neqativ hallar barədə mediada o qədər çox yazılıb ki, artıq yazanlar usanıblar, amma bir tədbir görən yoxdur.

Bütün şikayətlər, siqnallar sanki kar qayaya deyilir, əks-sədası gəlmir. Elə bil, bu cür də olmalıdır.

Əsl sərhədçi-gömrükçülərin necə olmasına dair beş addım o tərəfdə işləyən gürcülərin işi nümunə göstərilir, müqayisə aparılır, fəqət xeyri yoxdur, bizimkilər heç vəchlə gürcülər kimi işləmək istəmirlər. Qabalıq, ədabazlıq, səlahiyyətdən sui-istifadə halları davam edir.

Rusiyalı bloqqerin açıqlamasında bir ifadə diqqəti cəlb edir: "Sanki burada hamı rəisdir".

Gerçəkdən də elədir. Sərhəd-keçid məntəqəsinin əksər əməkdaşları özlərini hər şeyə qadir rəislər kimi aparırlar, sanki bunlar heç kəsə tabe deyillər, iradələrinin üstündə başqa bir iradə yoxdur və istəsələr istənilən adamı sərhədin içəri və ya dışarı buraxmaya bilərlər.

Bu məntəqə artıq illərdir ki, ölkəmizin üzqarasıdır.

Bir ara Binə aeroportunda da beləydi. Hətta bu məsələ eks-prezident Heydər Əliyevin yanında keçirilən müşavirədə də müzakirə mövzusu oldu. Heç demə, ölkəyə gələnlərin hamısına potensial dollar qaynağı kimi baxan sərhədçi-gömrükçülər bir məşhur yaponiyalı biznesmendən rüşvət tələb ediblər. Həmin şəxsi ölkəmizin iqtisadiyyatına investisiya qoymaq üçün Azərbaycana Heydər Əliyev şəxsən özü, bir müddət əvvəl Davos forumunda olarkən dəvət edibmiş. O da ölkədə üzləşdiyi bu anormal rəftar barədə Əliyevlə görüşündə bəhs edib və görüşdən çıxandan sonra Azərbaycanda hər hansı bir iş görmək fikrindən daşınaraq ölkəsinə qayıdıb. Əliyev bu hadisədən bəhs edərkən həmin adamı "yazıq yapon" adlandırmışdı. Ondan sonra aeroportdakı vəziyyət xeyli nəzarət altına alındı. Yoxsa sıravi bir sərhədçi artıq diplomatik toxunulmazlığı olan ali dərəcəli qonaqları ölkəyə buraxmamaq təşəbbüsü göstərmək üzrə idi.

Ölkəmizin digər sərhəd qapılarında vəziyyət çox da ürəkaçan deyil, ancaq "Sınıq körpü" sərhəd-keçid məntəqəsi ilə müqayisədə onlar toya getməlidir. Ən pisi "Sınıq körpü" məntəqəsidir.

Budur, daha bir "yazıq yapon" roluna rusiyalı bloqqer düşüb. Onun yazdığı şərhdən aydın olur ki, gömrükçülər adamın özüylə ölkəyə "casus avadanlıqları" keçirməsinin qarşısını almaq istəyirmişlər.

Sanki casusluq niyyəti ilə ölkəyə gələn adam həmin avadanlıqları gəlib Bakıdakı mağazalarda tapa bilməz, mütləq özüylə gətirməlidir.

Bu, gömrükçülərin işidirmi? Bundan ötrü MTN kimi qurumlar var və onlar casuslarla işləmək üzrə ixtisaslaşıblar.

Gömrükçülərin bu hərəkəti isə ölkəni İran, Türkmənistan, Şimali Koreya kimi eyzən "casuslardan şübhələnən", "casuslara qarşı ayıq-sayıq mübarizə aparan" ölkələrə döndərir. Bu ölkələrdə də hər bir fotoaparata, videokameraya casus avadanlığı kimi baxırlar.

Bu cür davranışlarla dünyada yaxşı ad qoymaq mümkün deyil. Əcnəbilərlə bu cür rəftar davam etdikcə, nə bu ölkəyə investisiya qoymağa gələn olacaq, nə də turizm məqsədi ilə səfər edən.

YENİ MÜSAVAT
N 188 (6216) 27 avqust 2015



# Bakının dərdi var... yol dərdi - rəsmi açıqlama

## Paytaxtın ikinci dərəcəli küçələri niyə təmir edilmir?

**Birinci Avropa Oyunları ərəfəsində Bakının mərkəzi küçələrində əsaslı təmir işləri aparıldı. Lakin paytaxtın ikinci dərəcəli yollarında vəziyyət yenə bərbad olaraq qalıb.**

Bakıda ikinci dərəcəli yolların təmiri nə üçün aparılmır?

Paytaxtda yolların vəziyyəti barədə musavat.com-a nəqliyyat üzrə ekspert **Ərşad Hüseynov** danışıb. Bildirib ki, tıxacların yaranmasının səbəblərindən biri daxili küçələrin təmirinə olan diqqətsizlikdir: "Bakıda nəqliyyat probleminin kökündə duran ən ciddi məsələ ikinci dərəcəli yolların təmir olunmamasıdır. Dünyanın heç bir şəhərində küçə və prospektləri hissələrə bölmürlər. Bütün küçələr nəqliyyat prosesinə cəlb olunmalı və istifadə edilməlidir. Daxili yolların bərbad şəraitli olması, nəqliyyat yükünü digər küçələrin üzərinə keçirir ki, bu da tıxaclara səbəb olur. Paytaxtda 1000-ə yaxın küçə və prospekt var. Onlardan təxminən yüzü təmirli və işləkdir. Yerdə qalanları isə məcburən "istirahət" edir. Şəhərin İcra Hakimiyyəti, "Azəryolservis" əsasən magistral yolların təmiri ilə məşğul olurlar. Ancaq "ikinci dərəcəli" küçələr kənarda qalıb. Dünyaya nəzər salsaq görərik ki, məsələn, Tokio küçələri yaponların konsepsiyasına görə, riyaziyyat dəftəri kimi olmalıdır. Yəni bütün küçələrdə eyni dərəcədə hərəkət olmalıdır. Bakıda şəhərin qərbi ilə şərqini birləşdirən 4 küçə var. Dünyanın heç bir ölkəsində bu cür hal mövcud deyil ki, bütün yüklər cəmi 4 küçənin üzərinə atılsın. Buna görə də bütün yollar təmir edilməlidir".

**Söylənilən iradlarla bağlı müsavat.com-a "Azəryolservis" ASC-nin mətbuat katibi Anar Nəcəfli danışıb. A.Nəcəflinin sözlərinə görə, Bakıda yolların təmir işləri mütəmadi olaraq davam etdirilir:** "Ölkə başçısının tapşırığına əsasən "Azəryolservis" tərəfindən nəqliyyat vasitələrinin rahat və maneəsiz şəkildə hərəkətini təmin etmək üçün küçə və prospektlərdə kompleks tədbirlər həyata keçirilir. Bu həm daxili, həm də magistral yollara aiddir. Artıq təmirə ehtiyacı olan küçələrin siyahısı tərtib olunub. Siyahıya uyğun olaraq, təmir-tikinti işləri həyata keçirilir. Bunlara misal olaraq Şəfayət Mehdiyev, Yasamal rayon Bəxtiyar Vahabzadə, Əhməd Cəmil, Ceyhun Hacıbəyli, Şəmsi Rəhimov, Sabunçu rayonunda Rüstəm Rüstəmov küçələrini göstərmək olar. Hansı ki, sadaladıqların mərkəzi küçələr deyil və siyahı çox uzundur. Hətta sovet dönəmində belə baxılmayan küçələrimiz var ki, onların təmir işləri həyata keçirilir. Binəqədi rayonunda Ağasadıq Gəraybəyli küçəsini buna misal göstərmək olar".

**A.Nəcəfli avtomobil yollarının təmiri üçün büdcə fonduna ayrılan vəsaitin miqdarını da söyləyib:**

"Hər il bu fonda müəyyən limit üzrə müxtəlif mənbələrdən vəsait daxil olur. Hansı ki, bu vəsait Bakı şəhərinin və respublika yollarının saxlanılması üçün sərf olunur. Bu il fonda 290 milyon manatın daxil olması nəzərdə tutulub. Vəsait daxil olduqca təmir işləri həyata keçirilir".

❑ Əli

**Bu yaxınlarda 6-cı dəfə əməliyyat olunan Qarabağ qazisi Rüxsarə Cumayevanın sevinci çox çəkməyib. Daha çox Tutu ləqəbi ilə tanınan R.Cumayeva sürünərək yeriməkdən qurtulacağını, illər sonra yenidən ayağa qalxacağını ümid etdiyi bir vaxtda müvazinətini itirərək yıxılıb. Nəticədə dəfələrlə əməliyyat edilən sol ayağı protezindən ayrılaraq ciddi fəsadlara səbəb olub.**



# Xanım Qarabağ qazisinin 6-cı əməliyyatı da uğursuz oldu

## Rüxsarə Cumayeva: "İnsanları narahat etməkdən, bu vəziyyətdə yaşamaqdan, bir stəkan su üçün belə başqasına möhtac olmaqdan bezmişəm"

Müharibənin ilk vaxtlarında könüllü olaraq ön cəbhəyə yollanan, döyüşlərdə yüzlərlə yaralı əsgərimizin həyatını xilas edən Qarabağ qazisinin yenidən həyati təhlükə ilə üz-üzə qaldığını eşidincə evinə yollandıq.

Dəmiryol vağzalinin arxasında yerləşən, cəmi 17 kv.metrlik ərazini əhatə edən mənzilinin astanasında bizi qonşuları qarşıladı. Gəlişimizə çox sevinən Tutu xanım bizimlə söhbətdə çətinliklə də olsa simasında təbəssüm yaratmağa çalışırdı. Lakin fiziki və mənəvi ağrıların əzabına dözməyərək, əlləri ilə üzünü tutaraq hönkürdü: "Axı nə qədər olar? 6 dəfə əməliyyat olunub bıçaq altına girmişəm. Əməliyyatların 5-i tamamilə uğursuz olub. Əməliyyatlar üçün həmişə dilənçi kimi pul dilənib insanları narahat etməkdən, bu vəziyyətdə yaşamaqdan, bir stəkan su üçün belə başqasına möhtac olmaqdan bezmişəm. Əvvəllər qızım üçün dayanmağa çalışırdımsa daha bu əzablara dözərək yaşaya bilmirəm. Özümə yalnız ölüm arzulayıram..."

**Onun bu halını görən qonşular hərəsi bir tərəfdən təsəlli verməyə başladı. Tutu xanım bir qədər sakitləşdikdən sonra vəziyyəti barədə danışmağa başladı:** "Sol ayağım sonuncu dəfə 2013-cü ildə Türkiyənin Ankara şəhərində yerləşən xəstəxanada əməliyyat olunmuşdu. Həmin zaman həkimlər mənə bildirmişdilər ki, əməliyyat uğursuz keçib. Bu ilin may ayında isə sağ ayağımdan əməliyyat edildim. Şükür, bu əməliyyatdan çox razıyam. Ümid edirdim ki, illər sonra yenidən ayağa qalxa biləcək, sürünməkdən qurtulacaq, axır ki, qızıma dəstək ola biləcəm. Lakin sevincim uzun çəkmədi. Bugünlərdə bir stəkan su üçün ayağa qalxmağa çalışırdım ki, huşumu itirərək yıxıldım. Nəticədə sol ayağımdakı protez qırıldı və ayağımda fəsadlar yaratdı. Ağrılarım dözülməzdir..."

**Söhbətin bu yerində qazi xanım yenidən hönkürərək ağlayır. Onun ürək parçalayan haraylı sözləri həm bizi, həm də qonşularını sarsıdır:**

"Nədənsə dövlət mənə dəstək olmaq istəmir. Ayda cəmi 50 manat əlilliyim üçün təzminat alıram. Bu pulla nəinki əməliyyat olunmaq, heç yaşamaq da olmur. Uzun illərdir ki, qızımla qonşuların, yaxınlarımın ümidinə qalmışıq. Hər iki ayağım dəfələrlə əməliyyat edilib, yalnız sürünərək harasa gedə bilirəm. 1-ci qrup əllilik almaq üçün sənədlərimi təqdim etdim, məndən buna görə pul istədilər. Məmurları mənim vəziyyətim deyil, yalnız pul maraqlandırır. Onlar anlamaq istəmirlər ki, mən vətən yolunda bu vəziyyətə düşmüşəm, üstəlik, köməksiz bir qadın, övladına heç bir zaman dəstək ola bilməyən çarəsiz anayam".





**Qazi xanım bildirdi ki, həkimlər ona vəziyyətinin ağır olduğunu, təcili əməliyyata ehtiyac olduğunu deyiblər:** "Zəng edib həkimə vəziyyəti anlatmışam. Mənə bildirdi ki, əməliyyat üçün 20 min manat pul lazımdır. Mən bu qədər pulu indi hardan tapım? Yenə də dilənçilik edib pul yığım? İnsanların üzünə baxmağa utanıram artıq... Mən gənclik illərimi meydan hərəkatlarına, ölkəmizin müstəqilliyi uğrunda mübarizəyə, Qarabağ uğrunda gedən döyüşlərə həsr etdim, sağlamlığımı bu yolda qoydum. Lakin nədənsə dövlət mənə sahib çıxmaq istəmir. Heç vaxt dövlətdən nə ev, nə maşın, nə də başqa istəyim olub. Mən bu kiçik mənzilimdə qürurla yaşamağa üstünlük vermişəm. Dövlətdən yalnız bir istəyim var- doğru-dürüst əməliyyat olunmaq, axır ki, ayağa qalxıb, heç kimə möhtac olmamaq, işləyib 14 yaşlı qızıma dəstək olmaq istəyirəm. Bu barədə ölkə rəhbərliyinə də müraciət etmişəm. Mən yalnız yerimək istəyirəm, başqa istəyim yoxdur. Xahiş edirəm, mənə yardım edilsin..."

Rüxsarə Cumayeva Zaqatala rayonunun Bəhmətli kəndində anadan olub. O, uşaqlıq yaşında olanda sol omba nahiyəsindən travma alıb. Bakı Dövlət Universitetinin tələbəsi olan Qarabağ müharibəsi veteranı torpaq uğrunda qızğın savaş getdiyi üçün təhsilini yarımçıq qoyur. O, anadangəlmə şikəst olmasına baxmayaraq *(hər iki bud çanaq oynağının anadangəlmə yüksək çıxıqları və artrozları və ya omba nahiyəsində anadangəlmə travma)*, könüllü şəkildə Zaqatala Hərbi Komissarlığından birbaşa döyüşə yollanıb.

Hələ universitetdə oxuyarkən ali məktəbin nəzdində fəaliyyət göstərən kursda tibbi-praktik biliklərə yiyələnib. Onun tibbi savadı məhz Qarabağ savaşında hərbi tibb bacısı işləməsinə imkan yaradıb. Döyüş anında sağ əlindən və sol ayağından qəlpə yarası alan xanım qazimiz, buna baxmayaraq, hərbidən uzaqlaşmayıb. O, 1994-cü ilin fevral ayına qədər cəbhədə tibb bacısı kimi xidmət edərək yüzlərlə yaralı əsgər və zabitlərimizə vaxtında tibbi yardım göstərərək onların yenidən həyata qayıtmasında mühüm rol oynayıb.

Tutu xanım (R.Cumayeva) 5 dəfə sol, 1 dəfə isə sağ ayağından əməliyyat edilib. Lakin özünün də dediyi kimi, sol ayağında aparılan əməliyyatlar maddi imkansızlıq ucbatından çox uğursuz olub.

Qarabağ qazisinə yardım etmək istəyənlər aşağıdakı telefon nömrələri ilə əlaqə saxlaya bilərlər:

**Mobil: 050 395 67 80**
**Ev: (012) 449 40 26**

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 188 (6216) 27 avqust 2015

## Cəfər Cabbarlı küçəsində "Eldar eloğlu" hekayəsi

# Bakıda insanlıq dramı: "Küçədə ölmək istəmirəm..."

### Doğma dayısı Eldar Məhərrəmovu evinə buraxmır; küçələrdə gecələyən 44 yaşlı kişi "istədim özümü öldürüm, amma körpüyə çıxmağa halım olmadı..." deyir



**Cəmiyyətdə belə bir rəy yaranıb ki, həbsdən çıxan hər kəs cəzasını çəkibsə də, ona insan kimi davranmaq, sahib çıxmaq olmaz. Sanki onlar itirilmiş adamlardır... Bu səbəbdən də paytaxt Bakıda küçəyə atılmış, taleyin ümidinə buraxılmış neçə-neçə insan dramı yaşanır. Parklardakı skamyalar, ağac dibləri, sahibsiz evlər bu insanların məskənlərinə çevrilir. Bu insanlar zaman keçdikcə içki düşkünü olurlar...**

Və bir gün belə bir xəbər oxuyuruq - "Parkda kimliyi məlum olmayan insan cəsədi tapılıb"... Sizə talesiz bir insan haqda, sözün əsl mənasında ac və susuz halda səfalət içərisində yaşayan bir şəxsin dramı haqda danışacağıq.

O, 2 aydan çoxdur ki, parkda, beton piltələrinin altında yaşayır. Küçədən, zibillikdən tapdığı şeylərlə qarnını doydurmağa, ölməməyə çalışır. Onun küçəyə düşməsinin səbəbi isə ailəsidir. Daha dəqiq desək, qohumlarının onun evini zəbt etməsi...

Atası və anasından qalan evi zəbt edən doğma dayısı onu evə yaxın buraxmır. Başqalarının köməkliyi ilə onu döyüb, söyüb küçəyə atıblar. Söhbət Bakı sakini Eldar Məhərrəmovdan gedir.

44 yaşı olan Eldar Məhərrəmov 2007-ci ildə həbs edilib. Ona 8 il iş verilib. Həbsə girməsinin səbəbi mənzil üstündə yaranan mübahisə üzündən uzaq qohumlarından birini bıçaqla vurması olub. Buna görə Eldar 8 il məhbus həyatı yaşayıb. İyunun 27-də isə həbsdən azad edilib.

Eldar həbs edilmədən öncə Bakıda, Nəcəf bəy Vəzirov küçəsində ailəsi ilə birgə yaşayıb. Anası və atası dünyasını dəyişdikdən sonra onun doğma dayısı Eldarı ailəsinin evinə buraxmayıb. E.Məhərrəmovun bacısı da ona sahib çıxmır.

Bütün bunlara görə, Eldar artıq sahibsiz, ac, işsiz, evsiz halda yaşayır. Özünün dediyi kimi, yaşamağa yox, heç olmasa sürünməyə çalışır. Müsahibim hazırda Nəsimi rayonu, Cəfər Cabbarlı küçəsində olan yeni körpünün yaxınlığındakı parkda, beton örtüyün altında gecələyir... C.Cabbarlının "Solğun çiçəklər"i, "Oqtay Eloğlu"su yada düşür... Bu Eldar da eloğludur axı...

***

**Əynindəki paltarları da ona kömək etmək istəyən şəxslər verib. Eldar deyir ki, heç kim ona kömək etmir. Şəxsiyyət vəsiqəsi də yoxdur. Haraya, kimə yaxınlaşırsa, ona dilənçi kimi qəpik verib qovurlar:** "Hazırda "bomj" kimi yaşayıram. Çimə bilmirəm. Yaşayacaq yerim yoxdur. Yeyəcək yeməyim, içməyə suyum yoxdur. Ac qalmaqdan, zibillikdən xarab yeməkləri götürüb yeməkdən mədə ağrısına tutulmuşam. Gecələr ağrıdan yata bilmirəm. Havalar da soyuyub. Bir köynək və şalvardan başqa heç nəyim yoxdur. Şəxsiyyət vəsiqəsi lazımdır. Mən həbsə girəndə sovetin vaxtından qalan pasportlar var idi. İndi isə dəyişilib. Mənə yeni vəsiqə lazımdır, amma ala bilmirəm.





Çünki nə edəcəyimi bilmirəm. Getdiyim yerdən də məni qovurlar. İçki düşkünü də deyiləm".

**Eldar deyir ki, ona sadəcə bir az dəstək və kömək lazımdır. Küçədə ölmək istəmir:** "Belə getsə, ağlamaqdan gözlərim də görməyəcək. Artıq hiss edirəm ki, psixi problemlərim də yaşanır. Burada yatmaq asan deyil. Məni buradan da gəlib qovmaq istəyirlər. Hər şeyim var, amma heç nəyim yoxdur. Qohumlarım var, amma yenə də təkəm. Mən ailəsi olan yetiməm. Həbsdə yatmağım, insan olmamağım anlamına gəlmir axı. Bu qədər şeyə dözmək də olmur... Keçən gün istədim özümü öldürüm. Amma körpüyə çıxmağa halım olmadı. Ac olduğum üçün çox gəzə bilmirəm. Ancaq yaxınlıqda olan taksi sürücülərindən xahiş edə bilirəm. Kimin nəyə gücü çatsa verir, ona da çörək alıram. And olsun Allaha, bayaq zibillikdən xarab olmuş qarpız götürüb yemişəm.

Bezmişəm qardaş, axı mən də insanam. Şəxsiyyət vəsiqəm düzəlsə, bir kömək edən olsa, adam içinə çıxaram. İşləyib, kirayədə qalaram. Əlim, ayağım yerindədir. Sadəcə, sahib çıxanım yoxdur. Məni adam saymırlar".

****

**Redaksiyadan:** Biz bir vətəndaşımızın faciəsini işıqlandırdıq, ictimailəşdirdik. Müxbirimiz onu həyatın dibindən, ölümün ağuşundan alıb, özünə müsahib edib, yeyəcək, geyəcəklərini onunla bölüşüb. Lakin Eldarı belə şeylərlə xilas etmək mümkün deyil. İndi sıra əlaqədar təşkilatlarda və cəmiyyətdədir.

Bizsə, Eldarın taleyini izləyəcəyik, onunla bağlı xəbər verməkdə davam edəcəyik.

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**

# Hakimin bacısından keçmiş əri haqda sensasion ittihamlar

### Röya Adıgözəlova: "Çingiz Xəlilzadə axtarışdadır, amma şəhərdə sərbəst gəzir"

**Ötən saylarımızdan birində "Hakim 9 dil bilən fəlsəfə doktorunun başına oyun açır" sərlövhəli yazı dərc edilib. Fəlsəfə doktoru Çingiz Xəlilzadənin müraciəti əsasından hazırlanan yazıda onun üzləşdiyi olaylardan söhbət açılırdı.**

Yazı dərc olunandan sonra redaksiyamıza gələn Röya Adıgözəlova keçmiş həyat yoldaşı olan Ç.Xəlilzadənin dediklərinə münasibət bildirib.

"Çingiz Xəlilzadə qanuni məhkəmə qərarlarını icra etmədiyi üçün axtarışdadır, amma şəhərdə sərbəst hərəkət edir, mətbuata müsahibələr verir. Polis orqanları onu niyə saxlaya bilmir? Onun bacım İlahə Abbasova barədə dediklərinin heç bir əsası yoxdur, hamısı şər-böhtandır" deyə, Röya Adıgözəlova bildirib.

Onun sözlərinə görə, 2012-ci ildə həyat yoldaşı Çingiz Xəlilzadə ilə rəsmi qaydada ayrılıblar. Həyat yoldaşının laqeydliyi, ailəsinə qayğı göstərməməsi, içki düşkünü olması və narkotik vasitələrdən istifadə etməsi, ən əsası isə yalanlarından xəbərdar olması onu boşanmağa vadar edib. Boşanandan sonra tərəflər arasında yaranmış uçurum daha da dərinləşib: "Birgə nikah dövründə alınan maşın, təmiri başa çatmamış mənzil var idi. Ona dedim ki, evi də, maşını da verirəm sənə, amma bir şərtim var, məni də, uşaqları da görməyəcəksən. O da razılaşdı və dedi ki, mənə heç uşaqlar da lazım deyil, amma qızılları da qaytar. Notariusa gedib maşını etibarnamə ilə ona verdim, qızılları da qaytardım. Hətta anasının oğluma hədiyyə etdiyi xırda üzüyü də qaytardım. Təxminən 2 ay yoxa çıxdı, heç bir ünsiyyətimiz olmadı. Sən demə, həmin müddətdə mənzili satıb, maşını da dostunun adına keçirib, adına olan bütün əmlakları özəlləşdirib, iş üçün biznes ortaqları ilə bağladığı bütün müqavilələri ləğv etdirib. İki aydan sonra üzə çıxıb dedi ki, adımdan hər şeyi çıxarmışam, mənə heç nə edə bilməyəcəksən".

R.Adıgözəlovanın sözlərinə görə, əvvəlcə alimentin azaldılması, birgə nikah dövründə əldə edilmiş əmlak və pul vəsaitinin bölünməsi tələbi ilə məhkəmələrə müraciət olunub. Uzun sürən məhkəmə çəkişmələri isə mətbuat orqanlarına qədər yol açıb və boşanmış ər keçmiş baldızı, Yasamal Rayon Məhkəməsinin hakimi İlahə Abbasovanı məhkəmələrə təzyiq göstərməkdə ittiham edib. Halbuki R.Adıgözəlova məhkəmə proseslərinin əksəriyyətinin Ç.Xəlilzadənin xeyrinə olduğunu vurğulayıb.

**Şikayətçi keçmiş həyat yoldaşının onun bacısına böhtan atdığını deyib:** "Bu adam dələduzdur, onun dediklərinin heç bir əsası yoxdur. Türkiyədə 20 il yaşamağının səbəbi isə buradan qaçmağı olub. İşlədiyi bankın pullarını mənimsəyiblər, buna görə bir neçə nəfər tutulub, qorxub ki, onu da tutarlar və qaçıb gedib. Türkiyədə xırda ticarətlə məşğul olub. Heç vaxt heç bir tədris mərkəzində dərs deməyib, elmi dərəcəsi yoxdur, nəinki 9 dil, heç öz ana dilini yaxşı bilmir. Bu faktlar sənədlərlə təsdiq olunub".

R.Adığözəlovanın sözlərinə görə, məhkəmədə birgə nikah dövründə aldıqları mənzilin satışından əldə olunan vəsaitin bölünməsinə dair mülki işə baxılıb, uşaqlar onunla qaldığı üçün həmin vəsaitin 2/3 hissəsini tələb etsə də, iddiası qismən təmin olunub. Həmin vəsaitin 1/2 hissəsinə, yəni 50 min dollara onun hüququ tanınıb.

R.Adıgözəlova isə deyir ki, əgər bacısının təsiri olmuş olsaydı, heç olmasa qanunda nəzərdə tutulan hüququ təmin edilərdi. Bundan əlavə, birgə nikah dövründə alınmış avtomobillə bağlı məhkəmə çəkişməsi nəticəsində Ç.Xəlilzadə tərəfindən R.Adıgözəlovaya 7 min dollar ödənilməsi ilə bağlı qətnamə çıxarılıb. Şikayətçinin sözlərinə görə, Ç.Xəlilzadə bu məhkəmə qətnaməsini də icra etməkdən yayınır: "Nəsimi Rayon Polis İdarəsinin inzibati binasında rəsmi qeydiyyatdadır. İcraçılardan qaçmaq üçün hər ay başqa-başqa yerlərdə kirayə ev tutur".

**R.Adığözəlova deyir ki, bacısı hakim olsa da bu məhkəmə çəkişmələrinin heç birində onun rolu olmayıb:** "Birgə nikah dövründə onun əldə etdiyi aylıq qazanca istinad edərək iki uşağa 1000 manat aliment tələb etsəm də, məhkəmə hər uşağa 150 manat aliment tutulması ilə bağlı qətnamə çıxardı. Bacım dedi ki, səsini çıxarma, qoy Çingiz əl çəkib getsin. Bacımın qızının toyuna iki gün qalmış bu adam benzin töküb onun bağını yandırıb. FHN də rəy verib. Şübhəli şəxs qismində axtarışdadır, amma yeri bilinmir. Deyir ki, guya mən onu tutdurmaq istəyirəm. O özü məsuliyyət daşıyır, aliment ödəmir, borcu var. 50 min manat evin pulunu verməlidir, amma cəmi 10 min manat verib. Alimenti isə bir ildir ödəmir. Aliment borcu olduğuna görə ölkədən çıxışına da qadağa qoyulub. Özü də bilir ki, qanunun tələblərindən yayına bilməyəcək və bir gün polis orqanları tərəfindən yaxalanacaq. Odur ki, bacım İlahə Abbasovanın adını hallandıraraq öz əməllərinə don geyindirmək niyyətindədir". **Şikayətçi həmçinin Çingiz Xəlilzadənin valideynlik hüququndan məhrum edilməsi ilə bağlı məhkəməyə müraciət etdiyini deyir:** "Bu insan məhkəmənin qanuni qüvvədə olan qərarlarını, o cümlədən aliment öhdəliyini icra etmədiyi üçün barəsində qanunvericilkdə nəzərdə tutulan tədbirlər görülür. Buna hakim İlahə Abbasovanın heç bir təsiri yoxdur, ola da bilməz. Məgər İlahə Abbasova olmasaydı, ona qarşı həmin tədbirlər görülməyəcəkdi? Hər gün yüzlərlə adama qarşı inzibati xəta barədə protokollar tərtib edilir, qanunla nəzərdə tutulan digər tədbirlər tətbiq edilir. Məgər onların hamısı hakimin qohumları olduğu üçün bu tədbirlər görülür? Mən özüm icraçıların işindən narazı olduğum üçün Baş İcra İdarəsi rəisinin qəbulunda oldum. Lakin qətnamələrin icrası hələ də təmin olunmayıb. Polis orqanlarının işindən narazıyam. Çünki axtarışda olan şəxs şəhərdə hərəkət edir, mətbuata müsahibələr verir, amma polis orqanları onu saxlaya bilmir? Bu adam üç instansiya tərəfindən baxılmış və qanuni qüvvəyə minmiş məhkəmə qətnamələrini mübahisələndirir, heç bir sübut təqdim etmədən ağzına gələni danışır, şər-böhtan atır. Bu insan öz uşaqlarına aliment vermədiyi üçün barəsində axtarış elan edilib. Hazırda onun valideynlik hüququndan məhrum edilməsi ilə bağlı məhkəmədə iddia qaldırmışam. Vəkilimə deyir ki, məndən heç nə istəməsin - nə ev pulu, nə aliment, mən də uşaqları görmək istəmirəm. Özü məhkəməni udduğu halda uşaqları gəlib görmür, görmək istəmir. Ona görə də mən onu atalıqdan məhrum edib öz soyadımı verəcəm".

**Şikayətçi sonra KİV-ə müraciət edib:** "Mətbuat orqanlarına demək istəyirəm ki, bundan sonra polis tərəfindən barəsində axtarış elan edilmiş Çingiz Xəlilzadənin müraciət edəcəyi növbəti mətbuat orqanı onun barəsində polisə məlumat vermədiyinə görə qanun qarşısında məsuliyyət daşıyacaq".



❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 188 (6216) 27 avqust 2015

# Xədicə İsmayıl və Tural Mustafayevin yaxınlarının ilginc ifadələri

## Məhkəməsi gedən xanım jurnalistin istintaq materialları “Yeni Müsavat”da...

**Ötən saylarımızda sizi AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılın cinayət işi üzrə istintaq materiallarının bir hissəsini yayımlamışdıq. İlk iki yazı dərc olunandan sonra ictimai sektorda bunu diqqətlə oxuyanlarla yanaşı, narazılıq bildirənlər də oldu. Son olaraq X.İsmayıl məhkəmədən mesaj verərək, bizim yayımladıqlarımızın istintaq materialı olduğunu, gerçək ifadələri özündə əks etdirmədiyini açıqlayıb.**

**Amma “Yeni Müsavat” olaraq bir daha bildiririk ki, biz cəmiyyətin diqqət mərkəzində olan cinayət işləri ilə bağlı eyni mövqeni nümayiş etdirmişik - bu işə aid olan bütün materialları dərc edirik.**

*Bu, qəzetimizin baş yazarı Rauf Arifoğlu üçün də, eks deputat Gülər Əhmədova üçün də, Lotu Quli.... üçün də keçərli olub. Bilirik ki, X.İsmayıl və onun yaxın ətrafını bu materialların yayımı məmnun etmir. Amma biz də peşə kodeksi və jurnalist etikasını nəzərə alıb, həmin materialda özəl və intim həyata aid bütün detalları çıxararaq dərc etməkdə davam edəcəyik. Məhbus jurnalistin işinin “mətbəx mərhələsi” oxucular və geniş ictimaiyyət üçün maraq kəsb etdiyindən detalları nəzərinizə çatdıracağıq.*

### Aynurə İmranova: “Tural həyat yoldaşı və uşaqlarını Bakıya gətirsə də, Xədicənin evinə gəlib-gedirdi...”

Bugünkü yazımızda da iş üzrə ifadə verən bəzi şəxslərin ifadələrinə yer verəcəyik.

**Şahid İmranova Aynurə İmran** qızı iş üzrə verdiyi ifadəsində göstərib ki, bir neçə dəfə “Azad Avropa/Azadlıq Radiosu”nun Bakı bürosunda efirə gedən "İşdən sonra" proqramına dəvət alaraq verilişin qonağı olub, bundan başqa, radio ilə heç bir əməkdaşlığı olmayıb. Radioda məqaləsi efirə getməyib, radiodan ona heç vaxt hər hansı məbləğdə pul vəsaiti ödənilməyib. "Azad Avropa/Azadlıq Radiosu" Azərbaycan nümayəndəliyinin Bakı bürosunun fəaliyyətinə hər hansı bir şəkildə cəlb edilməsi barədə heç vaxt təklif almayıb. X.İsmayılovanı bir neçə ildir ki, tanıyır, radionun Bakı bürosunun rəhbəri olduğu üçün, büroya işçilərin qəbul olunması onun səlahiyyətlərinə aid olduğundan əmək müqaviləsi ilə büroda jurnalist kimi işləmək məqsədi ilə ona müraciət edib. İlk yaxın tanışlığı da oradan başlayıb. Lakin X.İsmayılova onun radioda günəmuzd işləməsinə müsbət cavab verməyib, xidmət müqaviləsi əsasında öz VÖEN-i ilə işləməyi təklif edib, buna isə özü razı olmayıb. Sonralar bir neçə dəfə Xədicə onu özünün radioda apardığı verilişlərə dəvət edib və bunlardan sonra Xədicə İsmayılova ilə yaxın münasibətləri yaranıb. Təxminən bir il əvvəl münasibətlərində soyuqluq yarandığından elə bir ciddi əlaqələri qalmayıb. 2013-cü ilin noyabr ayında araşdırmaçı jurnalistlərin bacarıqlarını inkişaf etdirmək barədə layihə hazırlamış, elan olunmuş mövzular arasında araşdırmaçı jurnalistlərlə bağlı mövzunu seçmiş və layihəni hazırlamağa başlayandan sonra həmin layihədə Xədicə İsmayılova ödənişsiz əsaslarla işləyən əsas trener kimi, Şahvələd Çobanoğlu isə təşkilatın nümayəndəsi kimi göstərilib. X.İsmayılova araşdırmaçı jurnalist olduğuna görə onun adının layihədə olması araşdırmaçı jurnalistlər tərəfindən ciddi qəbul olunacaq. Ona görə də Xədicənin özündən onun adının layihəyə salınmasını xahiş edib və o razılaşıb. Layihə hazır olandan sonra ingilis dilinə tərcüməsi X.İsmayılova tərəfindən edilib.

A.İmranova istintaqa bildirib ki, X.İsmayılova ilə Turalın münasibətlərinin 09 mart 2014-cü ildən rəfiqəsi Rövşanə Rəhimova ilə tanış olandan sonra pozulduğunu və həmin gün Xədicənin evlərində Turalla mübahisə edərək onu evdən qovduğunu eşidib. X.İsmayılova ilə T.Mustafayevin həqiqətən də intim münasibətlərdə olduqlarını bilir. R.Rəhimovanı 2011-ci ildən tanıyır, onu tanıdığı vaxtdan Rövşanənin "Gənclik" metro stansiyasının yaxınlığında yerləşən hüquq firmasında işlədiyini bilib. Rövşanənin birgə yaşadığı anası ilə şəxsi tanışlığı isə 2014-cü ilin may-iyun aylarında olub.

T.Mustafayevi isə 2013-cü ilin sentyabr ayında AzadlıqRadiosunun Göyçay rayonu üzrə müxbiri kimi tanıyıb. Turalla onu X.İsmayılova tanış edib. 2013-cü ilin noyabr ayının əvvəllərində T.Mustafayevlə birlikdə X.İsmayılovanın "Kaspian Plaza"da keçirdiyi təlimlərdə iştirak edib. Turalın AzadlıqRadiosundan işdən çıxmasının səbəblərini dəqiqliklə bilmir, Turalın Xədicə ilə dostluq münasibətləri, sonuncunun anasının evinə gəlib-getməsi 2014-cü ilin mart ayına kimi davam edib. 2014-cü ilin əvvəllərində Tural öz həyat yoldaşını və uşaqlarını da Bakı şəhərinə gətirib kirayə ev tutub, bununla belə, yenə Xədicə İsmayılovanın evinə gedib-gəlməyi davam edib.

### “Səsli mesaja qəsdən Xədicənin yanında qulaq asdım ki...”

2014-cü ilin mart ayının 8-də X.İsmayılova və sonuncunun dostları Arzu, Fəricanla birlikdə "Status" kafesində oturarkən, Xədicə onun rəfiqəsi Rövşanə ilə görüşməli olduğunu bilib, sonuncunu da kafeyə dəvət etməyi xahiş edib. Bundan sonra Rövşanəyə zəng edib onu kafeyə dəvət edib. Sonuncu kafeyə gələrək onlarla birgə gecə saat 23-24 radələrinə kimi məclisdə oturub. T.Mustafayev də Xədicəyə zəng vurub onun harada olmasını soruşandan sonra kafeyə gəlib. T.Mustafayev də dəfələrlə Rövşanəni rəqsə dəvət edərək onunla oynayırdı. Hamı ayağa durub evə getmək üçün bayıra çıxandan sonra Xədicə və Fəricanla birgə taksiyə oturan vaxt Turalı da maşına dəvət edəndə, sonuncu Rövşanəni yola salacağını deyib onlarla getməyib. Rövşanə və Tural kafedən çıxıb piyada gediblər. Xədicəgilin evinə çatandan sonra gecə Rövşanə ona səsli mesaj yazıb, Turalın ona öz ailəsindən danışdığını, bədbəxt olduğunu və ondan xoşu gəldiyini dediyini bildirib. Rövşanənin danışığından onun Turaldan xoşu gəldiyini hiss edib. Evdə olduğu zaman Rövşanənin səsli mesajına qulaq asanda Xədicə də bunu eşidib. Daha doğrusu, o, özü qəsdən səsli mesaja Xədicənin yanında qulaq asıb ki, sonuncu Turalın necə adam olmasını bilsin. Xədicə Rövşanənin mesajına qulaq asandan sonra bir söz deməyib, yalnız gülümsəyib. Səhərisi gün 09 mart 2015-ci il tarixdə Rövşanə ilə birlikdə Novxanı qəsəbəsində keçirilən təlimə gediblər. Orada Rövşanənin Turalla mesajlaşmasını müşahidə ediblər. Tədbir qurtarandan sonra saat 18 radələrində Xədicə İsmayılova ilə danışanda sonuncu Turalın onun yanında olduğunu bildirib. Bunu biləndən sonra, yanında olan Rövşanəyə müraciət edərək "Tural sənə deyir hardayam?", deyə soruşub, sonuncu da Turalın Əhmədlidə, dayısıgildə olduğunu dediyini bildirib. A.İmranova isə Rövşanəyə "yalan deyir, Xədicəgildədir" deyib. Rövşanə bundan pis olaraq Turala nəsə yazıb. Daha sonra Rövşanəyə hətta Turalın Xədicə ilə münasibətlərinin olduğunu da deyib.



09 mart 2014- cü ildə Xədicənin Turalı evdən qovmasını bilir, ancaq bu barədə tam məlumatı yoxdur. 2014-cü ilin may ayında Turalla Rövşanə nişanlanıblar. Nişandan sonra onlarla elə də yaxın əlaqələri olmayıb. 2014-cü ilin sentyabr ayında isə onların ikisini də bir yerdə görmüş, Qurban bayramında hər ikisi ona qurban payı gətiriblər. Turalın özünü öldürmək istəməsini isə həmin gün Rövşanənin zəngindən sonra eşidib.

### Jurnalisti tutduran gəncin atasından ilginc ifadə: “AzadlıqRadiosunda işləyənə qədər içki içmirdi, namaz qılırdı...”

**Zərərçəkmiş şəxs Tural Mustafayevin atası Mustafayev Bulut Bahadur oğlu** şahid ifadəsində bildirib ki, ailəsi ilə birgə Göyçay şəhərində yaşayır, Mustafayev Tural Bulut oğlu onun yeganə övladıdır. Tural 2000-ci ildə Göyçay şəhər Rəsul Rza adına 1 saylı tam orta məktəbi demək olar ki, əla qiymətlərlə bitirib, məktəbə 6 yaşında gedib, oxuduğu dövrdə müəllimlərinin sevimlisi olub. Onun sağlamlığı, psixoloji durumu ilə bağlı heç bir problemi olmayıb, ağıllı, sakit uşaq olub. Tural orta məktəbi bitirəndən sonra Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən keçirilən test imtahanlarını verərək "Təfəkkür" Universitetinin filologiya fakültəsinin jurnalistika bölməsinə qəbul olunub, 2007-ci ildə diplomu alandan sonra Göyçay şəhərinə gəlib, ANS televiziyasında müsabiqə elan olunduğunu eşidib anket məlumatlarını həmin televiziyanın saytına göndərib. Bir müddət sonra Tural ANS-in Şirvan bölgəsi, o cümlədən Göyçay rayonu üzrə bölgə müxbiri kimi işə qəbul olunub.. Təxminən bir il işlədikdən sonra ona məlum olmayan səbəbdən Tural ANS-dən çıxıb, bir müddət Şəki şəhərində yerləşən televiziyanın Şirvan bölgəsinin müxbiri vəzifəsində işləyib. Şəki televiziyasında bir neçə ay işləyib, oradan təxminən 2013-cü ilin fevral-mart aylarında AzadlıqRadiosuna işə qəbul olunub. Həmin radioya necə qəbul olunduğunu dəqiq bilmir, Tural AzadlıqRadiosuna işə qəbul olunduqdan sonra Bakı şəhərinə gedərək orada işləməyə başlayıb. Hərdən radionun işləri ilə bağlı rayona da gəlib- gedib.

Atasının dediyinə görə Tural söhbətlərində X.İsmayılova ilə bir yerdə işlədiklərini, münasibətlərinin yaxşı olduğunu, onun çox nüfuzlu adam olduğunu, işlərində ona kömək etdiyini deyib. Həmçinin Turalın söhbətlərindən onu da bilib ki, X.İsmayılova əvvəllər AzadlıqRadiosunun Azərbaycanda rəhbəri olub, sonra özü həmin işdən çıxıb elə həmin radioda jurnalist kimi fəaliyyət göstərir, lakin faktiki olaraq qeyri-rəsmi həmin radionun Azərbaycan bölməsinin rəhbəridir, heç bir məsələ Xədicənin razılığı olmadan həll olunmur, hamı onu eşidir, xarici qeyri-dövlət təşkilatları ilə də əlaqələri genişdir. Radioda işlədiyi müddətdə Tural Bakı şəhərində kirayədə yaşayıb. Arvadı Şəfa və uşaqları isə Göyçayda qalıblar. Söhbət zamanı gəlini Şəfa Turalın Bakıda kimlərəsə qoşulduğunu, onun günü-gündən dəyişdiyini, uşaqlarından, ondan soyuduğunu, ona görə də ailəni qoruyub saxlamaq xatirinə Bakıya, Turalın yanına getmək istədiyini bildirib. Daha sonra da Bakıya gedib. Lakin təxminən 2013-cü ilin noyabr ayında Tural AzadlıqRadiosundan öz ərizəsi ilə işdən çıxıb. Atası bildirib ki, Tural işdən çıxmasının səbəbi kimi X.İsmayılova ilə aralarında yaranan narazılığı göstərib. Narazılığın səbəbini soruşsa da bu barədə bir söz deməyib. Tural, sadəcə, olaraq onu bildirib ki, X.İsmayılova ilə aralarında narazılıq olub, onsuz da Xədicə onu orada işləməyə qoymayacaq, ona görə də radiodakı işindən uzaqlaşıb.

Təxminən 2014-cü ilin yanvar ayının əvvəllərində Tural Xədicə ilə münasibətlərinin yenidən düzəldiyini və onun köməkliyi ilə "Meydan" televiziyasına işə düzəldiyini bildirib. Söhbətlərin birində “Meydan TV”nin rəhbəri Emin Millinin Almaniyada yaşadığını, X.İsmayılova ilə münasibətlərinin çox yaxın olduğunu, dost olduqlarını deyib. Gəlini Şəfa da təxminən 2014-cü ilin əvvəllərində uşaqları ilə birlikdə Bakıya gəlib. Bakıda yaşadıqları dövrdə Turalla gəlinin arasında elə bir ciddi narazılıq olmasını eşitməyib. Ancaq Şəfa həmin dövrdə Turalın spirtli içki içməsini, evə gec gəlməsini, bəzən isə ümumiyyətlə gəlməməsini, tamam dəyişdiyini bildirib. Oğlu Tural əvvəllər namaz qılıb, spirtli içki içmədiyindən, birdən-birə içki içməsini başa düşə bilməyib, özündən soruşanda Tural bunları boynuna almayıb.

Atası deyib ki, Tural AzadlıqRadiosuna işə girdiyi dövrdən namazdan uzaqlaşıb, Bakıya gedəndən sonra tamam dəyişib. 2014-cü ilin mart ayında Tural "Meydan-TV"dən də işdən çıxıb, "Meydan TV"dən işdən çıxarılandan sonra iş yeri tapa bilməyib və maddi cəhətdən çox çətinlik çəkib. Ondan "bəs səni Xədicə işə düzəldib, nə üçün işdən çıxarıblar? Deyirdin Xədicə belə güclü adamdır", - deyərək soruşanda Tural Xədicə ilə münasibətlərin pozulduğunu və işdən də elə bu səbəbə görə çıxarıldığını bildirib. Ona “əgər belədirsə onda başqa yerdə işə düzəl” deyəndə Tural bildirib ki, o, müxtəlif yerlərə işə düzəlməyə çalışır, lakin bir problem var ki, onun ixtisası jurnalistdir, bunu uşaqlıqdan arzu edib və jurnalist kimi fəaliyyət göstərmək istəyir. Lakin onun X.İsmayılova ilə yaxın münasibətdə olmasını hamı bilir, müraciət etdiyi media təşkilatlarında Xədicəni hamı tanıyır və həmin təşkilatların rəhbərləri Xədicə İsmayılovaya münasibətdə ayrı-ayrı mövqelərdə olsalar da, bir hissəsi ona görə, yəni Turala görə Xədicə İsmayılova ilə münasibətlərini pozmaq istəmir. Digərləri isə onu Xədicə İsmayılova ilə eyni mövqedən reportajları hazırlayan adam kimi qəbul edir və hər iki səbəbə görə işə götürmək istəmirlər.

### İntihardan sonra Tural Mustafayev Maştağadakı ruhi dispanserə göndərilib

Atasının dediyinə görə, Turalın X.İsmaylova ilə münasibətlərinin pozulmasına səbəb oğlunun Rövşanə adlı qızla tanış olması və X.İsmayılovanın onu qısqanması olub. Qısqanclıq zəminində də X.İsmayılova onun işə düzəlməsinə maneələr törədib, tanışlarının arasında Turalı mənfi xarakterizə edərək, barəsində böhtan xarakterli şayiələr yayıb, hətta onu homoseksual kimi qələmə verməyə çalışıb. Təxminən 2014-cü ilin aprel ayında Tural anasına Rövşanə adlı bir qızı sevdiyini və onunla ailə qurmaq istədiyini deyib, ərizə yazaraq arvadından boşanıb. 20 oktyabr 2014-cü il tarixdə Turalın intihar etmə cəhdindən sonra ona məlum olub ki, Tural bu qərarı qəbul etməzdən əvvəl X.İsmayılova ilə görüşüb, ondan əl çəkməsi ilə bağlı söhbət etmək istəsə də, X.İsmayılova onu eşitmək istəməyib, yenidən təhqir edərək görüşməkdən imtina edib. Bundan sonra Tural bütün ümidlərini itirib, çıxış yolu görməyib intihar etmək qərarına gəlib.

İntiharın səhərisi gün Tural xəstəxanadan özü çıxıb zəng edərək artıq yaxşı olduğunu bildirib və Göyçaya gəlib. Rayona evə gələndən sonra onu tanış psixiatr həkimə aparıb, həkim vəziyyətini nəzərə alıb bir qədər kənar təsirlərdən aralanmaq və sakitləşmək üçün Maştağa qəsəbəsində olan ruhi əsəb dispanserinə göndəriş verib. Atası Turaldan intihar etməsinin səbəbini soruşanda Xədicənin təhdidlərindən, işsiz qalmasından, işə düzəlməyə imkan verməməsindən yorulduğunu deyib, X.İsmayılova ilə danışmaq və ondan əl çəkməsi ilə bağlı söhbət etmək qərarına gəldiyini bildirib, lakin sonuncu onunla görüşmək əvəzinə ağır sözlərlə, daha da pis vəziyyətlərə düşəcəyini deyib onunla görüşüb söhbət etməkdən imtina etdiyini söyləyib.

❑ YM

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Qərblə Rusiya arasında iqtisadi (valyuta) müharibənin genişlənməsi sövq-təbii olaraq postsovet məkanındakı etnik-ərazi münaqişələrinin həll prosesinə də neqativ təsirini göstərməkdədir. Konkret olaraq Dağlıq Qarabağ ixtilafının nizamlanmasına gəlincə, onsuz da ABŞ və Rusiya ATƏT-in Minsk Qrupunun iki əsas həmsədr dövləti kimi üçüncü on ildir birgə fəaliyyətlə hansısa pozitiv irəliləyişə nail ola bilməmişdi, hazırkı gərgin, kritik münasibətlər fonunda isə bunu gözləməyə, ümumiyyətlə, dəymir.**





# Bakı Minsk Qrupundan əlini üzüb, amma...

## Sülh prosesinin əsas tormozlayıcısı olan Rusiya böhrana yuvarlansa da, Azərbaycan da daxil, həmsərhəd ölkələri hədələməkdə davam edir; **rusiyalı politoloq:** “Rusiya böhrandan çıxsa, Ermənistan da çıxacaq...”

***

“Biz Minsk Qrupundan narazıyıq. Qrupun fəaliyyətindən o zaman razı olardıq ki, Ermənistan silahlı qüvvələri işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılsın”. Bu sözləri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Avropa Şurası Parlament Assambleyasının (AŞPA) “Azərbaycanın sərhəd rayonlarının əhalisinin sudan məhrum edilməsi” mövzusunda məruzəçisi Militsa Markoviçin başçılıq etdiyi nümayəndə heyətini Bakıda qəbul edərkən deyib.

Münaqişənin həlli prosesi haqqında da məlumat verən Məmmədyarov ümidvar olduğunu bildirib ki, hesabat hazır olandan sonra AŞ PA üzvləri və geniş beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycana qarşı təcavüzünün humanitar fəsadlarından olan Azərbaycan əhalisinin üzləşdiyi su problemi ilə də yaxından tanışlıq imkanı əldə edəcək.

Bu o anlama gəlir ki, Azərbaycan torpaqlarının erməni işğalı altında qalması hələ bir müddət də davam edəcək. Adekvat surətdə yeni müharibə ehtimalı da öz aktuallığını saxlayacaq və atəşkəsin istənilən an pozulma riskləri artacaq. Sözsüz ki, rəsmi Bakı bunun fərqindədir. Onun da fərqindədir ki, həmsədr dövlətlər - Rusiya və ABŞ, Fransa timsalında Qərb işğalçı Ermənistana ənənəvi münasibətlərini dəyişməyə hazırlaşmır, o ki ola İrəvana, Dağlıq Qarabağdakı separatçı rejimə qarşı hansısa sanksiyalar tətbiq edə.

Məhz bu dəyişməz yanaşma fonunda da Azərbaycan və Ermənistan prezidentlərinin növbəti, Nyu-York görüşü planlaşdırılır. Ənənəvi sual ortaya çıxır ki, işğala məruz qalan tərəflə işğalçıya eyni gözlə baxılmaqda davam edəcəksə, “quş qoymaq üçün” daha bir yüksək səviyyəli görüşə nə ehtiyac?

Sözsüz ki, dünya birliyi, ələlxüsus da Qərb Rusiya kimi işğalçı Ermənistanla da sərt davranmayınca işğalçı qüvvələr azğınlıqlarını davam etdirəcək, bu işğalın daha bir nəticəsi kimi Azərbaycana qarşı humanitar cinayətlərə ara verməyəcək. Hərçənd təcavüzkar Ermənistanın özünün iqtisadi, humanitar durumu ağırdır, çünki bir yandan, Azərbaycan və Türkiyənin yaratdığı izolyasiya, digər yandan isə satellit Ermənistanın sıx bağlı olduğu Rusiyanın yaşadığı dərin maliyyə böhranı təcavüzkar ölkəni də gündən-günə bir az daha ağır duruma salır.

Ermənistan indi heç vaxt olmadığı qədər Rusiyanın girovuna çevrilib və qorxusundan nə öz ağasından imtina edə bilir, nə də Moskvanın hesabına dirçələ. Moskva isə öz növbəsində nə qədər ağır dönəm yaşasa da, öz forpostundan imtina eləməyi ağlından belə keçirmir. Eyni zamanda öz müti müttəfiqini Kremlə yaxın ekspertlərin dili ilə vaxtaşırı hədələyir, İrəvana fürsətdən yararlanıb Qərbə tərəf gedəcəyi təqdirdə daha acınacaqlı aqibət vəd edir.

***

“Avrasiya İqtisadi Birliyi Nuhun gəmisidir, kim bu gəmiyə minsə, mövcudluğunu davam etdirəcək, kim minməsə - hətta Rusiyada davam edən dərin iqtisadi böhrana və rusiyalı iqtisadçıların dediyi kimi, birliyin vahid bazarının hələlik işləməməsinə, bəzi proqramlarla bağlı müəyyən pauzanın yaranmasına baxmayaraq, Yer üzündən silinəcək”.

Musavat.com-un məlumatına görə, bu barədə rusiyalı politoloq, “Beynəlxalq Avrasiya Hərəkatı”nın lideri, Kremlin “danışan dilləri”ndən sayılan **Aleksandr Duqin** erməni portalına müsahibəsində deyib. Onun iddiasına görə, Rusiyadakı iqtisadi böhran konkret olaraq Rusiya ilə bağlı deyil. “Bütün dünya maliyyə böhranı qarşısındadır. Çünki bütün dövlətlər ABŞ-ın yaratdığı maliyyə-iqtisadi sistemdən asılıdır. Ancaq günün birində bunların hamısı bitəcək, hərçənd ona kimi domino effekti üzrə ölkələrin hamısının iqtisadiyyatı ziyan çəkəcək” - deyib Duqin.

**Duqin daha sonra konkret ünvanlar göstərərək, ənənəvi hədələyici tonda bildirib:** “Belə qlobal hadisələr fonunda söyləmək ki, Avrasiya İqtisadi Birliyinin maliyyə sistemi yaxşı işləmir - bu, xırda şeydir, nədən ki, öz-özlüyündə Rusiyanın fond bazarı bu masştablarla müqayisədə, hətta inkişaf eləməkdə olan Sakit Okean ölkələri ilə müqayisədə çox kiçikdir. Ermənistanın iqtisadiyyatı Rusiya ilə müqayisədə demək olar, heç nədir və bütünlüklə Rusiyadan asılıdır. Rusiyanın özü iqtisadi cəhətdən böyük dövlət deyil, ancaq bizim başqa yaxşı şeylərimiz var - nüvə silahı, təbii resurslar, böyük ərazi, hərçənd onlar maliyyə anlamı daşımır”.

**Duqinin sözlərinə görə, Rusiya böhrandan çıxa bilsə, Ermənistan da çıxacaq.** “Amma bu, asan olmayacaq və əgər belə ağır vəziyyətdə Ermənistan Qərbdən dəstək almağa çalışsa, o dəqiqə param-parça olacaq və Ermənistandan heç nə qalmayacaq. Bu gün Ermənistan Rusiyadan bərk-bərk yapışmalı, ağır maliyyə-iqtisadi situasiyanı sakitcə izləməlidir” - əlavə edib rusiyalı politoloq.

***

Rusiyalı politoloqun hədələri onun “Nuhun gəmisi” adlandırdığı Avrasiya Birliyinə qoşulmaqdan hələ ki imtina edən Azərbaycana da aiddir. Məqsəd aydındır: Kreml özü ilə birgə hamını xilas yox, fəlakətə aparmaq istəyir. Yəni bu, Nuhun “xilas gəmisi” yox, əslinə qalsa, Rusiyanın fəlakət gəmisidir və ona heç bir halda, hətta Qarabağla bağlı hər hansı şirnikləndirici təklifin qarşılığında da minmək olmaz.

Ümid edək ki, Rusiya bir daha dirçəlməyəcək, düşdüyü indiki dərin bataqlıqdan çıxa bilməyəcək və işğalçı Ermənistanı da, Dağlıq Qarabağdakı separatçı rejimi də özü ilə bərabər bataqlığın dibinə dartıb aparacaq.

## “Qırmızı Xaç” əməkdaşları kəlbəcərli girovlarla görüşüb

**Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) əməkdaşları Kəlbəcərdə ermənilər tərəfindən girov götürülən azərbaycanlılara baş çəkiblər. BQXK-nın Azərbaycan nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova bildirib ki, başçəkmə avqustun 20-də baş tutub.**

Qurumun nümayəndələri Dağlıq Qarabağda saxlanılan azərbaycanlılara ailə məlumatlarını çatdırıb, onlardan da ailələri üçün məlumat alınıb. İ. Hüseynovanın sözlərinə görə, BXQK mandatına uyğun olaraq, saxlanılan şəxslərə ona görə baş çəkir ki, saxlanma şəraitini və onlarla davranışı monitorinq etsin və bu insanların ailələri ilə əlaqə saxlamasına yardımçı olsun.

Xatırladaq ki, ötən ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan Silahlı Qüvvələri tərəfindən girov götürülüblər, Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. H. Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib.



İşğal altındakı Dağlıq Qarabağda D. Əsgərov və Ş. Quliyev üzərində qanunsuz “məhkəmə” qurulub. “Məhkəmə”nin qərarı ilə D. Əsgərov ömürlük, Ş. Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilmə cəzasına məhkum olunub.



## Bakıda faciə: rəisin anası və qardaşı qəzada öldü

**21 saylı Region üzrə Dövlət Əmək Müfəttişliyinin rəisi Xəqani Səfərovun qardaşı və anası yol qəzasında ölüb. Axar.az "Report"a istinadən xəbər verir ki, ağır bədən xəsarətləri alan Bulud Səfərov və Xatın Səfərova xəstəxanaya yerləşdirilsə də, onların həyatını xilas etmək mümkün olmayıb. Faktla bağlı araşdırma aparılır.**



## Bakıda şirkətdən yarım milyon dollar oğurlayan şəxs tutuldu

**Bakıda şirkətdən yarım milyon dollara yaxın pul oğurlayan şəxs tutulub. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, Baş Cinayət-Axtarış İdarəsi, Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət-Axtarış İdarəsi və Binəqədi Rayon Polis İdarəsinin 5-ci polis bölməsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində avqustun 1-də "Renessans-İnşaat" MTK-nın ofisindən içərisində 450 000 ABŞ dolları olan seyfi oğurlayan Bakı şəhər sakini, əvvəllər məhkum olunan Ə.Əhmədov tutulub, digər bir nəfərin isə şəxsiyyəti müəyyən edilib.**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## "Azərişıq" abonentlərə xəbərdarlıq etdi

**"Azərişıq" ASC-nin fəaliyyəti dövründə debitor borcu yaranmış abonentlərin elektrik enerjisi təchizatı avqustun 28-də, saat 12:00-dan etibarən müvafiq qanunvericiliyə uyğun qeyd-şərtsiz və fərdi qaydada dayandırılacaq.**

"Azərişıq" ASC-dən "APA-Economics"ə verilən məlumata görə, elektrik enerjisindən istifadə ilə bağlı yaranmış borca görə enerji təchizatı dayandırılmış abonentlərin "Borc Ödənilmədən Şəbəkəyə Özbaşına Qoşulma"sı elektrik enerjisinin talanması və elektrik enerjisindən qanunsuz istifadə sayıldığından, belə hallara yol vermiş şəxslərin Azərbaycan qanunvericiliyinə uyğun "Azərişıq" ASC tərəfindən ciddi tədbirlər görüləcək.

Elektrik enerjisi təchizatı ilə bağlı abonentlərin hər hansı problem yaşamamaları üçün istifadə olunmuş elektrik enerjisi haqlarının dərhal ödənilməsi xahiş olunur. Borclular arasında "Azərsu" ASC-də var.



## Suriyada döyüşlərdə iştirak etmiş Azərbaycan vətəndaşlarına hökm oxunub

**Bakı Ağır Cinayətlər Məhkəməsində Suriyada döyüşlərdə iştirak etməkdə təqsirləndirilən Bəxtiyar Şahbazi, onun oğlu Bəhruz Şahbazi və Sadiq Məmmədzadənin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

APA-nın məlumatına görə, məhkəmənin hökmü ilə Bəxtiyar Şahbazi 14 il, Bəhruz Şahbazi 12 il, Sadiq Məmmədzadə 14 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, təqsirləndirilən şəxslər Cinayət Məcəlləsinin 279.1-ci (Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə), 28, 283-1.3-cü və 283-1.3-cü (Azərbaycan Respublikası vətəndaşlarını və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsləri dini məhzəbləri yaymaq, dini ayinlərin icrası adı altında, yaxud dini düşmənçilik zəminində Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb etmə, yaxud bu məqsədlə döyüş təlimləri keçmə, yaxud həmin məqsədlə fəaliyyət göstərən sabit qrup yaratma və ya belə qrupa rəhbərlik etmə, eləcə də həmin qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə, yaxud bu ağır cinayətlərə hazırlıq) maddələri ilə ittiham ediliblər.

İttihama görə, onlar Suriyada Azərbaycan Respublikasının qanunvericilikləri ilə nəzərdə tutulmayan qanunsuz silahlı birləşmələrin tərkibində radikal dini və hərbi təlimlər keçiblər, müxtəlif növ odlu silahdan istifadə qaydalarını öyrəniblər və döyüşlərdə iştirak ediblər.

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

## Bakıda saxta məktəbli formalarının istehsalı və satışının qarşısı alınıb




**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidməti tərəfindən Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov ŞTQ, M.Vəkilov küçəsi, ev 2 "B" ünvanında fəaliyyət göstərən fiziki şəxs Abbasova İradə Əli qızına məxsus tikiş sexində aparılmış dövlət nəzarəti barədə bir neçə gün bundan qabaq məlumat verilib.**

Komitənin mətbuat xidmətindən "APA-Economics"ə verilən xəbərə görə, məlumatda müəssisədə "Uluxanlı" nişanı ilə istehsal olunan geyimlərin təhlükəsizliyi, keyfiyyəti təsdiq edən sənədlər olmadan satışa çıxarıldığı, istehsalın texnoloji təlimat olmadan həyata keçirildiyi, istismar olunan ölçmə vasitələrinin müqayisəli dövlət yoxlamasından keçmədiyi qeyd olunub.

Aparılmış araşdırmalar zamanı fiziki şəxs Abbasova İradə Əli qızına məxsus tikiş sexində başqasının əmtəə nişanından qeyri-qanuni istifadə edərək xeyli miqdarda məhsul istehsal olunması da müəyyən edilib. Belə ki, müəssisədə üzərində "Bakı Tikiş Evi" ASC-yə məxsus "BTE" əmtəə nişanı olan düymələr, etiketlər və hazır məhsullar aşkar olunub.

Bütün bunlarla əlaqədar fiziki şəxs Abbasova İradə Əli qızına məxsus tikiş sexində məktəbli formasının istehsalı və satışı qadağan edilib, İnzibati Xətalar Məcəlləsinə uyğun protokol tərtib edilərək müəssisə rəhbəri cərimələnib.

Qanunvericiliyə əsasən, məktəbli formaları Azərbaycan Respublikasında qüvvədə olan dövlətlərarası standart (QOST 25294-2003 "Məktəb yaşlı oğlan və qızlar üçün üst geyimləri" standartı) əsasında müəssisələr tərəfindən hazırlanmış və dövlət qeydiyyatına alınmış texniki şərtlərin tələbləri əsasında istehsal edilir. Texniki şərtlərdə məhsulun keyfiyyətinə olan məcburi tələblər, şagirdlər üçün dəstlərin xarici görünüşü və modelin təsviri əks olunmalıdır.

Məhsulların laboratoriya sınaqları aparıldıqdan sonra normativ sənədlərin tələblərinə uyğunluğu təsdiq edilməli və Dövlət Akkreditasiya Xidmətinin akkreditasiya etdiyi sertifikatlaşdırma orqanları tərəfindən sertifikatlaşdırılmalıdır.

Hazırda respublikada 2 müəssisənin - "Bakı Tikiş Evi" ASC və "Bakı Tekstil Fabriki" MMC-nin istehsal etdiyi məktəbli formaları akkreditasiya olunmuş müvafiq sertifikatlaşdırma orqanı tərəfindən sertifikatlaşdırılıb.

## Bakıda xalça oğrusu tutuldu

**Bakıda oğurluq edən şəxs yaxalanıb. Lent.az Baş Mühafizə İdarəsinə istinadən xəbər verir ki, avqustun 26-da saat 06:00 radələrində Nizami Rayon Mühafizə İdarəsinin əməkdaşları rayonun B.Nuriyev küçəsində yerləşən 29 nömrəli binanın qarşısından vətəndaş Rəşad Qasımova məxsus 2 ədəd 250 manat dəyərində olan xalçaları oğurlayan Şamaxı rayon sakini, əvvəllər məhkum olunmuş, 1973-cü il təvəllüdlü Umudov Famil Muxtar oğlunu saxlayıb.**

O, Nizami Rayon Polis İdarəsinin 24-cü polis bölməsinə təhvil verilib. Bölmədə F.Umudovun üzərinə baxış zamanı 5.36 qram narkotik vasitə olan "marixuana" aşkar edilib.

Faktla bağlı Nizami Rayon Polis İdarəsinin 24-cü polis bölməsində araşdırma aparılır.

## Bakıda 5 kişi 2 qadına hücum etdi

**Bakıda soyğunçuluq edən şəxslər polis tərəfindən saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidməti xəbər verir ki, Sabunçu RPİ 14-cü bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində avqustun 24-də Xavər Məhərrəmovanın 500 manatını soyğunçuluq yolu ilə almış paytaxt sakinləri Əli Şərifov və Həsən Abdullayev tutulublar.**

Bundan başqa, Sabunçu RPİ 15-ci bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində avqustun 24-də Əfsanə İsmayılovanın qızıl üzüyünü və gümüş qolbağını soyğunçuluq yolu ilə almış Mehdi Əhmədov, Vüsal Həmidov və Yusif Xanquliyev də yaxalanıblar. Araşdırmalar davam etdirilir.

## İki maşın toqquşdu, 3 nəfər xəsarət aldı

**Avqustun 26-da günorta saatlarında Xaçmaz rayonu ərazisində yol-nəqliyyat hadisəsi baş verib. APA-nın şimal bürosunun verdiyi məlumata görə, qəza Gəndob-Yalama yolunun 26-cı km-də qeydə alınıb. Xaçmaz rayonu, Mançaroba kənd sakini, 1956-cı il təvəllüdlü Səmədov Nəsrəddin Şəmsəddin oğlunun idarə etdiyi 27 BG 814 dövlət nömrə nişanlı "QAZ 3110" markalı nəqliyyat vasitəsi ilə Xaçmaz rayonu, Müzəffəroba kənd sakini, 1986-cı il təvəllüdlü Hacıyev Orxan Malik oğlunun idarə etdiyi 10 LN 912 dövlət nömrə qeydiyyatlı "Vaz 21012" markalı nəqliyyat vasitəsi toqquşub.**

Qəza nəticəsində hər iki maşının sürücüsü və "QAZ 3110"-da olan sərnişin Xaçmaz rayonu, Mançaroba kənd sakini, 1966-cı il təvəllüdlü Osmanov Osman Hacıbala oğlu xəsarət alıb.

Hər üç şəxs Xaçmaz Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib. Onların vəziyyətlərinin orta-ağır olduğu bildirilir.

Faktla bağlı Baş Dövlət Yol Polisi İdarəsinin istintaq və təhqiqat bölməsində araşdırmalar aparılır.

# Nazirlik vergidən yayınan müğənnilərlə bağlı açıqlama verdi

**Məşhur müğənnilərin vergidən yayınması haqda "Yeni Müsavat"ın Vergilər Nazirliyinə ünvanladığı sorğuya cavab verilib. Nazirliyin Analitik-informasiya şöbəsindən verilən açıqlamada bildirilir:**

"Müğənnilik fəaliyyəti ilə məşğul olan şəxslər bu fəaliyyətə başladıqları günədək yaşadıqları yer üzrə vergi orqanında vergi ödəyicisi kimi uçota alınmalıdırlar. Vergi Məcəlləsinin 218.1-ci maddəsinə əsasən, həmin şəxslərin ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 120.000 manat və ondan az olduqda onlar sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququna malikdirlər. Müğənnilik fəaliyyəti ilə bağlı əldə olunan gəlirlərdən Bakı şəhərində 4 faiz, digər şəhər və rayonlarda, habelə Naxçıvan Muxtar Respublikasında 2 faiz dərəcə ilə sadələşdirilmiş vergi ödənilir.

Bu fəaliyyətlə məşğul olan şəxslər sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etmədikləri halda, onlar gəlir vergisinin ödəyicisi olurlar və həmin şəxslərin bu fəaliyyətdən əldə etdikləri gəlirlərindən həmin gəlirin əldə edilməsi ilə bağlı çəkilmiş xərcləri çıxıldıqdan sonra, qalan məbləğ 20 faiz dərəcə ilə gəlir vergisinə cəlb edilir".

Qeyd edilib ki, şou-biznes nümayəndələrinin istənilən ayda 120 min manat gəliri




## "Onların vergi öhdəliklərini yerinə yetirməsi qənaətbəxş deyil"

olarsa, dövlət büdcəsinə əlavə gəliri ödənilməlidir:

"Vergi Məcəlləsinin 155.1-ci maddəsinə əsasən, qeyd olunan fəaliyyətlə məşğul olan şəxslərin ardıcıl 12 aylıq dövrün istənilən ayında vergi tutulan əməliyyatlarının həcmi 120.000 manat və ondan artıq olduğu halda, onlar əlavə dəyər vergisinin (ƏDV) məqsədləri üçün qeydiyyata alınaraq hər ay üzrə göstərdikləri xidmətlərin dəyərindən 18 faiz dərəcə ilə ƏDV hesablamaqla yanaşı, müğənnilik fəaliyyətindən əldə etdikləri gəlirlərindən həmin gəlirin əldə edilməsi ilə bağlı çəkilmiş xərcləri çıxdıqdan sonra qalan məbləğdən 20 faiz dərəcə ilə gəlir vergisi hesablayıb dövlət büdcəsinə ödəməlidirlər".

**Eyni zamanda nazirlik tərəfindən bildirilib ki, vergi orqanları tərəfindən musiqi fəaliyyəti ilə məşğul olan şəxslərin əldə etdikləri gəlirlərə nəzarət Azərbaycan Respublikası vergilər nazirinin əmri ilə təsdiq edilmiş və Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmış "Musiqi, əyləncə və digər xidmət fəaliyyəti ilə məşğul olan şəxslərin əldə etdikləri gəlirlərin uçotuna nəzarətin həyata keçirilməsi və gəlirlərin qeydiyyatı kitabının doldurulması Qaydaları"na əsasən həyata keçirilir:**

"Qaydalara əsasən bütün şadlıq evləri və digər əyləncə obyektləri ərazi üzrə vergi orqanı tərəfindən nömrələnmiş, qaytanlanmış və möhürlənmiş xüsusi "Qeydiyyat kitabı" ilə təmin edilmişdir. Həmin kitabda qeydiyyatın sıra sayı, musiqi, əyləncə və digər xidmətlər göstərən şəxsin soyadı, adı və atasının adı, VÖEN-i, musiqi, əyləncə və digər xidmətlər göstərilən tarix, xidmətin başlandığı və sona çatdığı vaxt, istirahət, əyləncə, ictimai iaşə və digər obyektlərin məxsus olduqları vergi ödəyiciləri ilə xidmətlər göstərən şəxslər arasında bağlanmış müqavilələrdə göstərilən ödənilməli məbləğ, istirahət, əyləncə, ictimai iaşə və digər obyektlərin məxsus olduqları vergi ödəyicisinin və onun səlahiyyətli nümayəndəsinin soyadı, adı və atasının adı, istirahət, əyləncə, ictimai iaşə və digər obyektlərin məxsus olduqları vergi ödəyicisinin və onun səlahiyyətli nümayəndəsinin imzası, musiqi, əyləncə və digər xidmətlər göstərilən şəxsin imzası əks olunur. Bu kitabda qeydlər hər bir musiqiçinin və digər əyləncə xidməti göstərən şəxsin ifasına başlamazdan əvvəl aparılır. Aidiyyəti vergi orqanları hər ay ərazi üzrə istirahət, əyləncə, iaşə və digər obyektlərdə keçirilmiş tədbirlərdə musiqi xidmətləri göstərən şəxslərin əldə etdikləri gəlirlər barədə qeydiyyat kitabında olan məlumatları toplayıb icmallaşdırırlar. Vergi ödəyicisi tərəfindən təqdim olunmuş bəyannamədə əks olunmuş vergiyə cəlb olunan dövriyyə ilə vergi orqanında olan dövriyyə arasında fərq aşkarlandıqda həmin ödəyiciyə kameral qaydada əlavə vergi hesablanır və ödəyici bu barədə məlumatlandırılır".

**Nazirlik onu da qeyd edib ki, müğənnilərin vergi öhdəliklərini yerinə yetirməsi qənaətbəxş deyil:** "Vergilər Nazirliyi istər müğənnilər, istərsə də şou-biznes fəaliyyəti ilə məşğul olan digər sənət adamları ilə bağlı müntəzəm olaraq maarifləndirmə və nəzarət tədbirləri həyata keçirir, vergidən yayınanlara mütəmadi olaraq xəbərdarlıqlar göndərir.

Lakin bütün bunlara baxmayaraq, təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bu fəaliyyət sahiblərinin vergi öhdəliklərinə tam və könüllü əməletmə səviyyəsi qənaətbəxş deyil və onların bir qismi dövlət büdcəsinə ödəməli olduqlarından xeyli az vergi ödəyirlər".

**Nazirlik vergidən yayınan müğənnilərə qarşı ciddi sanksiyalar tətbiq edildiyini bildirib:** "Büdcədən yayındırılmış vergi məbləğinin həcmindən asılı olaraq belələrinə qarşı müvafiq inzibati tədbirlər görülür, onlar ciddi sanksiyalarla, eləcə də digər məsuliyyətə cəlbetmə tədbirləri ilə üzləşirlər".

❑ **Xalidə GƏRAY**

# Məşhur davalar ...

## Bizdə iki aktyor dalaşdı, onlar isə tez-tez yumruq davasına çıxırlar

**Avqustun 23-də Akademik Milli Dram Teatrının aktyorları - xalq artistləri Ramiz Məlik və Ramiz Novruz əlbəyaxa dava edib. Hadisədən sonra R.Məlik öz həmkarından polisə şikayət etmişdi. Artıq artistlər barışıblar. Amma bu hadisə bizə cəmiyyətin bir çox sahələrində baş verən qalmaqallı əl-qol savaşlarını, davaları xatırlatdı. Və təkcə bizdə yox, dünyanın müxtəlif ölkələrində...**



Söhbət təkcə şou-biznes dünyasından getmir. Siyasət, media cameələrində də oxşar proseslər baş verir.

Heç kimə sirr deyil ki, millət vəkilləri həm də gözəl natiqlər sayılır. Danışmağı, sözünün kəsilməməsini, fikirlərinə saygı duyulmasını tələb edirlər. Çox vaxt bu tələblərə riayət olunmadıqda, yəni ən qısa saygısızlıqda belə dava çıxa bilir. Davalara daha çox şahidlik edən parlamentlərin Türkiyə, Ukrayna, Rusiya, Yunanıstanda olduğu sirr deyil.

Türkiyə Böyük Millət Məclisində (TBMM) də davalar o qədər təəccüblü sayılmır. Dinamik siyasəti ilə tanınan Türkiyədə müxalifətlə iqtidar arasında tez-tez söz atışmaları, hətta təhqir müşahidə olunur. Bunların zaman-zaman TBMM-də əlbəyaxa davaya çevrilməsi də təəccüb doğurmur. Məsələn, təhsildə "4+4+4" düzənləməsinin müzakirə olunduğu iclasda ciddi münaqişə baş verib. Milli Təhsil Komissiyasının üzvləri fikirləri toqquşduqdan sonra yumruqlarını da işə keçirib. AKP-nin 100-ə yaxın deputatı isə baş verəcək ciddi qarşıdurmanı müdafiə məqsədilə az qala barrikada qurub. CHP-li 50-60-a yaxın millət vəkili isə komissiya qapısının qarşısında gözləədikdən sonra qəfil zala daxil olub və dava başlanıb. Dava zamanı CHP-li Nur Serter ayaq altında əzilib. Başqa bir partiya üzvü Altay Eyilmez isə müvazinətini itirərək yerə yıxılıb.

2 iyul 2012-ci ildə də məclisdə məhkəmələrlə bağlı müzakirə gedərkən dava baş verib. Buna səbəb AK Partiyası deputatlarının məhkəmələrlə bağlı yeni sistem tətbiqi çıxışına CHP-dən olan deputatların etirazı olub. Belə ki, CHP millət vəkilləri müxaliflərin çıxışı zamanı buna etiraz olaraq kürsülərini yumruqlayıblar. Buna etiraz edən BDP Grup Başkan vəkili Hasip Kaplan, Başqanlık Divanı kürsüsünə doğru gedib. Bir anda ara qarışıb və etirazçılarla müdafiəçilər bir-birini yumruqlamağa başlayıb.

Yunanıstan parlamentində davalar, mübahisələr ancaq sözlü səviyyədə olur. Amma bu ölkədə davaların davamı televiziya verilişlərində özünü göstərir. Ötən il Yunanıstanın xəbər kanallarından birinə çıxan, bir-birinə müxalif görüşdə olan iki deputat ciddi insident yaşayıb. Canlı yayımda nəqliyyat məsələsini müzakirə edən deputatlar şəxsi təhqirə keçincə işlər dəyişib. Hazırda internetdə bu iki deputatın davası ilə bağlı videoroliklər dolaşır. Amma bu hadisədən sonra onların hər ikisinə xəbərdarlıq edilib.

Rusiyalı analitiklər isə deyir ki, Rusiya parlamentində davalar 1990-cı illərdə keçirilən iclaslar zamanı daha aktual olub. Həmin vaxt deputatların davasında alkoqol faktoru mühüm rol oynayıb. Arxivləri araşdıranda məlum olur ki, həmin illərdə baş verən davaların səbəbkarları çox zaman iclasa sərxoş qatıldıqları üçün belə nəticə yaşanırmış. Bu, davadan dərhal sonra deputatlarla aparılan söhbət zamanı təsdiqlənmiş faktlardır.

Azərbaycan parlamentindəki Fəzail Ağamalı-Hüseyn Abdullayev arasındakı yumruqlu insidenti unutmaq olmaz. 16 mart 2007-ci ildə baş verən dava baş nazir Artur Rasizadənin hökumətin ənənəvi hesabatını oxumasından sonra deputat Hüseyn Abdullayevin çıxış üçün söz istəməsi ilə başlayıb. Ona gözləməyi təklif ediblər. Bundan sonra deputat Pənah Hüseyn çıxışa yazılmış deputatların siyahısını istəyib. Spiker Oqtay Əsədov isə həmin iri həcmli siyahının ona verilməsini qeyri-mümkün sayıb. Çıxışa yazılan deputatlardan Aydın Abbasov nitqini bitirdikdən sonra Hüseyn Abdullayev ayağa qalxaraq bildirib ki, hökumətin hesabatı deputatlara əvvəlcədən təqdim olunmalıdır. Lakin bu hesabatlar onlara verilmir. H.Abdullayev bunu millət vəkillərinin təhqir olunması kimi qiymətləndirib. "Nə vaxta qədər bizi təhqir edəcəklər", - deyə o etirazını bildirib. Deputat onu da vurğulayıb ki, hesabatı almaq üçün təqdim etdikləri sorğulara da cavab verilmir.

Bu məqamda zalda H.Abdullayevin sözlərinə gülənlər olub. H.Abdullayev onlara acıqlanıb. Deputat Fəzail Ağamalının "otur aşağı" deməsi isə H.Abdullayevi təbdən çıxarıb. O, F.Ağamalıya söyüşlə cavab verib. F.Ağamalı H.Abdullayevi tərbiyəsiz adlandırandan sonra daha bir kəskin söyüş eşidib. F.Ağamalı yerindən qalxaraq H.Abdullayevin üstünə gəlib və ona sillə vurub. H.Abdullayev cavab zərbəsi ilə F.Ağamalını yerə yıxıb. Bundan sonra deputatlar onları aralaşdırıblar və H.Abdullayevi zaldan çıxarıblar.

İnsident H.Abdullayevin parlamentdən kənarlaşması ilə nəticələnib, ardınca həbs olunub. Hazırda xaricdə mühacir həyatı yaşayır.

### Mollalar da dalaşır...

Təəccüblü gəlsə də, yas mollalarının da əlbəyaxa davası cəmiyyətdə bilinən olaylardandır. Hətta bunun gizli çəkilmiş videogörüntüləri də internetdə yayılıb. Yas məclisi və pul üstündə bir-birilərini qıran mollalar dədələrinin göruna söymədkən belə çəkinməyiblər. Və bu, artıq ölkədə səs-küy doğurmuş, izlənmə sayına görə yuxarı sıralardan birində dayanan görüntülərdir.

Dava dedikdə, yada daha çox şou-biznes dünyasının məşhurları düşür. Və bu statistika kifayət qədər qabarıqdır. Məsələn, "Sevimli şou" verilişinin reklam fasiləsində tanınmış müğənnilər Cavad Rəcəbov və Qədir Qızılsəs (Məmmədov) əlbəyaxa olublar. Hər şey efirdən əvvəl sənətçilərin bir-birinə salam verməməsindən başlayıb. Efirdə baş verən kiçik bir mübahisə isə reklam zamanı müğənnilərin bir-birinə hücum etməsi ilə nəticələnib.

Tanınmış aparıcı Kamilənin toyunda isə müğənnilər Aygün Kazımova ilə Röya arasında dava düşüb. A.Kazımovanın Röya ilə rəqs etmək istəməsi, sonuncunun isə incik olduğun üçün bundan imtina etməsi əlbəyaxa dava ilə sonuclanıb. Şahidlər müğənnilərin içkili vəziyyətdə olduğu üçün aralarındakı mübahisəni bu həddə çatdırdığını bildiriblər.

Rusiya Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovski ilə məşhur müğənni Alla Puqaçova arasında canlı efirdə ciddi qalmaqal düşüb. Alla Puqaçovanın ona ünvanladığı sualdan sonra Jirinovski özündən çıxıb və müğənnini təhqir etməyə başlayıb. Alla Puqaçova isə prezidentliyə namizəd partiya sədrini Rusiyanın adına ləkə adlandırıb. Jirinovski müğənninin üzərinə hücum edəndə isə aparıcı onları aralaşdırıb.

❑ **Hazırladı Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 188 (6216) 27 avqust 2015

# Dünyanın ən yaşlı əkizləri



Bu il 102 yaşını qeyd edən Pierr və Paul Langerok 18 avqustda dünyanın ən yaşlı əkizləri olaraq "Ginnesin Rekordlar kitabı"na düşüb. 8 iyul 1913-cü ildə doğulan əkizlər bütün həyatlarını bir yerdə keçiriblər və bu yaşadək evlənməyiblər.

Əkizlərin bir-birilərinin seçdikləri qadınlara qarşı narazılıq etdiyi məlum olub. Belçikanın Gent şəhərində yaşayan Langerok qardaşlarının hüquq sahəsində yaxşı karyeraya sahib olduğu məlum olub. Əkizlər 85 yaşında ikən həkimə gedib, həkim də onlara 100 yaşlarına qədər yaşaya biləcəklərini deyib. Qardaşlar bu qədər yaşlanmaq istəmədiklərini deyirlər.




## Həbsə görə rekord təzminat

Avstraliyada 10 il həbs cəzası verilən Roseanne Backett uzun müddət sonra günahsız olduğunu isbat edib. Məhkəmədən sonra o, 2,3 milyon dollar qazanıb. Avstraliyada yaşayan Roseanne Beckett törətmədiyi günaha görə 1991-2001-ci illər arasında həbsdə yatıb. "Telegraph"ın xəbərinə görə, Beckett ona boş yerə cəza verildiyini sübut edib. Məhkəmədən sonra "nəhayət bitdi, 26 ildir hər gün bu anı gözləyərək oyanıram" deyərək açıqlama verib. Backett haqsız yerə yatdığı 10 il üçün 2,3 milyon dollar təzminat alıb.



## Oğurluğa girdiyi evdə yanğın çıxardı

ABŞ-da bir oğru oğurluq üçün girdiyi evdə yanğın çıxarıb. Hadisə yerinə gələn polislər yanğın çıxaran şəxsin ev sahibi olmadığını öyrəndiyi zaman gerçək ortaya çıxıb. Amerikada baş verən gülməli hadisə bir oğrunun oğurluq üçün evə girməsi ilə başlayıb. Oğru evdə gəzərkən qazın açıq qaldığını və otağın yandığını görüb. Oğurluğa girdiyi evə yanğınsöndürən və polis çağıran qadın polislər gələnə qədər evdə gözləyib. Polislər qadının ev sahibi olmadığını və oraya oğurluq üçün gəldiyini başa düşüblər. Yanğını gördüyü zaman qorxuya düşən qadın nə oğurluq edə bilib, nə də qaça bilib.

# 25 il polis olduğunu deyərək aldatdı

Tailandda yaşayan 47 yaşlı kişi 25 illik arvadına və qohumlarına polis olduğunu deyərək onları aldadıb. Phumpipat Loedthanavan arvadı, iki qızı və bütün qohumları tərəfindən gizli polis olaraq tanınırmış. Əslində kiçik bijuteriyalar satan Loedthanavan bunu sirr olaraq saxlayıb. Facebook səhifəsində polis formasında olan şəklini paylaşmasından və Tailand Krallıq Polis Akademiyasında oxuduğunu yazdıqdan sonra gerçək ortaya çıxıb.

O, bu günədək hər kəsi polis olduğuna inandırmaq üçün rəsmi tədbirlərdə xüsusi paltarla iştirak edib və şəkillər çəkdirib. Sosial mediadan aktiv istifadə edən Tailand polisi sözügedən şəxsin evinə basqın edib. Yalançı polisin evindən çoxlu sayda silah, mərmi, güllə keçirməz jilet və polis forması tapıblar. Polislərə ifadəsində o, polis formasını çox sevdiyini, arzularını həyata keçirə bilmədiyi üçün belə yola əl atdığını deyib. Özünü polis kimi təqdim edən kişinin ailəsi də onun yalanını başa düşmədiyini deyib. Polislər Leodthanavanın kimisə aldadıb-aldatmadığını araşdırır.





## İki timsah - bir çanta

Louis Vuitton və Hermes kimi moda evlərinin satdığı timsah dərisindən olan yüz minlərlə çantanın istehsalı üçün Avstraliyadakı timsah bağlarının 80%-ni satın aldığı bəlli olub. Zimbabvedə bir bağda timsahlara verilən əziyyəti göstərən video ilə bağlı mübahisələr davam edərkən moda evlərinin timsah saxlanılan bağları aldığı məlum olub.

Avstraliyadakı bağ sahibləri timsah saxlama sahələrinin xüsusi qaydada qorunduğunu deyib. Timsah bağlarının sahibləri duzlu su timsahlarının nəslini qorumaq üçün onları bağda saxladıqlarını deyib. Timsah dərisindən hazırlanan çantalar Çinin ən böyük bazarlarından birində satılır. Şanxaydakı "Hermes" mağazasında bir dəri çantanın qiyməti 40 min dollara qədər qalxa bilir. Bir çanta üçün iki timsahın dərisindən istifadə edilir.




**QOÇ** - Göy qübbəsi gün ərzində sizi bir neçə dəfə sınaqdan keçirməyə çalışacaq. Buna hazır olun və hər hansı məişət problemini özünüzə dərd etməyin. Şəxsi işlərinizdə dönüş yaranmaqdadır.

**BUĞA** - Böyük dəyişikliklər astanasındasınız. Hətta lazımi məqamda düzgün qərar çıxarsanız, ayın sonuna qədər ovqatınız xoş olacaq. Tərəddüd etdiyiniz məsələləri isə təxirə salmalısınız.

**ƏKİZLƏR** - Özünüzü nə qədər təmkinli aparsanız, işləriniz də bir o qədər uğurlu gedəcək. Hansısa xırdaçılığa görə hisslərinizi kəndara çıxarmayın. Axşama yaxın maraqlı hadisələr gözlənilir.

**XƏRÇƏNG** - Astroloji göstəricilər potensial imkanlarınızın genişlənəcəyini göstərir. Əgər gücünüzə inanırsınızsa, boş dayanmağa lüzum yoxdur. Axşam rəqiblərinizdən təhlükə gözlənilir.

**ŞİR** - Adi bir gün yaşayacaqsınız. Hansısa böyük bir iş görəcəyiniz və ya qanqaraçılığı ilə rastlaşacağınız ağlabatan deyil. Bu gün riskdən, eləcə də yeni sövdələşmələrdən uzaq olmalısınız.

**QIZ** - Ulduzların düzümü maddi çətinliklərinizdən xəbər verir. Çalışın ki, büdcənizdə olan vəsaiti boş məsrəflərə xərcləməyəsiniz. Ailə üzvlərinizin problemlərinə laqeyd yanaşmayın.

**TƏRƏZİ** - Kosmik gərginlik sizi müşayiət etsə də, çılğınlıq etməsəniz, günü sakit tərzdə başa vuracaqsınız. Nahardan sonra sizi səbəbsiz münaqişələrə cəlb etmək istəyəcəklər.

**ƏQRƏB** - Yeni əlaqələr qurmaq istəyirsinizsə, bu tarixdən maksimum yararlanmağa çalışın. Nüfuzlu adamların köməyindən istifadə edin. Gəlişixoş sözlər işlətməyin. Onsuz da buna heç kim inanmayacaq.

**OXATAN** - Olduqca səmərəli bir təqvim yaşayacaqsınız. Cərəyan edən proseslər bütünlüklə zövqünüzə uyğun olacaq. Amma daxili orqanlarınızı da qorumalısınız. Ağır fiziki işlərə ara verin.

**OĞLAQ** - Nahara qədər mənfi yüklü Ay bürcünüzə girdiyi üçün həmkarlarınızla, yaxınlarınızla mübahisələriniz mümkündür. Bu səbəbdən deyilən müddətdə daxili sabitliyinizi qorumalısınız.

**SUTÖKƏN** - Nə qədər güclü olsanız da, təkbaşına hansısa vəzifənin öhdəsindən gələcəyinizi düşünməyin. Çünki sizə dəstək verən olmasa, uğurlu olaylardan uzaq düşəcəksiniz. Bəxtinizdə pul var.

**BALIQLAR** - Qarşınızda duran bu maraqlı təqvim bürcünüz üçün ən perspektivli ana çevriləcək. Sizə qarşı hiyləgər mövqedə duranlara əl-qol açmağa macal verməyin. Lazımi məqamlarda sərtlik də göstərin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Kakao yağının dəriyə faydaları



Kakao deyəndə çoxumuzun ağlına şokolad gəlir. Ləziz tərkibi, özünə xas iştahaçıcı qoxusu və heyranedici rəngi sayəsində kakao depressiya və stress kimi halları aradan qaldırır, yüksək əhval-ruhiyyə yaradır. Kakao sağlamlıq və gözəllik məqsədilə istifadə edilən olduqca faydalı yağdır. Bu, kakao ağacının meyvəsindən əldə edilən və keyfiyyətini uzun müddət itirməyən yağdır.

Şokolad başda olmaqla, qida sektorunda bir çox məhsulun hazırlanmasında istifadə edilən kakao yağı antioksidant xüsusiyyətinə görə dəriyə qulluq zamanı, bir çox kosmetik məhsulların tərkibində istifadə edilir. Kakao nəmləndirici xüsusiyyəti hesabına dəri yaralarını yaxşılaşdırır və dəriyə hamar görünüş bəxş edir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300